Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

8-ci cild

7 noyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN I SESSİYASI İCLASININ

# PROTOKOLU № 9

*Milli Məclisin iclas salonu.*
*7 noyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri **Sahibə Qafarova** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 112 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əhmədov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə namizəd.

**Toğrul Əliyev**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə namizəd.

**Vüsal Xəlilov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə namizəd.

**Gülər Paşayeva**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə namizəd.

**Bəhruz Məmmədov**, Azərbaycan Minatəmizləmə Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini.

**Rafat Qaraqurbanlı**, Azərbaycan Minatəmizləmə Agent-

liyinin Hüquq və beynəlxalq müqavilələr şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında.

2. R.T.Orucovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi haqqında.

3. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli, Bəhruz Məhərrəmov, Əli Əhmədov, Musa Qasımlı, Bəxtiyar Əliyev, Fazil Mustafa, Zahid Oruc, Mübariz Qurbanlı, Aydın Hüseynov, Kamal Cəfərov, Günay Əfəndiyeva, Hicran Hüseynova, Tural Gəncəliyev, Pərvin Kərimzadə, Sahib Alıyev, Jalə Əliyeva, Vüqar Rəhimzadə, Səyyad Salahlı, Qüdrət Həsənquliyev, Şahin İsmayılov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev, Əminə Ağazadə, Bəxtiyar Əliyev

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**2. R.T.Orucovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**4. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qa-**

**nunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**5. "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**6. "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**8. "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.38 dəq.)

| | |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**9. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Vüqar Bayramov, Nizami Səfərov, Pərvanə Vəliyeva, Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Aydın Hüseynov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–11-ci maddələr qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.15 dəq.)

| | |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 12–14-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**10. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Sadiq Qurbanov, Sahib Alıyev, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
| --- | --- |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**12. "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**13. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Azər Badamov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 13.36 dəq.)

| | |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Zahid Oruc, Fazil Mustafa, Aydın Mirzəzadə, Aydın Hüseynov, Azər Allahverənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**16. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Zahid Oruc, Hicran Hüseynova, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev, Azay Quliyev, Səbinə Salmanova,

Gülşən Paşayeva, Məlahət İbrahimqızı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.28 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*7 noyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli qonaqlarımız və hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, sabah xalqımız Zəfər Gününü qeyd edəcək. Dörd il bundan əvvəl noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz Vətən müharibəsində Zəfər yürüşünü qələbə ilə başa çatdırmışlar. 44 gün ərzində cəsur əsgər və zabitlərimizin Qarabağ torpağında hər addımı, azad edil-

miş torpaqlarda yüksəldilən hər bayrağımız ilə Azərbaycanın qanuni hüquqları bərpa edilmişdir.

8 Noyabr Zəfəri sayəsində əzəli torpaqlarımızın 30 illik işğalına son qoyulması təkcə bizim ölkəmiz üçün deyil, həm də türk dövlətləri, bütün dünya üçün tarixi hadisədir.

Haqq-ədalətin və dövlətimizin ərazi bütövlüyünün bərpa edilməsi sayəsində Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu gerçəkləşmişdir. Son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulmuşdur. Azərbaycan dövlətçiliyinin tarixində yeni dövr başlanmışdır.

Hörmətli həmkarlar, Azərbaycan dövlətinə qarşı təhdidlərə son qoymaq üçün 2023-cü ilin sentyabrında həyata keçirilən bir günlük antiterror əməliyyatı hərb tariximizin yeni şanlı səhifəsini təşkil etmişdir. Azərbaycanın suverenliyi onun bütün ərazisində bərpa edilmişdir. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu olmuşdur.

Azərbaycan BMT-nin və digər beynəlxalq təşkilatların müvafiq sənədlərinin icrasını öz gücü ilə təmin edərək Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini dəyişdirmişdir. Bununla əlaqədar mən möhtərəm cənab Prezidentin sözlərini xatırlatmaq istərdim, hörmətli həmkarlar: “Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı qələbə ilə haqlı olaraq fəxr edəcəklər”.

Hörmətli deputatlar, hazırda bölgədə daimi sülh və sabitlik yaradılması məqsədi ilə Azərbaycanın irəli sürdüyü prinsiplər əsasında Ermənistanla danışıqlar davam etdirilir. Göstərilən bütün təzyiqlərə, maneələrə, xüsusən bölgədən

kənar qüvvələrin cəhdlərinə baxmayaraq, sülh gündəliyi Azərbaycanın səyləri ilə addım-addım irəliyə aparılır.

Hörmətli həmkarlar, bu gün öz həyatının yeni dövrünü yaşayan Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri getdikcə daha geniş vüsət alır. Məcburi köçkünlərimiz doğma yurdlarına dönərək dinc həyata başlayırlar. Xüsusi qeyd edilməlidir ki, dövlət başçısı cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva müntəzəm olaraq bölgəyə səfərlər edir, aparılan işləri diqqətdə saxlayırlar.

Hörmətli həmkarlar, icazə verin, tarixi qələbələri Azərbaycana bəxş etmiş Ali Baş Komandana, Silahlı Qüvvələrin əsgər və zabitlərinə, qazilərimizə minnətdarlığımızı bildirək və onları ürəkdən təbrik edək. *(Alqışlar.)*

Təklif edirəm, Zəfər Günü münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin rifahı və tərəqqisi naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Hörmətli deputatlar, biz həm Birinci, həm də İkinci Qarabağ müharibəsində, digər döyüş əməliyyatlarında vətən və xalq yolunda canından keçmiş şəhidlərimizi, Ermənistanın soyqırımı və dövlət terrorizmi aktları nəticəsində qətlə yetirilmiş dinc soydaşlarımızı heç zaman unutmuruq, onların xatirəsini daim əziz tuturuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Hörmətli həmkarlar, son olaraq onu da qeyd etmək istəyirəm ki, Azərbaycanın tarixi qəhrəmanlıq, mərdlik və mətinlik tarixidir. Xalqımız bütün çətinliklərə sinə gərmiş və həlledici döyüşdə Zəfər qazanmışdır. Bu gün biz döyüş

meydanında qələbə ilə birlikdə bütün xalqımızı birləşdirən, onu “dəmir yumruğ”a çevirən yenilməzlik ruhunu da qeyd edirik. Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini qorumaq, siyasi və iqtisadi qüdrətini artırmaq, mədəniyyətini inkişaf etdirmək, xalqın rifahını yüksəltmək əzmi ilə gələcəyə doğru inamla addımlayır.

Diqqətinizə görə çox sağ olun.

Hörmətli həmkarlar, mən sizin hər birinizi Zəfər bayramı münasibəti ilə təbrik edirəm. Bizim qonaqlarımızı və hörmətli jurnalistlərimizi də təbrik edirəm.

Hörmətli həmkarlar, indi isə xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, cari məsələlərlə bağlı kimsə danışmaq istəyirsə, buyursun, yazılsın. Hörmətli həmkarlar, biz bu gün cari məsələləri saat 12-yə qədər davam etdirəcəyik. Xahiş edirəm, indi kim yazılıbsa, sonra yazılmasın, vaxt çatmayacaq. Mən dəqiqliklə baxıram. Birinci çıxış edən Əli Məsimlidir. Əli müəllim, buyurun.

**Əli Məsimli.** Çox sağ olun, hörmətli sədr. Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. 2020-ci

il sentyabrın 27-də başlayan və Azərbaycan xalqının tarixinə şanlı Zəfər salnaməsi kimi yazılan 44 günlük müharibənin başa çatmasından 4 il keçir.

İnsan həyatında bir ömrə bərabər anlar olduğu kimi, xalqların və dövlətlərin də tarixində əsrlərə bərabər anlar olur. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızı azad edəndə hər birimiz bir ömrə bərabər anlar yaşamaqla yanaşı, həm də birlikdə tariximizə, əsrlərə bərabər şanlı səhifələr də yaratdıq. Həmin səhifələr arasında 44 günlük Vətən müharibəsindəki böyük qələbəmizin davamı və qürur gətirən möhtəşəm səhifə kimi tariximizə əbədi yazılan 2023-cü il 19-20 sentyabr xüsusi yer tutur. Həmin gün  Azərbaycanın bütün əraziləri üzərində suverenlik təmin olundu. Azərbaycan əsgəri hərb tarixinin – 44 gün, üstəgəl, 23 saat 43 dəqiqə bərabərdir Azərbaycanın suverenliyinin bərpası formulunu yarada bildi. Azərbaycan Ordusu bu tarixi qələbəsi nəticəsində otuz ilə yaxın düşmən tapdağı altında olan tarixi torpaqlarımızı azad etməklə yanaşı, həm də iki əsrlik bir problemi həll etmiş oldu. Ona görə də ötən il sentyabrın 19-20-də antiterror əməliyyatlarını həyata keçirib suverenliyimizi tam bərpa etməyimiz həmin günü "iki əsrə bərabər gün" də adlandırmağa imkan verir. Həmin möhtəşəm gündən sonra qalib Azərbaycanımız yeni tarixi eraya qədəm qoydu. Azərbaycan xalqı Ali Baş Komandan ətrafında yumruq kimi birləşib iki əsrlik problemi həll etməklə möhtəşəm bir qələbə çaldı. Bu qələbəyə, mən hesab edirəm ki, Azərbaycan əsgəri öz möhtəşəm fəaliyyəti ilə həm öz adını, həm də xalqımızı qalib xalq kimi çox yüksək səviyyədə tarixə yazdı.

Bu qələbəmizi qəbul və həzm edə bilməyənlər də var.

Amma hesab edirik ki, əlavə maliyyə mənbəyi, əlavə səy yürütməyə ehtiyac yoxdur. Azərbaycan haqq yolundadır, beynəlxalq hüquqa uyğun surətdə öz fəaliyyətini bundan sonra da davam etdirəcək. Onun təkcə müharibədə deyil, daha böyük hədəflərə çatmaq səviyyəsində gücü var. Bu istiqamətdə səylərimiz də Azərbaycanı həmin hədəflərə aparacaq, inşallah. Zəfər Gününüz mübarək olsun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Sirr deyil ki, Cənubi Qafqaz tarixən bu coğrafiyanın dövlətləri üçün heç vaxt qələbəyə müsaid olmayıb. Bölgədə qələbə həmişə böyük güclərin inhisarında olub. Lakin cənab İlham Əliyev Vətən müharibəsində tarixin gedişatını dəyişdi və nəticə etibarı ilə bu gün Azərbaycan region tarixində hərbi-siyasi zəfəri olan yeganə dövlətdir.

Bu qələbənin təməlində bir çox amillər dayanır: Ulu Öndər Heydər Əliyevin 1969–1987-ci illərdə yaratdığı potensial, 1993-cü ildə ölkənin parçalanmaqdan xilası, 1994-cü ildə Füzuli və Cəbrayılın bir sıra məntəqələrinin azad olunması ilə nəticələnən hərbi əməliyyatlar, Əsrin Müqaviləsi və ən əsası isə siyasi irsin xalqın birmənalı dəstəyi ilə cənab İlham Əliyevə ötürülməsi. Möhtərəm Prezident isə Ulu Öndər irsinə əsaslanan yeni tarix yazdı. Azərbaycançılıq təfəkkürünə sadiq yeni azərbaycanlı yetişdirdi, güclü ordu və müdafiə sənayesi formalaşdı. Çoxsaylı maneələrə rəğmən, Ümummilli Liderin neft strategiyasını qətiyyətlə həyata keçirməklə ölkəmizi müstəqil iqtisadi gücə çevirdi və bu qətiyyət bizi böyük Zəfərə apardı.

Vətən müharibəsindən sonra yırtılan maskalar göstərir ki, Qərb bu bölgədə işğal arzulayırdı. Milli iradə işğala son qoydu. Onlar separatizmin dayanıqlılığında maraqlı idi. Cənab İlham Əliyev Avrasiya məkanında ilk dəfə Azərbaycanda separatizmin kökünü kəsdi.

Keçmiş Sovet İttifaqı coğrafiyasının əksər ölkələrində hazırda imperializmin dövlətlərin daxilinə qədər sirayət etməsinin ağır fəsadları müşahidə olunur. Amma bu coğrafiyada müstəqilliyi və suveren iradəsini qoruya bilən yeganə beynəlxalq subyekt Azərbaycandır. Qonşu dövlətlərdə seçki qutusuna qədər girənlər cənab İlham Əliyev sayəsində bu günə qədər Azərbaycana şərti sərhədlərimizdən binoklla baxmaqdan və heç bir hüquqi-siyasi əhəmiyyətə malik olmayan bəyanatlardan irəli gedə bilməyib.

Düzdür, COP29 ərəfəsindəki həssas duruma fürsət kimi yanaşılır və Qərbin ümidi indi də Azərbaycan daxilində "Troya atı" formalaşdırmağa qalıb. Məsələn, tarixin zibilliyində olanların tədricən dirçəlməyə çalışması, ayrı-ayrı xəyanətkar ünsürlərin məqalələrinin onların özlərinin belə ağlına gəlməyən platformalarda dərc edilməsi, heç bir çəki və nüfuza malik olmayan tipləri siyasi məhbus kimi təqdim etmə cəhdləri məhz bu çərçivədə sistemli anti-Azərbaycan fəaliyyətinin bir hissəsidir. Amma Qərbin oxu yenə daşa dəyir. Çünki burada ölkə əleyhinə Qərbin səsinə səs verənlərin potensialı "Troya atı" deyil, ən yaxşı halda "Troya uzunqulağı" olmağa yetir. Təbii ki, xalqımız reallıqların və kimin kim olduğunun fərqindədir, hər şeyi yaxşı başa düşür.

Azərbaycan bu gün Zəfərinin ildönümünü qeyd edir. Eyni zamanda, ölkəmizin hərbi siyasi qələbələri ilə yaratdığı reallıqları, COP29-a ev sahibliyi fonunda elə

Bakıdan dünyaya səslənmək kimi tarixi bir fürsətə nail olmuşuq. Elə bir tarixi dövr yaşamaqdayıq ki, bu dövrün şahidi olmaq özü belə şərəfdir. Bu əlamətdar günlərdə müasir qüdrətli Azərbaycanın qurucusu Ulu Öndərin ruhunu ehtiramla anır, Zəfərimizin memarı cənab İlham Əliyevə minnətdarlığımızı ifadə edir, şəhidlərimizə Allahdan rəhmət diləyir, Silahlı Qüvvələrimizin bütün heyətinə, təhlükəsizlik və polis əməkdaşlarına, o cümlədən arxa cəbhənin...

**Sədrlik edən.** Sağ olun. Hörmətli Əli Əhmədov. Buyurun.

**Əli Əhmədov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Çox hörmətli millət vəkilləri, mən də burada səsləndirilən bütün fikirlərə qoşularaq İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı möhtəşəm qələbənin nəinki Azərbaycanın müasir tarixinin, bütövlükdə, ölkəmizin çoxəsrlik tarixinin ən parlaq səhifələrindən birini təşkil etdiyini vurğulamaq istərdim. Fürsətdən istifadə edərək Azərbaycanın ərazi bütövlüyü yolunda öz canlarını qurban vermiş bütün şəhidlərimizi böyük hörmət və ehtiramla yad edirəm. Eyni zamanda, yenə də fürsətdən istifadə edərək İkinci Qarabağ müharibəsində əldə etdiyimiz qələbənin baş memarı, təşkilatçısı və təbii ki, ilhamvericisi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevi, şanlı ordumuzu, bütün əsgər və zabitlərimizi də bir daha təbrik etmək istəyirəm.

İkinci Qarabağ müharibəsində əldə etdiyimiz qələbə Azərbaycanın müasir tarixinin və Azərbaycan xalqının taleyinin ən əhəmiyyətli hadisəsidir. Həmçinin bu qələbənin regional və beynəlxalq əhəmiyyət daşıdığını da ayrıca vurğulamaqda fayda olduğunu bildirmək istəyirəm.

Azərbaycan İkinci Qarabağ müharibəsində qələbəsi ilə yaşadığımız bölgəyə sülh, əmin-amanlıq və təhlükəsizlik münasibətləri gətirmiş oldu. 4 il bundan əvvəl münaqişə vəziyyətində yaşayan xalqlar və ölkələr arasında, demək olar ki, yeni münasibətlər sistemi, sülh gündəliyi formalaşıbdır. Doğrudur, Ermənistan tərəfindən səsləndirilən bəyanatların bəziləri səmimilik testindən keçə bilməsə də, bütövlükdə, iki ölkə arasında və Cənubi Qafqazda hərbi ritorikanın siyasi ritorika ilə əvəz olunduğu aydın şəkildə müşahidə edilir. İndi bölgədə əmin-amanlıqdır və bölgənin insanları gələcəyinə, öz talelərinə daha optimistcəsinə baxa bilirlər.

İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi möhtəşəm qələbənin, eyni zamanda, böyük beynəlxalq əhəmiyyəti və mənası var idi. Çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dünya müharibələrsiz və münaqişələrsiz yaşamağı öyrənə bilməyib. Azərbaycana yaxın olan, yaxın olmayan ölkələrdə davam edən müharibələr və münaqişələr bəşəriyyəti və insanları ciddi şəkildə narahat edir. Azərbaycan qazandığı möhtəşəm qələbəsi ilə dünyaya, birincisi, haqsızlığa və ədalətsizliyə qarşı uğurlu mübarizə aparmağın yolunu göstərdi. Çünki bütün münaqişələr haqsızlıq və ədalətsizlik üzərində qərar tutur. İkincisi, sülh gündəliyinin gətirilməsi imkanlarını göstərdi. Üçüncüsü isə, bu qələbə ilə Azərbaycan yaxın zamanlarda münaqişə vəziyyətində olan ölkələr arasında yeni münasibətlər sisteminin qurulmasının mümkünlüyünü sübut etdi.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Əli müəllim. Hörmətli Musa Qasımlı da söz istəyib. Musa müəllim, buyurun.

**Musa Qasımlı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Tariximizin şanlı səhifələrindən biri olan Şuşa şəhərinin düşmən işğalından azad edilməsinin 4-cü ili tamam olur. Bu şəhər təcavüzkar Ermənistan tərəfindən işğal edildikdən sonra Azərbaycan xalqı daim onun nə zaman, necə azad ediləcəyini düşünüb və illər ötdükcə bu ümidlər də azalıb.

Nəhayət, cənab Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində bu həsrətə noyabrın 7-də son qoyuldu. Dövlət başçımızın verdiyi qələbə xəbəri milləti sevinc göz yaşları selinə bürüdü.

Qələbənin qazanılmasında iqtisadi güc, siyasi iradə, milli birlik, Qusardan Astaraya, Naxçıvandan Ağstafaya qədər bütün şəhər, rayon, qəsəbə və kəndlərdən vətəndaşlarımızın tək bayraq altında tək millət kimi "dəmir yumruq" ətrafında birləşərək tək dövlət, tək vətən uğrunda ədalətli, azadlıq müharibəsinə çiyin-çiyinə getmələri, səmərəli xarici siyasət, güclü ordu, Azərbaycan hərbçisinin qəhrəmanlığı, cənab Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin uca şəxsiyyəti, üstün zəkası, prinsipial mövqeyi, qəti iradəsi, mahir diplomatiyası, dahiyanə strateqliyi, yüksək sərkərdəlik məharəti, millətin dövlət rəhbərinə böyük inam və etimadı, Heydər Əliyev Fondunun rəhbəri hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda keçirilən dinlərarası, sivilizasiyalararası dialoq forumlarının, dünyanın müxtəlif ölkələrindəki tədbirlərin "yumşaq güc" rolunu oynaması vacib amillər oldu.

1992-ci ildə Şuşanın təcavüzkar Ermənistan tərəfindən işğal edilməsi, 2020-ci ildə isə şanlı Azərbaycan Silahlı

Qüvvələri tərəfindən azad olunması bir sıra ibrət dərsləri verir. Şuşa şəhəri ölkəmizdə xaos, anarxiya, dövlət hakimiyyətinin qanadları arasında intriqalar tüğyan edəndə, dövlət rəhbərləri zəif olanda işğal edilmişdi. Şuşa və digər torpaqlarımız ölkəmizdə sabitlik, ciddi qayda-qanun, güclü dövlət, qüdrətli dövlət rəhbəri, millət dövlətinin yanında olanda xilas edildi. Deməli, millətimizin və dövlətimizin bundan sonra da inkişafının və qarşıya qoyduğu hədəflərə çatmasının təməlində məhz bu amillər dayanır. Hazırda Şuşada və digər yaşayış məntəqələrində planlı aparılan dirçəliş işləri, vətəndaşlarımızın doğma yurdlarına qayıtmaları qürur verir.

Bu gün bütün şəhidlərimizin də ruhu şaddır. Allah şəhidlərimizə rəhmət eləsin! Qələbə münasibəti ilə hər birinizi təbrik edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Bu gün Azərbaycan xalqı çox böyük bir bayram ərəfəsindədir. 8 noyabr Azərbaycan xalqının ən şanlı tarixi səhifələrindən biridir. Son 500 ildə Azərbaycanın qazandığı qələbənin, bu uğurun müəllifi müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və onun qəhrəman şanlı əsgər və zabitləri, rəşadətli Azərbaycan Ordusudur. Azərbaycan xalqı müdrik siyasət həyata keçirən Prezident İlham Əliyevin ətrafında bir "dəmir yumruq" kimi birləşərək sülh yolu ilə torpaqlarımızın azad edilməsi üçün uzun illər fəaliyyət göstərdi. Diplomatik sahədə qazanılmış uğur, həmçinin iqtisadi inkişafla müşayiət edilirdi. Eyni zamanda, böyük bir ordu quruldu. Bu ordu ona görə quruldu ki, həm Azərbaycanın müstəqilliyini qorusun, həm onun təhlükəsizliyini təmin etsin, həm də əgər sülh

danışıqları nəticə verməzsə, torpaqlarımızın azad edilməsini, suverenliyimizin bərpa edilməsini təmin etsin.

Bəli, cənab Prezident İlham Əliyevin apardığı siyasət öz nəticəsini bu gün vermişdir. Bu gün Cənubi Qafqazda sülh, əmin-amanlıq var və Azərbaycan qalib dövlət olmasına baxmayaraq, o, Ermənistana sülh təklif etdi. Amma çox təəssüf ki, Ermənistan və onun havadarları bu günə qədər o tarixi şansı düzgün qiymətləndirə bilmirlər.

Bu gün azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda böyük quruculuq işləri görülür. Qarabağ və Şərqi Zəngəzur cənab Prezidentin rəhbərliyi altında cənnətə çevrilir. 850 mindən artıq keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdır. Artıq ərazimizin hər bir yerində, o cümlədən Şuşada, Xankəndidə, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Qubadlıda, Cəbrayılda, Zəngilanda vətəndaşlar öz seçki hüquqlarını həyata keçirərək Prezident seçkilərində və parlament seçkilərində iştirak etdilər. Budur insan haqlarının qorunması, budur söz azadlığı! Bunu Azərbaycan öz gücü ilə təmin etdi. Öz gücü ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməni özü icra etməli oldu. Ona görə də bu gün, hesab edirik ki, üzdəniraq Minsk qrupunun həmsədrlik institutu buraxılmalı, təcavüzkar Ermənistana təzyiq göstərilərək sülhə məcbur edilməli və nəhayət, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında bərpa işlərinə beynəlxalq ictimaiyyət və beynəlxalq qurumlar, o cümlədən həmin dövlətlər öz yardımını göstərməlidir. Qələbə günü münasibəti ilə hər birimizi təbrik edirəm və uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət

vəkilləri, qonaqlar və media nümayəndələri. 1918-ci ildə Qafqaz İslam Ordusu tərəfindən Bakının işğaldan azad olunması real olaraq Azərbaycan dövlətinin yaranmasına gətirib çıxardı. 2020-ci ildə Şuşanın işğaldan azad olunması isə tariximizdə ilk dəfə Azərbaycanı bütövləşdirdi. Bu bütövlüyün memarı olan Ali Baş Komandan cənab İlham Əliyevdən başlamış bütün qürurlu, şərəfli Azərbaycan əsgərinə, Azərbaycan xalqına bu Zəfər bayramının nə qədər böyük bir mənəvi güc verdiyini hamımız qeyd etməliyik və onlara minnətdarlıq borcumuzu yerinə yetirməliyik. Ən başlıca məsələ isə bu Zəfərin artıq bundan sonra ortaq zəfər ifadəsi ilə səslənməsidir. Belə ki, Türk Dövlətləri Təşkilatının Bişkekdə keçirilən 11-ci Zirvə Toplantısında təşkilatın ortaq bayramının qəbul olunması, ortaq əlifba barədə müzakirələrin aparılması bizi sevindirdi. İnşallah, bu ortaq ordunun yaradılmasının, ortaq iqtisadi məkanın formalaşmasının və digər beynəlxalq platformalarda da türk dövlətlərinin vahid bir orqanizm kimi çıxış etməsinin şahidi olacağımıza əminəm.

Azərbaycanda bizim ən böyük problemlərimizdən biri təhsildir. Dövlətin təhsillə bağlı gördüyü çox böyük işlər var. Amma təhsildə müəyyən dərəcədə problemlər yaradan məsələləri də səsləndirməliyik ki, onlar ortadan vaxtında qaldırılsın, keyfiyyətcə inkişaf etdirə bilək. Azərbaycanda orta məktəblərdə 150 mindən artıq müəllim çalışır və maraqlıdır ki, bu gün tıxaclarda sıxlıq yaradan əsas problemlərdən biri müəllimlərin yaşadığı yerdən uzaq məktəblərdə çalışmasıdır. Təsəvvür edin, Yasamalda yaşayan müəllim üç marşrut dəyişərək Pirşağıya dərs deməyə gedir. Yaxud da Kürdəxanıda yaşayan müəllim Qaradağa dərs deməyə gedir. Onun saatlarla vaxt itirməsi

nə deməkdir? Bu insanın həm mənəvi, həm fiziki yorğunluğunu təsəvvür etmək lazımdır. Axı, bu, Çindəki kimi milyonları keçən müəllim sayı deyil ki, 150 müəllimin içində bu rəqəm 50 min olsun. Bunu sistemləşdirmək nə qədər çətinlik yarada bilər? Biz bunu elə sistemləşdirməliyik ki, müəllim vaxtında məktəbə çata bilsin. Müəllimin də ailəsi, sosial problemləri var. Ailənin qayğıya ehtiyacı var. Amma bir çox müəllim bunun sıxıntısını çox ciddi şəkildə çəkir.

Bu hal məktəbdə dərsin keyfiyyətinə də ciddi təsir edir. Təsəvvür edin, müəllim tələsik iki saat yol getməlidir ki, işdən evinə çatsın. Ona görə də bu problemi vaxtında həll edə bilməsək, dərsin keyfiyyətinə də ciddi təsir edən məsələlər gündəmdə qalacaqdır. Mən bu məsələyə diqqət çəkməyi vacib saydım. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, düz bir əsr əvvəl Vətən müharibəmizlə eyni günlərdə beynəlmiləl irtica ilə savaşa qalxan böyük Atatürk əsgərlərinə deyirdi: “Siz yalnız düşməni deyil, millətin tərsinə gedən taleyini də yendiniz”. Həqiqətən, parlaq sözlərdir. 44 günlük müqəddəs müharibə xalqımızın qurtuluş savaşı olduğuna görə Prezident İlham Əliyev təkcə Ermənistanı deyil, eləcə də çoxəsrlik tariximizin köçkünlük, qaçqınlıq, soyqırım və matəm keçmişini də məğlub edib. 8 noyabr Zəfəri yeni qalib yüz ilimizin başlanğıcı, qələbə təqviminin birinci ilidir. Xankəndi salnaməsi onun nəticəsi və davamıdır. Ulu Öndər Heydər Əliyev torpaqları işğalda olan bir xalqın qarşısında “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” deyəndə minlərcə

insanımız imperiya ilə vuruşduğuna görə çeçenlərə, digər xalqlara həsədlə baxırdı. İlham Əliyevin liderliyi ilə qazanılan qələbə bizi dünyada nümunəyə, simvola, yeni millətə çevirdi. Ən qısa vaxtda, ən az itki və ən yüksək nəticə əldə olunan bir savaş məzlumiyyət və işğaldan qurtulmaq istəyən bütün xalqlar üçün örnəkdir. Avropanın mərkəzində, məsələn, Lüksemburq istənilən hərbi savaşda məğlub olub ayaqda qala bilər. Çünki Avropada şərtlər başqadır. Lakin təkcə qaliblərə yaşamaq haqqı verən Qafqazda müharibəni uduzub müstəqil dövlət qurmaq mümkün deyil.

Prezident siyasi mövcudluğun əsas təminatını – qalib ordunu dünyaya göstərdi. Düşmənin əli ilə beyinlərə qəsdən yeridilən "bu xalqdan əsgər çıxmaz" ifadəsini deyənlərin qarşısına sinəsində 70 min orden və medalı daşıyan qüvvələri qoydu. İlham Əliyevin Ali Baş Komandanlığı konstitusion normadan çox müharibədə qazanılan tituldur. Bütün əvvəlki formasiya və quruluşlarda azadlıq, qalibiyyət istəyən liderlərin idealları çin oldu. Son iki əsrdə ilk dəfə ermənilərə sərhədi böyük dövlətlər deyil, məhz Azərbaycan göstərir. Əgər Birinci Qarabağ savaşı SSRİ-nin dağılmasının siqnalı olmuşdusa, Vətən müharibəsi qlobal layları tərpədərək Azərbaycana ilk dəfə dünyanın yenidən bölüşdürülməsində iştirak fürsəti verdi. İndi biz təkcə coğrafi deyil, həm də siyasi olaraq böyümüşük. Beynəlxalq nüfuz və çəkimiz artıb. Ona görə də yeni dünya düzənində yüksək statusla iştirak edə bilərik.

Hərbi meydanda olduğu kimi diplomatik savaşda da elə bir sülh müharibəsi qazanmalıyıq ki, dövlətimiz bir daha üçüncü, dördüncü Qarabağ savaşına çəkilməsin. Torpaq yarımçıq olanda insan da natamam olur. Təkcə ərazi və

suverenlik deyil, 20 faiz sindromundan da xilas olan bütöv vətəndaşa çevrilmişik. İndi qalib dövlət ən böyük ideologiyamızdır. Qələbəmizi qan yaddaşına çevirib gələcək nəsillərə ötürməliyik ki, XXI əsrin bütöv Azərbaycanını millətimizə miras kimi qoya bilək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mübariz Qurbanlı. Buyurun.

**Mübariz Qurbanlı**. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli qonaqlar, mən hamınızı salamlayıram. Sabah Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları böyük qələbəmizi, Zəfəri təntənə ilə qeyd edəcək. Tarixi Zəfərimiz Ulu Öndər Heydər Əliyevin qoyduğu yolun təntənəsidir, Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasətinin qələbəsidir. Bu qələbə, eyni zamanda, Azərbaycanın düşmənləri üzərində siyasi, mənəvi, psixoloji, iqtisadi cəhətdən qələbəsidir. Bu qələbə, eyni zamanda, anti-Azərbaycan dairələri  üzərində qələbədir. Əlbəttə, bu qələbəyə gedən yol  o qədər də asan deyildi. Bu qələbəyə aparan yolda maneələr var idi. Bu maneələri aşmaq, bu hədəfləri dəf etmək üçün böyük istedad, böyük qabiliyyət, böyük liderlik keyfiyyəti, eyni zamanda, dünya miyqasında tanınmaq və dünya miqyasında bu liderə bütün dünya liderlərinin hörmətinin olması lazım idi. Prezidentimiz cənab İlham Əliyev dünya liderləri içərisində sayılıb-seçilən liderlərdəndir və onun liderik qabiliyyəti sayəsində biz bu qələbəni əldə edə bildik.

Hamımız bilirik ki, bu qələbəni qazanmaq üçün güclü ordu, güclü iqtisadiyyat lazım idi. Azərbaycanın dostlarının sayını artırmaq, düşmənin dostlarını isə neytral vəziyyətə gətirmək lazım idi. Beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyünü təsbit edən sənədlərin qəbuluna nail olmaq lazım idi. Bütün bunları etmək üçün zamana

ehtiyac var idi. Hər bir məsələdə qalibiyyətdən öncə bu qələbəni əldə etməyin əsaslarını yaratmaq lazım idi və bu əsasları yaratmadan hər hansı bir toqquşmaya getmək, əlbəttə, uğur gətirə bilməzdi. Ona görə də hər şey dəqiq hesablanmışdı. Düşmənin fitnəkarlıqlarının başlaması nəticəsində Azərbaycan cavab verdi və biz hərb cəbhəsində şanlı ordumuzun qələbəni əldə etməsinə nail olduq.

Bu qələbə bizim Azərbaycan xalqı üçün, bütün dünya azərbaycanlıları üçün bir qürur mənbəyidir və bu qələbənin əldə edilməsi bizim bölgədə və dünyada nüfuzumuzu daha da artırdı və bu nüfuz yüksələn xətt üzrə artmaqdadır. Ona görə biz bu qələbəyə görə möhtərəm Prezidentimizə minnətdarıq, şanlı ordumuza minnətdarıq, şəhidlərin ailələrinə minnətdarıq. Allah şəhidlərimizə rəhmət etsin! Qazilərimizə can sağlığı versin! Qələbəmiz mübarək! Zəfərimiz mübarək! Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Mübariz müəllim. Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov**. Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qonaqlar, media nümayəndələri. Hörmətli xanım sədrin, eləcə də çox hörmətli Əli müəllimin çıxışlarında qələbəmizin mahiyyəti, bütövlükdə, hər bir çaları ilə, hər bir detalı ilə aydın şəkildə bizə, ümumiyyətlə, ictimaiyyətə çatdırıldı. Mən də qısaca fikirlərimi sizinlə bölüşəcəyəm. Bizim bayram günlərimiz çoxdur. Hər birinin mahiyyəti, əhəmiyyəti var. Hər biri də bizdən ötrü dəyərlidir.

200 illik tariximizdə bizim ən mühüm iki bayramımız, iki tarixi günümüz var: Qurtuluş Günü və Zəfər Günü. Qurtuluş Günü Azərbaycan xalqının dahi oğlu, Ulu Öndərimiz Heydər Əliyevin şah əsəridir. Əslində,

qələbəmizin bütün ideoloji, siyasi, hərbi məqsədlərinin, ssenarilərinin və görüləcək işlərin əsası elə Qurtuluş Gününün müəllifi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Qeyd etdiyim kimi, bunun məntiqi nəticəsi olaraq biz Zəfər gününü əldə etdik. Həm Qurtuluş Gününə görə, həm də Zəfər Gününə görə biz birinci növbədə Ulu Öndərimizə borcluyuq. Ona rəhmət diləyirik.

Bugünkü nailiyyətlərimizə, Azərbaycanı dünya miqyasında daha da ucaldan, daha da yüksəldən qələbəmizə görə isə, sözsüz, Prezidentimizə, Ali Baş Komandanımıza minnətdarıq. Zəfərimizin mahiyyəti çıxışlarda da səsləndi. Bu, təkcə bizim hərbi qələbəmiz deyildi, bütövlükdə, Azərbaycan xalqının mənəvi qələbəsi idi. Biz təkcə erməniliyin deyil, ona havadarlıq edənlərin də üzərində qələbə çaldıq. Bir sözlə, bu qələbə bütün xalqımıza, millətimizə xas olan yüksək keyfiyyətlərimizin bir nümayişi idi.

Hörmətli xanım sədr, Siz bayaq çıxışınızda dəyərli fikirlər səsləndirdiniz, o cümlədən dediniz ki, Azərbaycanın dövlətçilik tarixində yeni bir dövr başladı. Doğrudan da, belədir. Bu dövrdə “dəmir yumruq” bizim bir simvolumuza çevrildi. Bu simvol birlikdir, gücdür. Biz bu birliyi təkcə 44 günlük müharibədə deyil, indi də görürük. COP29 tədbiri başlayacaq. Bununla əlaqədar təkcə dövlətimiz deyil, xalqımız da bu tədbirə hazırlaşır. Qaradağın qəsəbələrində olduq. Turistlərin gedəcəyi ünvan boyu insanlar həyətlərini səliqə-sahmana salırdılar.

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. 8 noyabr – Zəfər Günü təkcə ərazi bütövlüyümüzün bərpası deyil, bu Zəfər xalqımızın əsrlər boyu arzusunda olduğu öz torpağında azad yaşamaq hüququnun, milli qürurunun

bərpasıdır. 8 noyabr – Zəfər Günü təkcə zəfər salnaməsi deyil, bu Zəfər Azərbaycanın gələcəyini işıqlandıran, müstəqil dövlətimizin gələcəyinin bünövrəsi, bu torpaqların yenidən dirçəldilməsi, Azərbaycan gəncliyinin azad, müstəqil və sülh içərisində yaşaması üçün güclü və tarixi bir başlanğıcdır. 8 noyabr – Zəfər Günü təkcə müasir silahların gücü deyil, Ali Baş Komandanımız İlham Əliyevin dəmir iradəsinin, xalqımızın birliyinin, bir millət olaraq ortaq amalımızın, mənəviyyatımızın, həmrəyliyimizin gücüdür.

Bu gün yeni bir nəsil yetişir. Müstəqilliyin, azadlığın dadını bilən, rifah içində böyüyən, dünyaya açıq bir nəsil. Bu gün antimilli qüvvələrin və Qərbin əsas hədəfi məhz bu gənc nəsildir. Bizim gənclərimizin düşüncələrini zəhərləmək, onları xalqımıza, dövlətimizə, xüsusilə ənənəvi dəyərlərimizə qarşı yönləndirmək istəyirlər. Bu, heç vaxt alınmayıb və alınmayacaq da. Ancaq yeni nəsil də tariximizi düzgün öyrənməlidir. 1918-ci ildə, 1987-ci ildən 1993-cü ilə qədər Azərbaycan rəhbərliyinin etdiyi səhvləri, xalqımızın bu səhvlərə vaxtında cavab verməməsini, bu Zəfərə qədər keçdiyimiz keşməkeşli yolları, çörək növbələrini, 20 yanvarı, Xocalı faciəsini, onun səbəbkarlarını unutmamalıdır. Bu böyük Zəfəri nəyin bahasına əldə etdiyimizi daim xatırlamalıdır. Çünki xalq olaraq bu səhvləri ikinci dəfə etmək kimi bir lüksümüz yoxdur.

Əlbəttə, Zəfər günündə qürurlanmalıyıq, bu günlə fəxr etməliyik. Bu bizim haqqımızdır. Ancaq bu Zəfərin yaratdığı məsuliyyəti də anlamalıyıq. Bu məsuliyyət hissi ilə, Zəfərin bizə verdiyi inamla Ulu Öndər Heydər Əliyevin XX əsrin sonunda xalqımızın qarşısında qoyduğu hədəfə doğru irəliləməliyik. Bu hədəf Ulu Öndərin bu

sözlərində müdrikcəsinə təsbit olunub: “XXI əsr Azərbaycanın yüksəliş əsri olacaqdır”. Bu gün qalib xalqın bütün təsisatları da bu ideya ətrafında “dəmir yumruq” kimi birləşməlidir. Çünki Prezident İlham Əliyevin bütün təşəbbüsləri məhz bu ideyaya xidmət edir. Ona görə də fərd olaraq hər birimiz özümüzə sual etməliyik: Azərbaycanın yüksəlişi üçün dünən nə etmişik, bu gün nə edirik və sabah nə edəcəyik? Ən əsası isə çıxdığımız bu müqəddəs yolda, Əliyev ideyaları əsasında bəyan etdiyimiz dövlət kimi hər birimizi birləşdirən əsas dəyər və ən önəmlisi çağımızın ideyası olmalıdır. Çağımızın ideyası ilə yetişən gənc nəsil isə Azərbaycanın dövlət müstəqilliyinin, rifahının və gücünün əsaslarını təşkil edəcək. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Günay Əfəndiyeva. Buyurun.

**Günay Əfəndiyeva**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən bu gün bu kürsüdən millət vəkili kimi ilk dəfə çıxış edirəm. Hər birinizi başda, Sahibə xanım, Siz olmaqla sabah Azərbaycanın böyük qürurla qeyd edəcəyi Zəfər Bayramı münasibəti ilə təbrik edirəm. Bu qürur daim ölkəmizlə, xalqımızla olacaqdır.

Dünən, bilirsiniz ki, Qırğızıstanda mühüm hadisə – Türk Dövlətləri Təşkilatının 11-ci Zirvə Toplantısı keçirildi. Mən əvvəlki zirvə görüşlərinin bilavasitə şahidi olduğum üçün, yəni türk inteqrasiya proseslərində yaxından iştirak etdiyim üçün əminliklə deyə bilərəm ki, Qarabağ Zəfərinin türk dünyası ölkələrinin daha da yaxınlaşmasında, onlar arasında həmrəyliyin daha da gücləndirilməsində çox böyük və ciddi rolu oldu. Cənab Prezidentin dediyi “Bizim ailəmiz türk dünyasıdır” məşhur sözləri, hər zaman olduğu kimi, bu Zəfər günlərində də aktual mahiy-

yət kəsb edir. Azərbaycan Vətən müharibəsindəki qələbəsi ilə təkcə öz torpaqlarını deyil, həm də türk dünyasının zəngin, qədim dəyərlərini, çoxəsrlik irsini qorumuş oldu.

Baxın, türk ölkələrinin dövlət başçılarının Qarabağa ikitərəfli səfərləri, Türkiyə ilə Şuşa Bəyannaməsinin imzalanması, Füzulidə Özbəkistanın inşa etdiyi Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, Qazaxıstanın Qurmanqazi adına uşaq yaradıcılıq mərkəzinin açılması, Ağdamın Xıdırlı kəndində Qırğızıstanın, Cəbrayılda Macarıstanın orta məktəblərinin təməllərinin qoyulması türk xalqlarının birliyini, həm də beynəlxalq həmrəyliyimizi bir daha sübut edir. Keçən il Şuşa türk dünyasının mədəniyyət paytaxtı elan olundu. Bu il isə cənab Prezidentin təşəbbüsü ilə Şuşanın qapıları Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünə açıldı. Qarabağ Bəyannaməsi imzalandı. Şuşa, ümumilikdə, Qarabağ bir tərəfdən, türk dünyasının ciddi siyasi platformasına çevrilib, digər tərəfdən isə, Azərbaycan ikitərəfli, eləcə də çoxtərəfli görüşlərlə kifayətlənmir, qeyri-formal dostluğu, qardaşlığı təcəssüm edən görüşlər keçirir.

Beləliklə, Qarabağ, Şuşa daxil olmaqla, həm siyasi, ictimai, həm də mədəni, mənəvi baxımdan birləşdirici bir qüvvə kimi fəal rol oynayır. Bu gün Qarabağda, Şuşada yaşadığımız qələbə hissləri bu böyük ailənin hər bir üzvü üçün qürurvericidir. İnanıram ki, güclü və möhkəm bir ailə olaraq türk dünyası gələcəkdə neçə-neçə genişmiqyaslı uğurlara imza atacaqdır. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Günay xanım. Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Hörmətli xanım sədr, hörmətli

həmkarlar, hörmətli media nümayəndələri. Şanlı qələbəmizin 4 ili tamam olur. Hörmətli xanım sədr, Sizin və həmkarlarımızın təbriklərinə qoşularaq demək istəyirəm ki, bu, çox şərəfli və tarixi hadisədir.

Azərbaycan ədalətli mübarizə apararaq uzunmüddətli işğala son qoydu, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu gün başımız dikdir, alnımız açıqdır, çünki xalqımıza qarşı edilən ədalətsizliyin, etnik təmizləmə siyasətinin, Xocalı soyqırımının qisası alındı. Bütün dünya gördü ki, Azərbaycan xalqı məğlubiyyətlə barışmadı və öz məqsədinə nail oldu. 44 gün, 23 saat və 43 saniyə davam edən Zəfər yolu həm də xalqımızın sarsılmaz birliyinin göstəricisidir. Biz milli arzumuzu reallaşdıran şəxsə – Azərbaycan Prezidenti İlham Əliyevə və "sizin Mehriban" imzası ilə bizə böyük inam və ümid verən Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk. Şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edirik. Qazilərimizə şəfa diləyirik. Bu gün səngərlərdə xidmət edən əsgərlərimizə, hərbçilərimizə can sağlığı arzulayırıq.

Hörmətli xanım sədr, 44 gündə Sizin rəhbərliyinizlə parlamentimiz bütün dünyaya çox vacib parlament diplomatiyasını göstərdi. Buna görə də mən Sizə və bütün həmkarlarıma öz dərin minnətdarlığımı bildirirəm.

Dünya hansı ölkənin dağıdıcı, hansı ölkənin qurucu olduğunu, bu torpaqların əsl sahibinin kim olduğunu görür. Qısa müddətdə tikilən beynəlxalq hava limanları, yollar, tunellər, sosial infrastruktur layihələri – bunlar hamısı xalqımızın iradəsini, dövlətimizin gücünü, iqtisadi potensialını nümayiş etdirir. Artıq regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yaranıb.

Hələ də bəzi dövlətlər, beynəlxalq təşkilatlar, siyasi dairələr Azərbaycana qarşı böhtan kampaniyasını davam etdirir, qərəzli, əsassız qətnamələr qəbul edir, fikirlər səsləndirirlər. Əfsuslar olsun ki, bu zərbələri təkcə onlar deyil, həm də öz soydaşlarımız vururlar. Onları dövlətimizə, dövlətçiliyimizə, milli birliyimizə, ölkə rəhbərliyinə qarşı aparılan çirkin oyunlara cəlb edirlər. Bu, cinayətdir, vətənə xəyanətdir və onlar məsuliyyətə cəlb olunmalıdır. Bizim bununla bağlı qanunvericilik bazamız var.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bir neçə gündən sonra BMT-nin ən mötəbər tədbiri olan COP29 konfransı Azərbaycanda fəaliyyətə başlayır. Bütün dünyanın nəbzi Azərbaycanda vuracaq. Bu, çox önəmli platformadır. Bilirsiniz ki, qlobal iqlim dəyişikliyi gündəmdədir və xüsusilə də inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında fikir müxtəlifliyinin, qlobal atmosferə buraxılan karbon emissiyaları ilə bağlı ixtilafların aradan qaldırılması üçün çox önəmli bir platformadır.

Təəssüflər olsun ki, BMT-nin belə bir mötəbər tədbirinə qarşı son zamanlar yenə də ermənipərəst siyasətçilər tərəfindən Avropada, Fransada və digər ölkələrdə həqarət dolu bəyanatlar səsləndirilir. COP29 konfransının boykot edilməsi, ona etinasızlıq göstərilməsi kimi çağırışlar var. Çox təəccüblüdür. Xüsusilə Avropa deputatları ilə bağlı fikrimi bildirmək istəyirəm. Avropada iqlim dəyişikliyi məsələsi Avropa Parlamentində çox önəmli bir yer tutur. Xüsusilə də "Yaşıllar hərəkatı" adlı siyasi partiya kimi güclənməkdə olan deputatlar səhərdən axşama

kimi iqlim dəyişikliyindən danışırlar. Ancaq bu gün onlar hamısı Azərbaycana qarşı çıxış edirlər. Bu, ikiüzlü, riyakar siyasətin nəticəsidir. Yaxud da ki, Fransada, demək olar, hər gün parlamentdə müzakirələr keçirilir və ölkəmizə qarşı fikirlər səsləndirilir. Bu, xüsusilə təəccüblüdür, çünki həmin o Fransa 1960-cı ildən 1966-cı ilə qədər Əlcəzairdə 20-yə yaxın, daha sonra 1960–1970-ci illərdə "Fransız Polizeniyası" deyilən Sakit okean adalarında 200-ə yaxın nüvə sınağı keçirən ölkə olaraq qlobal atmosferə çox böyük zərbələr vurmuşdur. Bu gün onların ölkəmizə qarşı danışması, yaxud da həmin o Yaşıllar hərəkatının üzvlərinin bəyanatları qəbuledilməzdir. Bizim AŞPA-da, Avropa Parlamentində nümayəndə heyətinin üzvləri çox gözəl bilir, ifrat sol ideologiyaya malik olan hərəkat kimi onlar bütün gündəliyi darmadağın edirlər, yəni AŞPA-nın, Avropa Parlamentinin gündəliyini tuturlar, uzurpasiya ilə məşğuldurlar. Bu, önəmli bir platformadır. COP29 platforması ümumbəşəri, ümumqlobal problemdir. Buna qarşı çıxış etmək ümumbəşəri dəyərlərə qarşı çıxış etmək deməkdir.

Bir neçə gün bundan öncə gördük ki, İspaniyada – Valensiyada böyük sel fəlakəti nəyə səbəb oldu. Bunu görməzlikdən gəlmək olmaz. Bu konfransa, iqlim dəyişikliyinə qarşı çıxış etmək, hesab edirəm ki, həqiqətən, bəşəriyyətə qarşı olan bir fikirdir, addımdır. Ona görə də həmin o qüvvələr öz gündəliklərini yenidən nəzərdən keçirməli və bu böhtanlarına, həqarətlərinə son qoymalıdırlar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Pərvin Kərimzadə. Buyurun.

**Pərvin Kərimzadə.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, dəyərli millət vəkilləri və qonaqlar. Biz təkcə

müasir, müstəqillik tariximizin qızıl səhifəsini deyil, bütövlükdə, çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifəsini təşkil edən Zəfər Gününün 4-cü ildönümü ərəfəsindəyik. 8 noyabr – Zəfər Günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzidir. Bizə bu şanlı Zəfərimizin sonsuz qürurunu yaşadan, mümkünsüzü mümkünə çevirən bütün şəhidlərimizi ehtiramla yad edirik. Bizə bu qüruru yaşadan müzəffər Ali Baş Komandana, ordumuzun bütün heyətinə xalq olaraq dərin minnətdarlığımızı ifadə edirik.

İşğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması bütün dövrlərdə, müstəqillik dövrümüzdə Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlət siyasətinin ən mütləq prioriteti və strateji hədəfi olmuşdur. Biz 30 il ərzində qurtuluşdan Zəfərə doğru möhtəşəm bir yol keçdik. Bu dövr ərzində Azərbaycan məsuliyyətli ölkə olaraq daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirdi. Azərbaycan danışıqlar masasında prinsipiallıq göstərdi. Amma eyni zamanda, öz iqtisadiyyatını, ordusunu gücləndirdi. Azərbaycan Ordusunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursatla, texnika ilə təchiz olundu. Bu illər ərzində Azərbaycan elə bir gücə sahib oldu ki, artıq o, heç bir dövlətdən asılı deyil. Azərbaycan tarixində olmadığı qədər güclü bir dövlət oldu. Çünki biz görürdük ki, BMT-nin və digər beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələr, sadəcə, kağız üzərində qalırdı. Bəzən, sadəcə, bəyanatlar verməklə kifayətlənirdilər. Bu dövr ərzində Ermənistan isə öz təxribatçı əməllərindən heç əl çəkmirdi. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlandığı dövrdə biz Azər-

baycan Ordusunun güclənməsinin nəticəsini gördük, xalqımızın bir yumruq kimi birləşməsinin nəticəsini gördük.

Elə müharibə dövründə də Ermənistan öz təxribatlarından əl çəkmədi. Mənim təmsil etdiyim Gəncə şəhəri dəfələrcə raket atəşinə məruz qaldı. Amma Azərbaycan 1990-cı illərin Azərbaycanı deyildi. Azərbaycan xalqı öz liderinə güvənirdi, Azərbaycan xalqı öz ordusuna güvənirdi və yeganə məqsəd bütün torpaqlarımızın azad olunması idi.

Bu gün artıq 2024-cü ildə biz Azərbaycanın bütün ərazilərinin, sərhədlərimizin bütövlüyünün bərpasından, suverenliyimizin tam təmin olunmasından danışırıq. Əminəm ki, bu müstəqillik Ulu Öndərin də arzu etdiyi kimi, ədəbi, daimi və dönməzdir. Azərbaycanın gücü bundan sonra daha da artacaqdır və biz Azərbaycan xalqı olaraq Zəfər Gününün qürurunu hər zaman yaşayacağıq. Zəfər Gününüz mübarək.

**Sədrlik edən.** Çox sağ olun, Pərvin xanım. Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Bişkekdə türk dünyasının güclənməsi ilə bağlı olan Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının 11-ci Zirvəsi dostlarımızın, eləcə də bizə düşməncəsinə yanaşanların reaksiyasız buraxmayacaqları açıqlamalarla zəngin oldu. Mən bu məqamlardan özəlliklə ikisinin üzərində dayanmaq istərdim.

Həmin açıqlamalardan birində cənab İlham Əliyev bildirdi ki, hazırda dünyada artan təhlükələri nəzərə alaraq üzv ölkələr müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığı genişləndirməlidirlər. Ümid edirəm ki, qardaş ölkələr ən azından Ukraynanın acı təcrübəsini göz önünə gətirərək müdafiə ehtiyaclarını tam ol-

masa da, böyük həcmdə məhz özlərinin hərbi-sənaye potensialını artırmaqla, ödəməklə bu sahədə digərlərindən asılılıqlarını mümkün dərəcədə azaldacaqlar. Eyni zamanda, əgər biz daha sıx inteqrasiyadan, rəqəmsal gələcəkdən danışırıqsa, onda cənab Ərdoğanın vahid türk əlifbasına mümkün qədər tez keçidlə bağlı çağırışına əməl edilməlidir. Onun da bildirdiyi kimi, Azərbaycan və Türkiyə buna tam hazırdır, növbə digər qardaşlarımızdadır. Vahid əlifba hay havadarlığı adı altında hibrid savaş aparan türkofob, islamofob çevrələrə qarşı birgə və koordinasiyalı fəaliyyət baxımından da çox önəmlidir. Yeri gəlmişkən, məhz həmin çevrələrin nəzarətindəki medianın ölkəmizi hədəfləyən azğın informasiya hücumlarının neytrallaşdırılmasında bu həftə fəaliyyətə başlayan "Anewz" televiziya kanalının böyük rol oynayacağı düşüncəsindəyəm. Dünyanın 110-dan artıq ölkəsində yayınlanacaq bu kanalda əcnəbilərin də çalışmalarına baxmayaraq, icraçı direktor başda olmaqla orada bizi qlobal müstəvidə uğurla təmsil edə biləcək xeyli azərbaycanlı kadrlar var. Bu da məhz müzəffər Ali Baş Komandanımızın insan kapitalına göstərdiyi böyük diqqətin nəticəsidir. Bəli, Azərbaycanda heç vaxt qlobal media müstəvisində ölkəmizi uğurla təmsil edə biləcək indiki qədər çox və hazırlıqlı jurnalistlər olmayıb.

Ölkəmizə qarşı aparılan hibrid savaşın iki müstəvidə dayanmadığını nəzərə alaraq ümid edirəm ki, onlar peşəkarlıq baxımından bizə Zəfər qazandıranların önündə gedən xüsusi təyinatlılarımızdan heç də geri qalmayacaqlar.

Televiziyadan söz düşmüşkən, Real TV-nin yüksək peşəkarlığı və prinsipiallığıyla fərqlənən analitik proqram-

larının, CBC-nin rus dilindəki tok-şoularının, ARB24 və Baku TV-nin çevik xəbər siyasətinin, İTV-nin, bütövlükdə, fəaliyyətinin hazırılıqlı auditoriya tərəfindən rəğbətlə qarşılandığını böyük məmnuniyyətlə vurğulayaraq informasiya əsgərlərini dünənki, vətənin keşiyində duranları isə sabahkı bayramla bağlı ürəkdən təbrik edirəm. Diqqətinizə görə təşəkkürlər

**Sədrlik edən.** Sağ olun. Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar və media nümayəndələri. Bu günlərdə təqvimimizin ən parlaq, ən möhtəşəm səhifələrini yaşayırıq. Azərbaycan xalqı məhz Prezident İlham Əliyevin "dəmir yumruğu", dəmir iradəsi ilə böyük Zəfər qazandı, tarixi torpaqlarımız işğaldan azad edildi, bütövlüyümüz və suverenliyimiz təmin edildi. Biz yenidən Qarabağlı Azərbaycan olduq. Bu böyük Zəfərin ünvanı, müəllifi, təminatçısı xilaskar Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bu Zəfər bölgədə sülhün və sabitliyin təmininə gedən yolda yeni və möhkəm bir cığır açdı. Azərbaycan dünyaya öz varlığını, gücünü bir daha nümayiş etdirdi. Bütün dünya ölkəmizin siyasi iradəsini və ədalət prinsiplərini bir daha gördü.

İndi ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə əvvəlki illərdəki kimi daha böyük sürətlə qurulur, inkişaf edir. Ölkəmizin nüfuzu hər ötən gün daha da artır. Azərbaycan bölgənin söz sahibi, iradəsi ilə hesablaşılan güclü lider ölkəsinə çevrilir. Elə bu faktın özü ölkəmizə dostlar qazandırmaqla bərabər, bədxahlarımızın da sayını artırır. Amma haqqımızı qoyub nahaq danışanlar, xeyirə deyil, şərə qulluq edənlər, öz gözündə tiri görməyib gözümüzdə çöp axtaranlar, min bir vasitə ilə Azərbay-

canın irəlilədiyi doğru olan yolda min bir əngəl çıxarmağa çalışanlar birdəfəlik bilsinlər ki, cəhdləri əbəsdir, boşdur, nəticəsizdir.

İndi Avropa Komissiyasının rəhbəri bəyan edir ki, COP29-a qatılmayacaq. Dünyada özlərini "demokratiya qoruyucusu", "ədalət tərəzisi" elan edənlər, tələm-tələsik hazırladıqları hansısa qərarları ilə sanki Azərbaycana meydan oxuyurlar. Əslində, Ursula Von der Leyenin və onun təmsil etdiyi Avropa Komissiyası, Avropa Birliyi, onlarla birlikdə Azərbaycan əleyhinə ən çox canfəşanlıq edən Fransa və elə onlar kimi düşünən bir ovuc guya demokrat, amma əslində, qaragüruhlar bu addımlarla, bütünlükdə, stabillik, əmin-amanlıq çağırışlarına nə qədər biganə qaldıqlarını, bəşəri fəlakətlərə laqeyd olduqlarını, insanlıq və humanizmdən kasad qaldıqlarını ortaya qoyurlar. Amma bir əhəmiyyətli məqamı unudurlar ki, dünya yalnız onlardan ibarət deyil. Onlar bütün dünyanı düşündürən və həll yollarının axtarıldığı bu vacib tədbirə qatılsalar da, qatılmasalar da, tədbir baş tutacaq və Azərbaycan bir daha ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirlərdə olduğu kimi, bu dəfəki sınaqdan da alnıaçıq çıxacaq, COP29-u ən yüksək səviyyədə keçirəcəkdir. Bizlər isə, azərbaycanlı olaraq önümüzdəki təqvimin ən qürurlu günlərinin sevincini yaşayaraq, dəmir yumruğun dəmir gücü, dəmir iradəsi ilə hələ çox zəfərlərə imza atacağımızdan əminik. Tanrı Prezidentimizi, ordumuzu, xalqımızı qorusun!

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, 16 nəfər çıxış etdi. Bizim vaxtımız bitdi. Mən xahiş edirəm, bütün siyahıları silsinlər. Mən ancaq 3 nəfərə söz verəcəyəm. Birinci, hörmətli Vüqar Rəhimzadə hələ çıxış

etməyib, ancaq yazılıb. Buyurun, Vüqar müəllim.

**Vüqar Rəhimzadə.** Hörmətli Sahibə xanım, mənə söz verdiyinizə görə çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım, hörmətli media nümayəndələri, dəyərli qonaqlar. Bu gün müstəqillik tariximizin qürur səhifəsi olan Zəfərimizin 4-cü ildönümünü qeyd edirik. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıq dünya hərb tarixinə yeni səhifə yazdı. Torpaqlarımızın 20 faizi 30 il ərzində işğal altında qalsa da, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətində yaşasa da, heç zaman ərazilərimizin azad ediləcəyinə ümidini itirmədi. Çünki 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın tək tələbi ilə hakimiyyətə qayıdışı əsasında başlanan inkişaf yolu işğal altındakı torpaqlarımızın öz əzəli sahiblərinə qovuşacağı günə böyük əminlik yaratdı. Ümummilli Lider Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan davamlı inkişafa nail oldu. Dünya birliyində söz sahibliyini təmin etdi, ölkəmizin ətrafında yaradılan informasiya blokadasını yardı, bu gün artıq tarixin arxivinə atılmış keçmiş Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi baza formalaşdı.

Bu gün güclü Azərbaycan ardıcıl olaraq hədəfdən hədəfə doğru inamla addımlayır. Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dahi rəhbərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələrə ucalır. Zəfərimizin rəmzinə çevrilən “dəmir yumruq” gücümüzün, eyni zamanda, birliyimizin, həmrəyliyimizin dünyaya təqdimatı

oldu. Xalq, Prezident, ordu birliyi bizi tarixi zəfərimizə qovuşdurdu.

Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı müzəffər ordumuzla qürur duyur. Bu gün hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, Silahlı Qüvvələrimizin döyüş təcrübəsi nəticəsində qazanılan qələbə Azərbaycanı dünyada hərb qüdrəti ilə seçilən dövlət kimi tanıtdı. Bu Zəfərə çatmaq asan olmasa da, dövlət başçımızın təşəbbüsü ilə ordu quruculuğu istiqamətində davam etdirilən siyasət uğurlu nəticələrini verdi. Üzərinə düşən missiyanı şərəflə yerinə yetirən Azərbaycan əsgəri vətən, torpaq sevgisini İkinci Qarabağ müharibəsinin ilk günündə qələbə əzmi ilə irəliyə doğru gedərək 44 gün ərzində 5 şəhəri, 4 qəsəbəni, 300-ə yaxın yaşayış məntəqəsini, neçə-neçə strateji yüksəklikləri azad etməklə təsdiqlədi. İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, Prezident müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" sözləri əbədi təsdiqini tapdı.

Şanlı tariximiz olan İkinci Qarabağ müharibəsindəki Zəfərimiz həm də ədalətin, xalqımızın milli ləyaqətinin təntənəsinə çevrildi. Xalq–iqtidar–ordu üçlüyünün məntiqi nəticəsi olan birliyimiz sayəsində düşmən torpaqlarımızdan qovuldu, rəzil hala düşdü, Azərbaycanın gücü qarşısında diz çökdü. Azərbaycan Ordusu Şuşa kimi alınmaz qalanı düşməndən azad edərək dünya hərb tarixinə yeni döyüş səhifələri yazdı. Bu reallıq Şuşaya səfər edən...

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Mən ikinci sözü hörmətli Səyyad müəllimə vermək istəyirəm. Səyyad müəllim, Siz yazılmışdınız, ağsaqqalsınız, buyurun.

**Səyyad Salahlı.** Çox təşəkkür edirəm, hörmətli sədr.

Biz hansı xoşbəxt və bəxtəvər günlər yaşadığımızın bəlkə də fərqinə varmırıq. Dağın zirvəsindən düşüb Arana tərəf gələndə dağın nəhəngliyindən heyrətə gəlirik ki, biz orada idik. Bu əzəmət o dərəcədə böyük görünür ki... Bütün əsrlərin üzərindən keçərək bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil və qüdrətli bir dövlətdir. Bu dövlətə Ulu Öndər Heydər Əliyevin qurduğu böyük siyasi xətt üzərindən və bu siyasi xətti həyata keçirən mənəvi və siyasi varisi İlham Əliyev tərəfindən gəldik. Prezidentin belə bir sözü var: “Mənim prezidentliyə gəldiyim ildə doğulan gənclər qələbəni əldə etdilər”. Niyə? Çünki o gənclər İlham Əliyevlə bərabər böyüdülər, vətənə xidmətdə, vətənə sədaqətdə və vətəni naminə böyük fədakarlıqlar etməkdə onu nümunə kimi gördülər.

Biz təkcə Qarabağın müxtəlif şəhərlərində, kəndlərində qələbə qazanmadıq. Bu qələbənin siyasi bir sanbalı var idi və bunu bütün dünya gördü. Dünyanın ən müxtəlif ölkələrindən müxtəlif hiyləgər sxemlərlə və planlarla İlham Əliyevdən müsahibələr götürürdülər və hansı isə sualla onu dolaşdırmaq istəyirdilər. İki müsahibəni yadınıza salıram. O xanım BBC-nin jurnalisti idi. Cənab Prezident Assanjla bağlı ona əks cavablar verdi ki, bəs siz niyə belə edirsiniz. O çaşdı. Dinləyənlər varsa, xəyallarına gətirsinlər. Tez dedi ki: “Yaxşı, biz bu mövzunu qurtardıq, mən daha danışmaq istəmirəm”. İlham Əliyev dedi: “Niyə? Ona görə ki, sərf etmir sənə”.

Amerikalı 70 yaşlı ağsaçlı məşhur jurnalist isə dedi ki: “Hə, mən etiraf edirəm ki, Siz Amerika tarixini çox yaxşı bilirsiniz”. Dövlət başçımız da dedi ki: “Mən çox şeyləri yaxşı bilirəm”. Məhz bu biliyin, bu intellektual səviyyənin dünya liderləri, xüsusən son illər Avropa liderləri

içərisində birincilik qazanma ehtimalı, liderlik xüsusiyyətləri, sübut... A.Vuçiç: "Mən gərək İlham Əliyevlə məsləhətləşəm, mən gərək bu məsələni İlham Əliyevlə müzakirə edəm". Artıq bizim dövlət başçımıza Avropanın məşhur dövlət başçıları və liderləri etiraf edirlər ki, görünür, biz bu məsələni bir o qədər də öyrənə bilməmişik və bunun üçün məsləhətləşmələr lazımdır.

Zəfərin çox olsun, cənab Prezident!

**Sədrlik edən.** Sağ olun. Müxalif partiyanın nümayəndəsi Qüdrət Həsənquliyev yazılmışdı. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev.** Çox təşəkkür edirəm, hörmətli sədr. Sahibə xanım, Sizə ədalətli qərar qəbul etdiyinizə görə bir daha minnətdaram ki, iki YAP-çıdan sonra bir nəfər azlıqda qalan partiyanın nümayəndəsinə söz verdiniz.

Hörmətli həmkarlar, mən də hamınızı 8 Noyabr – Zəfər Günü münasibəti ilə təbrik edirəm. Xalqımızı, Ali Baş Komandanı və Birinci vitse-prezident başda olmaqla Azərbaycanın Silahlı Qüvvələrini bu möhtəşəm qələbə münasibəti ilə təbrik edirəm.

Biz, əslində, işğalçı Ermənistana deyil, dünya erməniliyinə, ədalət hissini itirmiş, vicdanlarını satmış, beynəlxalq hüquq normalarını ayaq altına atmış, xristian həmrəyliyindən çıxış edən beynəlxalq güclərə qalib gəlmişik. Ona görə qələbəmiz çox möhtəşəmdir. İllər keçdikcə xalqımız bu qələbənin möhtəşəmliyini daha dərindən görəcək, biləcək və qiymətləndirəcək. Ona görə ki, biz, doğrudan da, həlli çoxlarımıza mümkünsüz görünən bir problemi həll etmişik, özü də həmişəlik həll etmişik. Biz bu problemin həllini gələcək nəsillərə qoyma-

dıq. Artıq Azərbaycanda gələcəkdə separatizmin yenidən alovlanmasının qarşısı alındı, erməni separatçılarının, özü də qanlı separatçıların kökü kəsildi. Ölkəmiz düşmənlərdən, yağılardan təmizləndi və qədim Azərbaycanın torpaqları, ən dilbər guşəmiz – Qarabağ işğaldan azad edildi.

Hörmətli sədr, hörmətli həmkarlar, mən bir daha bu möhtəşəm qələbə münasibəti ilə hər birimizi təbrik edirəm. Hesab edirəm ki, hər keçən il zəfərdən-zəfərə böyük islahatlar ili olacaq və xalqımız gələcəkdə heç bir sıxıntı ilə üzləşməyəcək. Biz böyük çağırışlara cavab vermək üçün böyük islahatlar həyata keçirəcəyik və sosial-iqtisadi çətinliklər heç vaxt mane olmayacaq ki, bu qələbəni böyük ruh yüksəkliyi ilə qeyd edək. Allah Azərbaycanı qorusun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Qüdrət müəllim. Hörmətli həmkarlar, bu Zəfər Günü ərəfəsində Milli Məclisdə bir sıra tədbirlər keçirilib və bununla əlaqədar mən Şahin İsmayılova söz vermək istəyirəm. Buyurun, Şahin müəllim.

**Şahin İsmayılov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli sədr, əziz həmkarlar, 2024-cü il noyabrın 5-də Milli Məclis sədrinin tövsiyəsinə uyğun olaraq, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Gənclər və idman komitəsinin sədri olaraq mən, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Aparat rəhbərinin müavini Rüstəm Mahmudov, Milli Məclis Aparatının sektor müdiri Ruslan Hacıyevlə birlikdə "Xarıbülbül" zirvəsinə Zəfər Günü ərəfəsində artıq ənənə halını almış yürüş həyata keçirmişdik. Bildiyimiz kimi, "Xarıbülbül" zirvəsi 2783 metr yüksəklikdədir və şəhidlərimizin əziz xatirəsini ifadə edir. Azərbaycan

xalqının nümayəndələri olaraq bizlər də şəhidlərimizin əziz xatirəsini daim uca tutacağıq.

Bundan başqa, dünən Milli Məclisdə Gənclər və İdman komitəsinin təşəbbüsü və Milli Məclis sədrinin dəstəyi ilə şəhid övladı olan tələbələrlə görüş həyata keçirilmişdir. Şəhid övladı olan 30 nəfər tələbə Milli Məclisi ziyarət etdi. Milli Məclislə tanışlıq həyata keçirildi. Bundan sonrakı dövrdə də bizim həm tələbələrlə, həm də gənclərlə, – şəhid övladı olan gənclərdən söhbət gedir, – əlaqələrimiz davamlı şəkildə inkişaf edəcəkdir. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Şahin müəllim, o uşaqlar atalarının adlarını bizim Zəfər Gününə həsr olunmuş yeni guşəmizdə tapdılar?

**Şahin İsmayılov**. Bəli, Sahibə xanım. Biz onları Zəfər guşəsi ilə tanış etdik, məlumat verdik. Kifayət qədər maraqlarına səbəb oldu və hər biri atasının adını həmin lövhədə tapdı və xüsusi minnətdarlıq bildirdilər. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zəfər guşəsində bizim Qarabağ müharibəsi şəhidlərinin hamısının adları bir-bir yazılıb.

Hörmətli həmkarlar, bu qədər. Mən hamıya təşəkkür edirəm.

Biz indi gündəliyin məsələlərinə keçirik.. 16 məsələmiz var. Gündəliyin ilk 2 məsələsi Milli Məclisin qərar layihələridir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Milli Məclis Mərkəzi Bankın İdarə Heyəti üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir. Dövlət başçısı tərəfindən müvafiq

təqdimatlar göndərilmiş və onların əsasında Milli Məclisin qərar layihələri hazırlanmışdır. Beləliklə, hörmətli həmkarlar, biz gündəliyin 1-ci məsələsinə keçirik. Bu məsələ Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında qərar layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, mikrofon Sizindir, buyurun.

**Azər Əmiraslanov**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar. Qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Milli Məclisə Toğrul Nəcəf oğlu Əliyevin, Gülər Azər qızı Paşayevanın, Əli İsmayıl oğlu Əhmədovun və Vüsal Cahangir oğlu Xəlilovun  Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifələrinə təyin edilməsi ilə bağlı təqdimat daxil olmuşdur. Məlumat üçün qeyd edim ki, qanunvericiliyə əsasən Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin sayı sədr, Mərkəzi Bankda daimi əsaslarla çalışan 6 üzv və 2 kənar və ya müstəqil üzv daxil olmaqla 9 nəfərdən ibarətdir. Nəzərdə tutulan dəyişikliklərdən sonra İdarə Heyəti üzvlərinin sayı 3-dən 6-ya çatacaq. Müzakirəyə çıxarılmış bu məsələyə baxılması qanunvericiliklə müəyyən edilmiş prosedura və reqlamentə əsaslanır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Milli Məclisin həll etdiyi məsələlər sırasındadır. Eyni zamanda, “Milli Məclisin komitələri haqqında” Qanunun 12-ci maddəsinə

əsasən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qeyd edilən məsələ ilə bağlı təklif olunan namizədlərə baxır və onlar barəsində rəy verir.

Hörmətli xanım sədr, komitənin iclasında namizədlərin iştirakı ilə geniş müzakirə keçirilmişdir. Müzakirə zamanı namizədlərlə bağlı möhtərəm Prezidentimizin təqdimatı komitə üzvləri tərəfindən dəstəklənmiş və məqsədəuyğun hesab edilmişdir. Bununla bağlı komitə öz rəyini rəsmi olaraq təqdim etmişdir. Bir daha bildirmək istərdik ki, hər bir namizəd "Mərkəzi Bank haqqında" Qanunla İdarə Heyətinin üzvü üçün müəyyən edilmiş tələblərə cavab verir. Təqdim olunan şəxslərin yüksək ali təhsil göstəricilərinin, bank sistemində fasiləsiz və böyük iş təcrübələrinin olduğunu xüsusi olaraq qeyd etməliyik. Namizədlərin 4-ü də hazırda Mərkəzi Bankda baş direktor vəzifəsində çalışır. Hesab edirik ki, dövlət başçısının təqdimatı Mərkəzi Bank qarşısında yeni çağırış və vəzifələrin dayandığı bir vaxtda İdarə Heyətində vakant vəzifələrin, əsasən, komplektləşdirilməsini nəzərdə tutur. Belə ki, Mərkəzi Bank iqtisadi blokda təmsil olunan nüfuzlu, makroiqtisadi proseslərə geniş təsir imkanları olan mühüm təsisat kimi həm də kollegial qurumdur. İstər pul siyasəti alətlərinin tətbiqi, istərsə də maliyyə bazarlarının tənzimlənməsi ilə bağlı əsaslandırılmış kollegial qərarların qəbulu üçün İdarə Heyətində peşəkar həmkarlarımızın təmsil olunması vacib əhəmiyyət kəsb edir.

Qeyd etmək istərdik ki, iqtisadçılar Mərkəzi Bankı həm də "banklar bankı" adlandırırlar. Bu isə o deməkdir ki, bankın İdarə Heyətində təmsil olunmaq nə qədər şəreflidirsə, bir o qədər də məsuliyyətlidir. Əminik ki, müvafiq qərar verildiyi təqdirdə İdarə Heyəti üzvlüyünə təqdim

olunan həmkarlarımız cənab Prezidentin, Milli Məclisin etimadını doğruladacaq, Mərkəzi Bankın mandatının və funksiyalarının uğurla həyata keçirilməsinə, bank sisteminin və maliyyə bazarlarının inkişafına və tənzimlənməsinə öz töhfəsini verəcəklər. Hörmətli deputat həmkarlarımızdan məsələyə dair qərar layihəsinə səs vermələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Kifayət qədər məlumat verdiniz. Bizim qonaqlarımız buradadır. Əli müəllim, Toğrul müəllim, Vüsal müəllim və Gülər xanım. Bir dəqiqə qalxa bilərsiniz? Bizdə belə bir ənənə var, qonaqlar gələndə deputatlar onları görsünlər. Oldu, çox sağ olun.

Biz müzakirəyə keçirik. Siyavuş Novruzov. Hörmətli həmkarlar, nizamnaməyə uyğun olaraq, bu müzakirələr 3 dəqiqə davam edir. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli deputatlar. Azər müəllim məlumatları ətraflı şəkildə çatdırdı. Mərkəzi Bankın Azərbaycanda maliyyə, pul-kredit siyasətini həyata keçirməsi və bununla bağlı möhtərəm Prezidentimizin atdığı addımların bilavasitə təşkilatçılığı ilə məşğul olması, Azərbaycanda valyutanın daim stabil qalmasına diqqət yetirilməsi onun göstəricisidir ki, pul-kredit siyasəti Azərbaycanda düzgün həyata keçirilir.

Lakin bir neçə təklifimiz var. Mərkəzi Bankın təxminən 50 faizi, demək olar ki, yeni təyin olunur. Nəzərə alsaq ki, hər biri baş direktordur və bilavasitə bu banklar məsələsinə nəzarət edirlər, hesab edirik, vətəndaşların da arzu-istəklərini səsləndirək. Hörmətli Sahibə xanım, əgər imkan olsa, bir neçə dəqiqə də əlavə... Biz dəstəkləyirik,

səs verəcəyik və hər birinə uğurlar arzulayırıq. Amma biz vətəndaşların təkliflərini də bildirməliyik. Çünki beləcə biz də çatdırırıq ki, hansı addımlar atılsa, vətəndaşlarımızın daha yaxşı yaşamasına şərait yarada bilərik.

Birinci məsələ ondan ibarətdir ki, bank kreditləri bu gün vətəndaşlara orta və kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa imkan vermir. Çünki kreditlərin faizləri və müddətləri buna imkan yaratmır. Bu məsələyə baxılsın. Kreditlərin faizi aşağı salınsın və müddətləri uzadılsın ki, insanlar bu və ya digər şəkildə iş yerləri açsınlar, sahibkarlıqla məşğul olsunlar və ölkənin də ərzaq təhlükəsizliyinə bir dəstək olsunlar.

İkinci məsələ. Azərbaycanda müstəqillik əldə edilən dövrdə 207 bank fəaliyyət göstərirdi. Obyektiv, subyektiv səbəblərdən bu banklar bağlandı. İndi Mərkəzi Bankdan başqa 22 bank fəaliyyət göstərir və bu 22 bankın fəaliyyəti, yerli filialları bəllidir. Hesab edirəm ki, yeni bankların, regional bankların, o cümlədən xarici ölkələrlə birgə bankların açılmasına böyük ehtiyac var. Buna da şərait yaradılması vacibdir.

Üçüncü məsələ. Ölkəmizdə beynəlxalq tədbir – COP29 keçiriləcək. yüz min adam gələcək. Barmaqla sayanda Azərbaycanda 60-70 valyuta dəyişmə məntəqəsi var. Şənbə-bazar günləri bir valyutadəyişmə məntəqəsi işləyir, o da Fəvvarələr meydanındadır. Belə çıxır ki, yüz min adam sıraya...

**Sədrlik edən.** Mikrofon verin.

**Siyavuş Novruzov**. Demək, insanlar düzülüb gözləyəcəklər ki, orada valyutanı nə vaxt dəyişəcək. Bu valyutadəyişmə məntəqəsi iş yeridir. Burada 3 nəfər işləyir. Bir sahibkar öz evini, yaxud da öz obyektini kirayə verir.

Dörd ailə buradan çörək yeyir. Bunun banka nə ziyanı olar? 50 min manat məbləğində pul qoyur və qanunlara, şərtlərə uyğun valyutadəyişmə məntəqəsi açır. Biz şahidi oluruq ki, bunun tək bankın içində deyil, dünyanın hər yerində bankdan kənarda da açılması vacib şərtlərdən biridir. Hesab edirəm ki, bu məsələ də öz həllini tapsa, daha yaxşı olar.

Dördüncü məsələ. Əmanətlərin sığortalanması. Yuxarı hədd 100 min qoyulub ki, əmanət sığortalansın. Vətəndaş məcburdur ki, qalan pulunu sandıqda saxlasın. Əgər sığortalanmırsa, etibar etmir. Başa düşürəm ki, bank riskləri qoruyur. Amma bununla yanaşı, vətəndaşdan o pulu götürür. Tutaq ki, 6 faizə götürür və 14, 18, 20, 24 faizə verirsə, elə bunun içərisindən banklar özünə 7-8 faiz qazanır. Belə bir qazanc olduğu təqdirdə vətəndaş da nə qədər istəyirsə, banka pul qoysun və bu da sığortalansın. Azərbaycan stabil dövlətdir, burada hansı risklərdən söhbət gedə bilər? Hesab edirəm ki, İdarə Heyətinə seçilən hörmətli üzvlər buna da diqqət yetirsinlər.

Beşinci məsələ. Düzdür, şəhidlərə, qazilərə çox böyük kömək göstərilir. Onların borclarını, kreditlərini silirlər. Biz – Milli Məclisin deputatları bunun şahidiyik və təşəkkürümüzü bildiririk. Amma bununla yanaşı, bank əldə etdiyi gəlirlərdən aztəminatlı ailələrin, heç olmasa, övladlarının təhsil haqlarına da kömək etsə, daha yaxşı olar. Hər bir bank 10-20 nəfərin xərcini öz üzərinə götürsə... Valideynin imkanı çatmırsa, bank da qazancından uşaqların təhsil haqqını ödəyirsə, bu, vacib olan şərtlərindən biridir. Dünya qanunlarının hamısında mövcuddur ki, bu qədər vəsait sərf olunmalıdır.

Nəhayət, hesab edirəm ki, sonuncu məsələ mənzil

tikintisi kreditlərinin aşağı olmasıdır. Xüsusilə kəndlərdə fərdi mənzillərin tikilməsinə kredit ayrılmalıdır. Çünki biz adi maşın almağa kredit veririk. Hamı kreditlə bir maşın alır. Maşından vacib olanı isə vətəndaşın evlənib ailə qurmasıdır. Ev alması üçün ipoteka bunu tam əhatə etmir. O baxımdan da onlara güzəştli şəkildə uzunmüddətli kreditlərin verilməsi, evlərin tikilib verilməsi Azərbaycanın gələcəyinə xidmətlərdən biridir. Mən namizədlərin hər birinə uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, xahiş edirəm, reqlamenti nəzərə alın. Buyurun.

**Qüdrət Həsənquliyev.** Çox təşəkkür edirəm, hörmətli sədr. Mən, əlbəttə, bu namizədlərin hər birinə səsə verəcəyəm. Amma onlara ünvanlanan suallarım var. Azərbaycan Respublikasının Prezidenti 2016-cı ilin dekabrında “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi”ni təsdiq etdi. Orada bizim iqtisadiyyatımızın sürətli inkişafını təmin etmək üçün 4 hədəf müəyyən olundu. Həmin hədəflərdən birincisi monetar siyasət üzrə üzən məzənnəyə keçidin təmin olunması idi. Orada da mərhələlər üzrə – 2020-ci ilə qədər dövr və 2025-ci ilə qədər dövr müəyyən olunmuşdu. Artıq bu dövrlər başa çatır və biz hələ də üzən məzənnəyə keçməmişik. Mən istərdim, yeni təyin olunanların bu məsələyə münasibətini öyrənim.

İkinci bir məsələ. Mən zaman-zaman parlamentin iclasında məsələ qaldırırdım: niyə bizim Dövlət Neft Fondunun vəsaitlərinin bir hissəsi yerli kommersiya banklarında saxlanılmır ki, Azərbaycan sahibkarlarının ucuz kreditlərə çıxışı təmin olunsun? O cümlədən Mərkəzi

Bank öz ehtiyatlarını kommersiya banklarında aşağı faizlərlə saxlaya bilər ki, sahibkarlar ucuz kreditlər əldə etmiş olsun. Məsələn, bu ilin 10 ayı ərzində bizim iqtisadiyyatımıza cəmi 12 milyard manat investisiya qoyulub ki, bu da ölkəmiz üçün çox kiçik bir rəqəmdir. Çox təəssüf ki, bizdə banklar birgə layihələrdə iştirak etmirlər və bunu maliyyələşdirmirlər.

Bundan başqa, bilirik ki, son illər Azərbaycanda 20-dən artıq bank bağlanıb. Ona görə də əhalinin banklara olan etimadı azalıb. Burada hörmətli Siyavuş Novruzov da bu məsələni qeyd etdi. Vaxtı ilə Elman Rüstəmov deyirdi ki, evlərdə 10 milyard dollara qədər vəsait saxlanılır. Yəni hansı tədbirlər görülməlidir ki, o pullar iqtisadiyyatımıza yatırılsın, vətəndaşların banklara inamı bərpa olunsun? Bu baxımdan, hesab edirəm ki, Mərkəzi Bankın üzərinə çox böyük işlər düşür və Mərkəzi Bank bu istiqamətdə konkret addımlar atmalıdır. Mən arzulayardım ki, Mərkəzi Bankın üzvləri bu barədə məlumat versinlər. O zaman mən təklif edəndə ki, bizim yerli banklarda, heç olmasa, 2 milyard yerləşdirilsin, Elman Rüstəmov deyirdi, bizim iqtisadiyyatımız bu vəsaiti həzm edə bilməz. Amma özümüz hər il milyardlarca vəsait, beynəlxalq maliyyə qurumlarından həmin faizlərlə dövlət zəmanəti ilə kreditlər götürürük. Ona görə də həmin vəsaitlərin bir hissəsinin gətirilməsi barədə onların fikirlərini öyrənmək istərdim. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim, Siz cavabları indi istəyirsiniz? Mən düşünürəm ki, işlərinə başlasınlar, sonra isə Azər müəllimdən xahiş edək, işçi qaydada komitənizə dəvət olunsunlar. Tək bizim hörmətli namizədlərimiz deyil, bu məsələlərlə bağlı bəlkə də geniş bir formatda

bir işçi görüş keçirilər. Qüdrət müəllim, bununla razısınız? Mən düşünürəm ki, səs verək, keçsinlər, hələ bir işlərinə başlasınlar, sonra. Çox sağ olun, minnətdaram. Əminə Ağazadə. Buyurun.

**Əminə Ağazadə**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, müzakirə olunan məsələ ilə bağlı mənim bir-iki qeydim var. Sizinlə bölüşmək istərdim. İlk növbədə bizə təqdim olunan sənədlərlə bağlı. Nəyə görə mən buna nəzər yetirirəm? Çünki hesab edirəm ki, sənədlərin düzgün təqdim olunması özü mədəniyyətin bir növüdür. Bizə təqdim olunan sənədlər hörmətli namizədlərin tərcümeyi-hallarıdır. Bu tərcümeyi-hallar əllə yazılıb və bəzi hallarda xətti aydın etmək çətindir. XXI əsrdə hər şey elektron variantdadır. Biz hər zaman hakimlərin namizədliklərinə elektron variantda olan CV-ləri əsasında baxırdıq, bizə belə təqdim olunurdu. Bu namizədlərin CV-ləri belə olsun. Bu, birinci məsələ.

İkinci məsələ də ondan ibarətdir ki, həmçinin bu tərcümeyi-hallarda qanunvericiliklə yaxın qohumlar hesab olunan şəxslərin də anket məlumatları var. Lakin namizədləri təyin edən, bu məsələyə baxan şəxslər kimi, bu, maraqlı deyil. Düzdür, Milli Məclisin müvafiq komitəsi rəy veribdir və o rəydə qısa olaraq namizədlər haqqında məlumat var. Amma hesab edirəm ki, bu, kifayət etmir. Yəni gələcəkdə bu məsələyə diqqət yetirilməsini xahiş edirəm. Ümumilikdə isə, təyin olunacaq üzvlərə uğurlar arzu edirəm. Təşəkkürlər.

**Sədrlik edən.** Sağ olun. Əslində, Sizin dedikləriniz prosedur məsələlərinə aiddir. Düzdür, XXI əsrdir, amma harada olursa-olsun, tərcümeyi-hal əllə yazılır. Çünki bu, şəxsin tərcümeyi-halıdır. Ancaq dediyinizdə həqiqət var ki, orada CV-nin olması, təbii, yaxşı olardı. Əsas odur ki,

Siz namizədləri təsdiqləyirsiniz. Çox sağ olun.

Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Şübhəsiz ki, biz Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə heyətinin üzvlüyünə təklif olunmuş namizədlərin hər birini dəstəkləyirik, onlara səs verəcəyik və fəaliyyətlərində uğurlar arzulayırıq. Mərkəzi Bankın bu gün həyata keçirdiyi siyasət Azərbaycan dövlətinin həyata keçirdiyi siyasəti tam dəstəkləyir və ölkədə maliyyə sabitliyinin, əhalimizin gəlirlərinin qorunmasında müstəsna, müsbət rola malikdir.

Fürsətdən istifadə edərək mən burada bir məsələni qaldırmaq istəyirəm. Seçicilərlə görüşlər zamanı onları narahat edən bir məsələni hörmətli Mərkəzi Bankın İdarə Heyətinin diqqətinə çatdırım. Ağdamın işğal olunmamış ərazilərində 40-dan artıq kənd və inzibati ərazi vahidləri var idi. Ən böyük inzibati ərazi vahidi Çəmənli kənd inzibati ərazi dairəsidir. Bura üç kənd daxildir və 15 mindən çox əhalini əhatə edir. Orada bir dənə də olsun, bankomat yoxdur. Bankomat olan Quzanlı qəsəbəsinə isə yol təxminən 20 kilometrdir. Təsəvvür edin, kənd yerində mütəmadi avtobus, nəqliyyat vasitələri yoxdur ki, orada insanlar bu imkanlardan istifadə edə bilsinlər. Onlar dəfələrcə məsələ qaldırıblar ki, bu və bunun kimi digər iki kənd inzibati ərazi vahidi var və əhalinin çoxluğunu, orada yaşlı, xəstə insanların yaşadığını, kənd yeri olduğunu, nəqliyyat vasitələrinin o qədər də əlçatan olmadığını nəzərə alaraq həmin kəndlərdə bankomatların qoyulmasını təmin etsinlər. Mən çox xahiş edərdim ki, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti bu məsələni diqqətdə saxlasın və yaxın zamanlarda bu insanların arzusunu

yerinə yetirsin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bəxtiyar müəllim. Bu, əslində, vacib bir məsələdir. Mən düşünürəm ki, müraciət olunan yerdə bu məsələ öz həllini tapar. Azər müəllim, sözünüz varsa, buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Ümumiyyətlə, deputat həmkarlarımızın pul-kredit, monetar siyasət, bank sistemi ilə bağlı məsələlərə bu qədər həssas yanaşması təbii qəbul olunur. Çünki pul-kredit siyasəti iqtisadi siyasətin çox mühüm istiqamətlərindən biridir. Mən, sadəcə olaraq, məlumat üçün bildirim ki, qarşıdakı günlər ərzində bizim parlamentdə büdcə zərfinin müzakirəsi nəzərdə tutulur. Mövcud prosedura görə, Mərkəzi Bankın sədrinin qarşıdakı dövrdə pul siyasətinin istiqamətləri ilə bağlı çıxışı, təqdimatı gözlənilir. Mərkəzi Bankın sədri hörmətli Taleh Kazımov tərəfindən bu təqdimat olacaq və millət vəkilləri bu barədə məlumatlı olacaqlar. Eyni zamanda, Mərkəzi Bankın sədrinin öz təşəbbüsüdür ki, növbəti sessiya vaxtı Mərkəzi Bank pul siyasəti ilə bağlı bizim millət vəkillərinə geniş bir təqdimat keçirsin və pul siyasəti barədə hörmətli deputat həmkarlarımızı məlumatlandırsın. Bunu da məlumat üçün bildirmək istərdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Biz belə tədbirlərə, dinləmələrə açığıq. Tahir müəllim Mirkişili yaxşı bilir, altıncı çağırışda kifayət qədər təqdimatlar olub. Eyni zamanda, mən xahiş edərdim ki, Qüdrət müəllimin sualları, Siyavuş müəllimin, Bəxtiyar müəllimin təklifləri namizədlərimizin yadından çıxmasın və bununla bağlı fikirlərini bildirsinlər. Ancaq Sizdən də xahiş edirəm, Azər müəllim, bu məsələlər ətrafında bir işçi görüşü keçirəsiniz.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qərar layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi.

Əli müəllim, Toğrul müəllim, Vüsal müəllim və Gülər xanım, mən sizi təbrik edirəm və fəaliyyətinizdə sizə uğurlar arzulayıram. Ancaq burada eşitdikləriniz yadınızdan çıxmasın. Sağ olun.

Hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik. 2-ci məsələ Rəşad Orucovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi haqqında qərar layihəsidir. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən yenə də Sizdən xahiş edirəm, qısa məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Komitə iclasında Rəşad Temraz oğlu Orucovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin təqdimatı nəzərə alınmış və məqsədəuyğun hesab edilmişdir. Bu məsələ barəsində komitənin rəyini təqdim etmişik. Biz iqtisadçı həmkarımız Rəşad Orucova bundan sonrakı əmək fəaliyyətində və işlərində uğurlar

arzulayırıq.

Hörmətli deputat həmkarlarımızdan bu məsələyə dair qərar layihəsinə səs vermələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu məsələyə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti 6 məsələmiz üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi 3-cü məsələyə keçirik. Bu məsələ "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Təqdim olunan qanun layihəsi "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərlə əlaqədardır. Layihəyə əsasən Azərbaycan Prezidentinin fərmanının 3.2-ci bəndinə əsasən Nazirlər

Kabineti bu qanunun 9.6-cı maddəsinin mövcud redaksiyasında nəzərdə tutulan Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrı-ayrılıqda müvafiq vasitələrlə təmin edilməsi qaydasını və təminat normasını müəyyən etməyəcək. Qanunun yeni redaksiyasına əsasən onlar üçün ümumi qayda müəyyən edəcəkdir.

Təklif olunan dəyişikliklərlə bağlı qanun layihəsinə komitəmizdə baxılmışdır. Birinci və ikinci oxunuşlarda plenar iclasda hər hansı bir təklif olmadığına görə qanun layihəsi üçüncü oxunuşa tövsiyə olunur. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu qanun layihələrinə, Arzu müəllim, sizin komitənizdə baxılmışdır. Xahiş edirəm, buyurun, üçüncü oxunuşa uyğun olaraq məlumat verin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, media nümayəndələri. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunub. Hərbi təlim toplanışları ilə əlaqəlidir.

Birinci və ikinci oxunuşlarda həmkarlarım qanun layihəsi ilə bağlı bir neçə fikir bildirmişlər. Bu da komitədə yenidən müzakirə olunmuşdur. Həmin fikirlərlə əlaqədar ikinci oxunuşda əlavə rəy və təklif olmamışdır. Qanun layihəsi üçüncü oxunuşa tövsiyə olunur. Səs verməyinizi xahiş edirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 5-ci məsələ "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən indi hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun, bu qanun layihəsini Siz təqdim edirsiniz.

**Nizami Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Müzakirəyə təqdim edilən qanun layihələrinin mətnində hər hansı bir dəyişiklik baş verməmişdir. Üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Mən səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 6-cı məsələyə keçirik. “Torpaq icarəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir müəllim Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, hörmətli deputat həmkarlar. “Torpaq icarəsi haqqında” Qanuna edilmiş dəyişikliklərə ikinci oxunuşda elə bir irad, təklif bildirilmədi. Çıxış edən həmkarlarımı düşündürən bəzi məsələlər fərdi qaydada müzakirə edildi. Düzəlişlərin eyni qaydada saxlanması lazım bilindi. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Sualı, sözü olan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Əli müəllim Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli xanım sədr və həmkarlar. Mülki Prosessual Məcəllə ilə bağlı qanun layihəsinə dair ikinci oxunuşda səslənmiş fikirlərə münasibət bildirilmişdir. Üçüncü oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 105 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Kredit büroları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən Sizdən xahiş edirəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, qanun layihəsi təqdim edilərkən həm birinci, həm də ikinci oxunuşda təkliflər, qeydlər olmamışdır. Üçüncü oxunuş üçün də sənədin səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Onu da qeyd

edim ki, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də biri-birinə yaxındır.

9-cu məsələ Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsidir, 10-cu məsələ isə "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da deyim ki, hörmətli həmkarlar, bu məsələ ilə əlaqədar Azərbaycan Minatəmizləmə Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini hörmətli Bəhruz Məmmədov və agentliyin Hüquq və beynəlxalq müqavilələr şöbəsinin müdiri hörmətli Rafat Qaraqurbanlı iclasımızda iştirak edirlər. Xoş gəlmisiniz!

Hörmətli həmkarlar, təklif edirəm ki, ötən iclasda olduğu kimi, əvvəlcə qanun layihələrinin təqdimatını dinləyək, sonra müzakirə aparaq, səsverməni isə həmişə olduğu kimi ayrılıqda keçirək.

9-cu məsələyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Layihəyə dair məlumat vermək üçün, Arzu müəllim, Sizə söz verirəm. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli qonaqlar, media nümayəndələri. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi Azərbaycan Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 1-ci, 16-cı və 20-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin hüquqi, iqtisadi və sosial təşkilatları əsaslarını müəyyən edir. Plenar iclasda qanun layihəsinin birinci oxunuşu zamanı hörmətli həmkarlarımız bir sıra humanist xarakterli minatəmizləmə kimi şərəfli və çətin fəaliyyəti həyata keçirən şəxslərə şəhid statusunun verilməsi, habelə sosial təminatların gücləndirilməsi və

bəzi güzəşt və imtiyazlarla bağlı təkliflərlə çıxış etdilər. Həmkarlara öz təşəkkürümü bildirirəm. Ümumiyyətlə, layihə ilə bağlı 11 nəfər öz fikir və təklifini bildirdi. Təbii ki, biz də bu təklifləri dəstəkləyirik. Lakin qeyd etdiyim kimi, bu qanun layihəsi humanitar minatəmizləmə fəaliyyətinin həyata keçirilməsi sahəsində ictimai münasibətləri tənzimləyir. Yəni bu, hərbi sahədə olan minatəmizləmədən fərqlənir.

Bildiyimiz kimi, qanunvericiliyə əsasən şəhid statusu Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatlarla əlaqədar itkin düşən və qanunvericilikdə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərə verilir. Bu baxımdan qısa şəkildə bildirmək istəyirəm ki, səsləndirilən təkliflər bu qanun layihəsinin predmeti deyil. Lakin əminəm ki, bu güzəşt və imtiyazları nəzərdə tutan sahəvi qanunlara dair təkliflər öz müsbət həllini tapa bilər.

Ötən plenar iclasda, beynəlxalq əməkdaşlıqla bağlı təkliflər də qaldırıldı. İkinci Qarabağ müharibəsindən sonra digər dövlətlərin Azərbaycanın bu sahədəki təcrübəsindən istifadə etmək istəyi var və bu istiqamətdə də təkliflər mövcuddur. Bununla bağlı xarici dövlətlərlə danışıqlar aparılır.

Qanun layihəsinin adı ilə bağlı təkliflərə gəldikdə isə bildirmək istəyirəm ki, "Azərbaycan Respublikasının minatəmizləmə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Fərmanının 3.2-ci yarımbəndində məhz beynəlxalq təcrübə nəzərə alınmaqla Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanun layihəsinin hazırlanması barədə tapşırıq verilmişdir. Yəni

qanun layihəsinin adı dövlət başçısının fərmanından irəli gəlir. İnanıram ki, bu qanun layihəsi ölkəmizin təhlükəsizliyini və müdafiəsini təmin etmək münasibəti ilə aparılan mina əleyhinə fəaliyyətin ən doğru ifadəsi kimi belə bir şəkil alacaqdır.

Qanun layihəsinə komitəmizdə ikinci oxunuşda baxılmışdır və plenar iclasa tövsiyə olunub. Hörmətli həmkarlar, qanun layihəsinə dəstək olmağınızı xahiş edirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Bəli, dediyiniz kimi, verilən təkliflər bu qanun layihəsinə aid olmasa da, mən tapşırıq vermişəm, hörmətli həmkarların təklifləri, sualları müvafiq qurumlara çatdırılacaq.

Hörmətli həmkarlar, 10-cu məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Komitənin üzvü Kamal Cəfərov məlumat verəcək. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu qanun layihəsi Arzu müəllimin məruzə etdiyi qanunla bağlıdır. Uyğunlaşdırma xarakteri daşıyır. Hər hansı dəyişiklik olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Arzu müəllim, bu qanun layihəsinə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, bu məsələ ilə bağlı komitənin rəyini bildirin.

**Arzu Nağıyev.** Komitəmizin rəyi müsbətdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xatırladım, ikinci oxunuşdur, biz qanun layihələrini əsas ki-

mi qəbul etməliyik. Xahiş edirəm, 9-cu məsələdə olan qanun layihəsinə əsas kimi səs verəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə mən 10-cu məsələdə olan "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Hörmətli həmkarlar, mən təklif edirəm, 5 dəqiqəyə keçək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, mən də qanun layihəsini dəstəkləyirəm. Hörmətli xanım sədr, Sizə də xüsusi təşəkkür edirəm ki, birinci oxunuşda qaldırılan sosial məsələlərlə bağlı sualların uyğun dövlət qurumlarına çatdırılması ilə əlaqədar göstəriş vermisiniz.

Mən ikinci oxunuşun tələblərinə uyğun olaraq, qanun layihəsi ilə bağlı öz fikirlərimi təqdim etmək istərdim. Təklif etmək istərdim ki, qanun layihəsinin 1.1.6-cı maddəsində "yerli və beynəlxalq hüquqi və fiziki şəxslər" sözləri qeyd olunsun. Çünki minatəmizləmə prosesinə yalnız yerli hüquqi şəxslər deyil, beynəlxalq və xarici hüquqi və fiziki şəxslər də cəlb olunur. Bu baxımdan qanunun bu istiqamətdə dairəsinin genişləndirilməsini məqsədəuyğun hesab edərdim.

Eyni zamanda, həmin qanunun 1.1.14-cü maddəsində "təmizləmə" anlayışı qeyd olunub. Bu, qanun layihəsinin adına uyğun olaraq müəyyənləşdirilmiş bir termindir. Mərkəzi Şərqi Avropa ölkələrində qəbul edilmiş oxşar qanunlarda "demining" terminindən istifadə olunur. Bu, artıq, demək olar, ingilisdilli olmayan ölkələrin qanunvericiliyində də istifadə olunan termindir. Ona görə mən təklif edərdim ki, "təmizləmə" sözü ilə yanaşı "demining", yəni minadan təmizləmə termini qanun layihəsində öz əksini tapsın. Bu, eyni zamanda, qanun layihəsinin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından çox vacibdir.

Ekoloji inkişafla bağlı 4.1.1-ci maddədə "ətraf mühitin qorunması" ifadəsinin ayrıca olaraq qeyd olunmasını təklif edərdim. Çünki Azərbaycan yaşıl iqtisadiyyatı, ətraf mühitin qorunmasını prioritet edən ölkələrdəndir. COP29-un

Azərbaycanda keçirilməsi də məhz bu sıraya aid olan tədbirdir.

4.1.2-ci maddəyə hüquqi bazanın formalaşdırılması ilə yanaşı, təklif edərdim ki, "təkmilləşdirmə" sözü də əlavə olunsun. Çünki bu, həmin sahədə əsas siyasətin vacib elementlərindəndir.

Eyni zamanda, bu maddəyə 4.4.5-ci maddənin əlavə olunmasını təklif edərdim. Yəni bura əhalinin məlumatlandırılması maddənin ayrıca bir istiqaməti olaraq əlavə edilsin.

Həmçinin 5.2.7-ci maddənin əlavə olunmasını və təlimlərin keçirilməsinin ayrıca qiymətləndirmə istiqaməti kimi nəzərə alınmasını təklif edərdim.

5.4-cü maddədə vətəndaşların müraciətinə cavabla bağlı müddət 10 gün müəyyənləşdirilib. Amma 5.7-ci maddədə fiziki və hüquqi şəxslərin müraciətinə cavabın verilməsində ən gec müddət 5 gündür. Ona görə təklif edərdim ki, 5.4-cü maddədə də 10 gün deyil, 5 gün nəzərə alınsın. Çünki 10 gün kifayət qədər uzun bir müddətdir. Nəzərə alaq ki, 5.7-ci maddədə artıq 5 gündən istifadə olunur. Ona görə də hər iki maddədə müddətin 10 gün deyil, 5 gün qeyd olunmasını təklif edərdim.

Eləcə də 5.5.6-cı maddəyə yarımmaddənin əlavə olunmasını təklif edərdim. Çünki burada fiziki və hüquqi şəxslərlə bağlı qiymətləndirmə aparılan zaman onların bu və ya buna oxşar sahədə təcrübələrinin nəzərə alınmasına və bir meyar olaraq götürülməsinə ehtiyac var. Amma qanun layihəsi müraciət edən fiziki və hüquqi şəxslərin bu sahədəki təcrübəsini meyar olaraq götürmür. Ona görə təklif edərdim ki, qanuna ayrıca olaraq məhz həmin istiqamət əlavə olunsun.

Mən çox zaman almaq istəməzdim. Digər məsələləri hörmətli Arzu müəllimlə işçi qaydada müzakirə edərəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar müəllim, Siz dediniz ki, "demining" artıq termin kimi qanun layihəsinə düşsün. Əgər qəbul olunsa, onda bu sözün tərcüməsi də nəzərə alınmalıdır, ya da hər hansı bir anlayış verilməlidir. Oldu, çox sağ olun.

Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Müzakirəyə təqdim olunan qanun layihəsi əhəmiyyətli dərəcədə beynəlxalq humanitar hüquq və beynəlxalq tərksilah hüququ ilə, digər tərəfdən isə minatəmizləmə sahəsində 1977-ci ilin mart ayında BMT tərəfindən hazırlanan və 2000-ci ildə  yenilənən beynəlxalq standartlarla bağlıdır. Bunun təsdiqini layihədə istifadə edilən terminologiyada, definisiyalarda və ümumilikdə, qanunun predmetində tapmaq olar. Bu mənada beynəlxalq hüquqi bağlantıları gücləndirmək məqsədi ilə mətndə bəzi dəyişikliklərin edilməsi məsələsi nəzərdən keçirilə bilər.

Məlum olduğu kimi, minatəmizləmənin üç növü – hərbi, operativ və humanitar növləri var. Qanun layihəsinin məhz humanitar xarakterli olduğunu, yəni silahlı münaqişə bitdikdən sonra həyata keçirilən minatəmizləməni əhatə etdiyini nəzərə alaraq bu hüquqi məqamın qanun layihəsində əks etdirilməsi əhəmiyyətli ola bilər.

Xatırlatmaq istərdim ki, "Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol" mövzusunda beynəlxalq konfransın iştirakçılarına 2023-cü il 23 may tarixli müraciətində cənab Prezident vurğulamışdı ki, humanitar minatəmizləmə dövlət siyasətinin prioritetlərindən biridir.

Yuxarıda qeyd edilən məqsədlə layihənin 1.1.4-cü maddəsində ismin müvafiq hallarında “minatəmizləmə” terminindən əvvəl “humanitar” sözünün əlavə edilməsi və yekun termin qismində beynəlxalq leksikonda geniş yayılan, mina əleyhinə fəaliyyətin beynəlxalq standartlarına uyğun olan “humanitar minatəmizləmə” ifadəsinin istifadəsi hüquqi müəyyənliyi təmin edərdi.

Hörmətli deputatlar, humanitar minatəmizləmə və minalar əleyhinə fəaliyyət sahəsində beynəlxalq əməkdaşlıq universal xarakter daşıyır. Minaların və digər partlayıcı qurğuların asanlıqla humanitar fəlakət yarada biləcəyini nəzərə alaraq belə bir ölümcül təhlükənin aradan qaldırılması üçün qlobal və regional beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər və qeyri-hökumət təşkilatları postmünaqişə dövrünü yaşayan ölkələrlə humanitar minatəmizləmə sahəsində genişmiqyaslı əməkdaşlıq edirlər. Bu cür təsisatlar sırasında BMT-nin Sülhməramlı Əməliyyat Departamentinin nəzdində 1997-ci ildə yaradılan Mina Fəaliyyəti ilə bağlı Xidməti, Cenevrə Beynəlxalq Humanitar Minatəmizləmə Mərkəzi, Norveçin NPA təşkilatı və sair var. Həmçinin nəzərə almaq lazımdır ki, Azərbaycan özünün minatəmizləmə probleminin həll edilməsi ilə yanaşı, qlobal səviyyədə də humanitar minatəmizləmə prosesinə töhfə verir.

Beynəlxalq əməkdaşlıq məsələlərini aktuallaşdıran digər bir amil: BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi qlobal humanitar minatəmizləmənin təsis edilməsi təşəbbüsü Azərbaycan tərəfindən irəli sürülmüşdür. Qeyd etdiyim amillər qanun layihəsinin mətnində Humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlıq başlığı altında yeni fəslin əlavə edilməsini zəruri edir. Belə bir

təklif qəbul edildiyi təqdirdə, onu üçüncü fəsil olaraq, yekun müddəaları isə dördüncü fəsil qismində nəzərdə tutmaq olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Pərvanə Vəliyeva. Buyurun.

**Pərvanə Vəliyeva.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar və media nümayəndələri. Məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilərimizdə faktiki olaraq bir neçə ildir ki, minatəmizləmə fəaliyyəti həyata keçirilsə də, bu fəaliyyətin təşkilinin norma və prinsipləri milli qanunvericilikdə öz əksini tapmamışdı. Buna görə də bu qanun layihəsinin konseptual olaraq qəbul edilməsini zəruri hesab edirəm.

İkinci oxunuşun tələblərinə uyğun olaraq, maddələr üzrə əlavə olunmasını məqsədəmüvafiq hesab etdiyim bir neçə təklifi səsləndirmək istərdim. Ölkəmizdə faktiki olaraq bütün dünyada qəbul olunmuş beynəlxalq mina təmizləmə standartları – IMAS tətbiq olunur. Bu standartlar hazırlanarkən 100-dən çox ölkədən sahə üzrə ekspertlərin rəyi və praktiki fəaliyyət nəzərə alınmış, tətbiq zamanı da uğurlu nəticələr əldə olunmuşdur. Lakin hazırlanmış bu qanun layihəsində bəzi vacib məqamlarda beynəlxalq standartlar nəzərə alınmamışdır.

Məsələn, hazırkı qanun layihəsinin 1.1.13-cü maddəsində minatəmizləmə fəaliyyətinin həyata keçiriləcəyi bütün ərazilərə ümumi olaraq "təhlükəli ərazi" adı verilmiş və bundan sonra bütün maddələr üzrə minatəmizləmə fəaliyyətinin aparılacağı ərazi kimi bu maddədə qeyd olunan təsvirə istinad olunmuşdur. Sözügedən maddədə qeyd olunur ki, təhlükəli ərazi partlayıcı sursatların olması ehtimal edilən ərazidir. Lakin beynəlxalq standartlarda

“ehtimal edilən ərazi” kateqoriyası və anlayışı mövcud deyil. Beynəlxalq mina təmizləmə standartlarında “şübhəli təhlükəli ərazi” və “təsdiqlənmiş təhlükəli ərazi” anlayışları burada görüləcək işin həcminə görə bir-birindən hədsiz fərqləndirilir.

Şübhəli təhlükəli ərazi mina və müharibənin digər partlayıcı qalıqlarının mövcudluğuna dair dolayı sübutlar əsasında partlayıcı sursatlarla çirklənmə ilə bağlı əsaslı şübhələrin olduğu ərazidir. Təsdiqlənmiş təhlükəli ərazi isə partlayıcı hərbi sursatların mövcudluğunun birbaşa sübutu əsasında partlayıcı sursatlarla çirklənmənin mövcudluğu təsdiqlənmiş ərazidir.

Faktiki minatəmizləmə fəaliyyəti standartlara görə təsdiqlənmiş təhlükəli ərazilərdə aparılır. Qanunun mətni belə qalarsa, minatəmizləmə fəaliyyətinin aparılacağı yer ehtimal olunan təhlükəli ərazi hesab olunacaq. Bu da görüləcək işin həcmini artırmaqla yanaşı, dövlət büdcəsinə böyük yük ola bilər. Bu, həm də spekulyasiyalara yol aça bilər, istənilən ərazi təhlükəli ehtimal edilməklə onilliklərlə prosesi uzada bilər. Nəzərə almaq lazımdır ki, buna nəzarət edəcək və qiymətləndirəcək üst qurum da mövcud deyildir.

Bundan əlavə, qanun layihəsinin 6.1-ci maddəsində qeyd olunub: “Fiziki və ya hüquqi şəxslərdən daxil olmuş və ya mediada yayımlanmış məlumatlar əsasında səlahiyyətli qurum təhlükəli ərazilərə dair məlumatları informasiya sisteminə daxil edir”. Burada ərazinin ilkin qiymətləndirilməsindən, qeyri-texniki tədqiqat aparılmadan, ehtimallar üzərindən ərazi barədə məlumatın sistemə daxil edilməsindən söhbət gedir. Bu da xaotik vəziyyət yarada bilər. Təklif edirəm ki, 1-ci maddəyə “şübhəli təhlükəli

ərazi” və “təsdiqlənmiş təhlükəli ərazi” anlayışları da daxil edilərək müvafiq ərazilər üzrə aparılacaq minatəmizləmə fəaliyyəti qanunun digər maddələrində də konkret fərqləndirilsin. Xüsusilə 6-cı maddədə təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyəti üzrə müəyyən olunan işlər müvafiq ərazi kateqoriyaları nəzərə alınmaqla yenidən müəyyən edilsin.

Digər təklifim qanun layihəsinin 1.1.15-ci maddəsinə aiddir. Burada zərərçəkmiş – partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar bədən xəsarəti almış və psixoloji yardıma ehtiyacı olan və ya maddi zərər dəymiş şəxs kimi qeyd olunur. Bu bənddə minaların yalnız partladığı halda, verdiyi zərər barədə qeyd olunmuşdur. Lakin mina partlamadıqda da zərər verir. Belə ki, insanlar onun olduğu ərazidən istifadə edə bilməməklə zərərçəkmiş olurlar. Məsələn, əkin yerləri, evlərin yaxınlığı minalı vəziyyətdə olarsa, belə ərazilərdən istifadə edə bilməmək də onların sahiblərinin zərərçəkməsi deməkdir. Bu səndə də müvafiq əlavə daxil edilə bilər.

1.1.1-ci maddədə “qeyri-texniki tədqiqat” anlayışı da beynəlxalq standartdan kənardır. Belə ki, əslində, qeyri-texniki tədqiqat adətən torpağın qiymətləndirilməsi və onun şübhəli və ya təsdiqlənmiş təhlükəli ərazi kimi təsnif edilməsi üçün əsas başlanğıc nöqtəsidir. Burda da bizim üçün istinad IMAS olmalıdır.

Qanun layihəsinin beynəlxalq standartlarda istifadə olunan anlayışlarla uyğunlaşdırılmasını təklif edirəm. Fürsətdən istifadə edərək mən də başda möhtərəm cənab Ali Baş Komandan və Birinci vitse-prezidentimiz olmaqla Azərbaycan Silahlı Qüvvələrini, Sizi, həmkarlarımı və Azərbaycan xalqını möhtəşəm qələbəmiz...

**Sədrlik edən.** Biz Sizi eşitdik. Təbrikinizə görə çox sağ olun, Pərvanə xanım. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bu, çox vacib qanun layihələrindən biridir. Bu qanun layihəsi həm beynəlxalq standartlara uyğundur, həm də digər standartları özündə ehtiva edir. Amma ikinci oxunuşun tələblərinə uyğun olaraq, bir neçə təklifim var ki, onlar bu qanun layihəsində öz əksini tapsa, daha məqsədəuyğun olardı.

Bu məsələni Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsi adlandırmışıq. Amma qanun layihəsini oxuyanda məlum olur ki, bu, sırf işğaldan azad olunmuş ərazilərdə minanın təmizlənməsinə yönəlmiş qanun layihəsidir. Yəni bütövlükdə, Azərbaycanın ərazisini əhatə etmir. İndi dünyada terror aktları baş verir, fərqli sahələrdə minalar basdırılır, partlayışlar törədilir. Biz o anlayışları nəzərdən keçirdikdə görürük ki, buradakı müddəaların əksəriyyəti, Nizami müəllimin də qeyd etdiyi kimi, humanitar sahəni nəzərə almaqla ancaq işğaldan azad edilmiş ərazilərdə minaların təmizlənməsinə yönəlibdir. Məsələn, sabah elan olunsa ki, filan yerdə mina basdırılıb, deməli, həmin minanın təmizlənməsi bu qanun layihəsinin tələblərinə uyğun həyata keçirilə bilməz. Yaxud da orada xəsarət alan insanın sosial təminatı qanunvericiliyin hansı tələblərinə əsasən tənzimlənməlidir?

Qanunun 1.1.14-cü maddəsində "təmizləmə" sözünün çıxarılma, zərərsizləşdirmə, məhvetmə kimi izahı qeyd olunub. Hesab edirəm ki, bu, məqsədəuyğundur. Çünki elə yer var, oradan çıxarılır, elə yer var, orada partladılır, məhv olunur, elə yer də var ki, orada tamamilə zərərsizləşdirilir.

Burada hörmətli komitə sədri qeyd etdi. Həmkarlarımız keçən dəfəki çıxışlarında insanlara minatəmizləmə ilə bağlı müxtəlif statusların verilməsi haqqında fikirlər irəli sürdülər. Təbii ki, bu, çox ağır və psixoloji cəhətdən çətin bir işdir. İnsanlar hər gün ölümlə üzləşirlər. Onlar hər səhər saat 6-da, məhz sakit vaxtda həmin əraziyə getməlidirlər. Çünki hər hansı bir artıq hərəkət insan həyatını yekunlaşdıra bilər. Mən bunu nədən ötrü deyirəm? Yerlərdə bu məsələni qaldırırlar. Arzu müəllim şəhid statusunun verilməsi ilə bağlı öz fikirlərini bildirdi. Mən də onun fikirlərinə tərəfdaram ki, şəhid statusu, qeyd olunduğu kimi, döyüş vaxtı, müəyyən amal uğrunda dünyasını dəyişmiş insanlara verilir.

Biz çox vaxt elə hallarla rastlaşırıq ki... Hərbi müqavilə bağlamış, yaxud da çağırış əsasında xidmət keçənlər hərbi formada avtomobil qəzasına düşürsə və ya həmin ərazidə günvurmadan dünyasını dəyişirsə, onların valideynləri şəhid statusu verilməsini tələb edirlər. Bu isə düzgün deyil. Döyüşüb, torpaqlarımız uğrunda mübarizə aparan əsgərlərlə onları eyni tutmaq düzgün deyil. Ona görə də bu halı nəzərə alsınlar və bilsinlər ki, bu statusu vermək olmur. Bundan ötrü müraciətlər etməsinlər. Bu bizim qanunvericiliyə uyğun deyil.

Digər bir məsələ. "Yekun müddəalar"da göstərilir ki, minatəmizləyənlərin sosial təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir. Hesab edirəm ki, burada da yanaşma düzgün deyil. Yanaşma tamam başqa cür olmalıdır. Bakının küçəsində avtomobil qəzası nəticəsində əlillik dərəcəsi alanla minatəmizləyən zaman ayağını itirib əlillik dərəcəsi alan iki insanın pensiya təminatını eyni

kateqoriyada, eyni qaydada həyata keçirmək düzgün deyil. Buna da xüsusi yanaşma lazımdır. Çünki birinci halda bu adam qəza ilə əlaqədar əlilliyə məruz qalıbdır. Ölkənin ərazisini minadan təmizləyən, insanların həyat təhlükəsizliyini təmin etmək üçün bu addımı...

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim.

Hörmətli həmkarlar, artıq saat 1-dir. Təklif var, fasiləsiz işləyək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Mənim təkliflərimin bir çoxunu dəyərli həmkarlarım – Vüqar müəllim, Pərvanə xanım səsləndirdilər. Mən də bir neçə təklif vermək istərdim. Öncə bu qanun layihəsini hazırlayan hörmətli Arzu müəllim Nağıyevə təşəkkür edirəm. Həqiqətən, xeyli işlər görülüb. Mən də o fikri dəstəkləyirəm ki, bu qanun layihəsi ilə bağlı bu sahədə mövcud beynəlxalq standartlara uyğun bir ekspertiza aparılsa, daha yaxşı olardı.

Konkret olaraq təkliflərimə keçmək istəyərdim. Bu gün ölkəmizdə möhtərəm Prezidentimizin də çox dəyər verdiyi və əhəmiyyətli bir fəaliyyət hesab etdiyi könüllülər hərəkatı var. Hesab edirəm ki, II fəslin 10-cu maddəsində minatəmizləmə sahəsində könüllülər hərəkatı da ayrıca bir bənddə göstərilsə, daha yaxşı olar. Çünki bu gün Qarabağa böyük qayıdış baş verir. Azərbaycan dünyada torpaqları ən çox mina ilə zəhərlənmiş bir ölkədir. Yurdlarına qayıdan məcburi köçkün bacı-qardaşlarımızı qadağan olunmuş ərazilərdə, təhlükəli zonalarda olan mina təhlükəsi ilə bağlı maarifləndirməyə çox böyük ehtiyac var. Müharibədən sonra, Qarabağ işğaldan azad olunduq-

dan sonra minadan həyatını itirən şəxslərin mütləq əksəriyyəti mülki insanlardır. Ona görə bu maddəyə könüllülərlə bağlı bənd əlavə olunsa, daha yaxşı olardı.

II fəslin 11-ci maddəsində zərərçəkmişlərə psixoloji və tibbi yardım edilməsi qeyd olunub. Tibbi yardım daha çox birdəfəlik tibbi xidmətin göstərilməsini özündə ehtiva edir. Ona görə təklif edərdim ki, həmin hissəyə "müalicə, reabilitasiya və psixoloji yardım" qeyd olunsun. Çünki minadan zərərçəkən insanlar çox vaxt hansı isə ətrafını itirir deyə, onlara uzun illər reabilitasiya lazım olur.

Sonuncu III fəsildə – "Yekun müddəalar"da Minatəmizləyənlərin təminatları adlı maddə var. Arzu müəllimin komitəsində buna bir daha diqqət etsəydilər, daha yaxşı olardı. Belə ki, maddə Minatəmizləyənlərin təminatları və hüquqları, yaxud da hüquqları və təminatları adlansa, məqsədəmüvafiq olardı. Bütün dünya ölkələrində, eləcə də Birləşmiş Millətlər Təşkilatının sənədlərində bir siyahı var. Burada zərərli peşələrlə bərabər, təhlükəli peşələr də qeyd olunub. Bizim ölkədə də Nazirlər Kabinetinin təsdiq etdiyi belə bir siyahı var. Minatəmizləyənlər hansı kateqoriyaya salınacaq? Bu sualın cavabını istəyərdim. Hesab edirəm ki, bu da gələcəkdə Nazirlər Kabinetinin təhlükəli peşələr siyahısında öz əksini tapsa, daha yaxşı olar. İşçi qrupuna, komitənin sədrinə və komitə üzvlərinə çox təşəkkür edirəm.

Biz elə bir günün ərəfəsindəyik ki, münasibət bildirməyə bilmərik. 8 noyabr – Zəfər Gününün mahiyyətini möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız ən yüksək səviyyədə ifadə edibdir. O, 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Zəfər Günümüzü Azərbaycan xalqının qüdrətinin və milli qürurumuzun

təntənəsi günü adlandırdı. Həqiqətən də, bu, belədir. Biz 8 noyabr – Zəfər Gününü, müstəqilliyimizin əbədiliyinin, sarsılmazlığının rəmzi olan Dövlət Bayrağı Gününü və ən ali qanunumuz olan 12 noyabr – Konstitusiya Gününü böyük bir sevinclə, coşqu ilə qeyd edəcəyik. Mən də fürsətdən istifadə edib hər kəsi təbrik edirəm. Bu möhtəşəm Zəfəri yaşadanları, başda möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevi və onun silahdaşı Mehriban xanım Əliyevanı və bütövlükdə, şəhid ailələrini, qazilərimizi, onların ailələrini, Silahlı Qüvvələrin hər bir əməkdaşını təbrik edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Məlahət xanım. Ancaq mənim təklifim var ki, Siz o könüllü minatəmizləmə məsələsini sonra Arzu müəllimlə bir işçi qaydada müzakirə edəsiniz. Çünki mənim fikrimcə, könüllülər və minatəmizləmə bir-birinə çox da uyğun deyil.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Xanım sədr, mənim fikirlərim 10-cu məsələdə 1-ci maddənin 20-ci bəndi ilə bağlıdır. Burada operativ nəqliyyat vasitələri qeyd olunub. Operativ nəqliyyat vasitələrinə yanğından mühafizə, polis, təcili tibbi yardım və sair daxildir. Sonra isə əlavə olunur: "...minatəmizləmə fəaliyyəti üzrə səlahiyyətli qurumun minatəmizləmə əməliyyatlarında təcili və təxirəsalınmaz tədbirlərinin yerinə yetirilməsi və partlayıcı sursatların daşınması..." Arzu müəllim çox geniş məlumat verdi. Mənim öyrənmək istədiyim hansı sualdır? Məsələn, təcili tibbi yardım həm Səhiyyə Nazirliyinin, həm də onun müvafiq dövlət qurumlarının nəzdindədir. Eyni zamanda, özəl sektora da aid təcili tibbi yardım maşınları var. Bəs Minatəmizləmə Agentliyinin tapşırıqlarını, yaxud da onun

xətti ilə minatəmizləmə əməliyyatını həyata keçirən sahəyə operativ nəqliyyat vasitəsi kimi baxılır, yoxsa digər... Fikirlər səslənmişdi ki, özəl qurumlar ola bilər və onlar da minatəmizləmə fəaliyyətini həyata keçirə bilər. Bu sualın cavabını Arzu müəllimlə Tovuza səfərimiz var, o zaman ondan öyrənərəm.

Hörmətli xanım sədr, bizim iclaslarımız, Sizin tərəfinizdən, sözün əsl mənasında, çox yüksək tərzdə idarə olunur. Bu isə parlamentimizin daha da yüksək səviyyədə olması deməkdir. Onsuz da, parlamentimiz bütün parametr və keyfiyyətlərinə görə cəmiyyətdə, ictimaiyyətdə çox yüksək dəyərləndirilir. Həmişə Daxili Nizamnaməmizə əməl etməyimizi tövsiyə edirsiniz. Biz də ona əməl edirik. Seçicilərimizin bir xahişi var deyə, Sizin icazənizlə, ikinci oxunuşdan bir az kənara çıxacağam. Deməli, Qaradağ rayonunun Səngəçal qəsəbəsi Bakı–Ələt istiqamətində gedən magistral yolun üzərində yerləşir. Həmin qəsəbədə on mindən çox əhali yaşayır. Eyni zamanda, bir çox iri neft şirkətinin və digər təşkilatların orada qurumları yerləşir. Əhali şəhərə gedib-gələndə o magistral yolu iki dəfə keçməli olur. Orada sürət həddi çox olduğuna görə ölümlə nəticələnən hadisələr də baş vermişdi. Seçicilərin xahişi nədən ibarətdir? Bakı–Ələt və əks istiqamətdəki yolda sürət həddinin aşağı salınması. Mən hesab edirəm ki, aidiyyəti üzrə qurumlarımız müvafiq tədbirləri həyata keçirər. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Fərid müəllim, Aydın müəllimin verdiyi sonuncu təklifi, xahiş edirəm, ayırın. Bununla bağlı sonra müraciət etmək lazımdır.

Hörmətli həmkarlar, çox sağ olun. Mən düşünürəm, çox vacib və dəyərli təkliflər oldu. Arzu müəllim, bunların

hamısını nəzərə almaq lazımdır. Sual var idi, Tovuza gedəndə müzakirə ediləcək. Amma yadınızdan çıxmasın, sonra bizə deyin. Məlahət xanımın da bir sualı var idi. İndi deyin, xahiş edirəm. Buyurun.

**Arzu Nağıyev**. Təşəkkür edirəm, xanım sədr. Məlahət xanımın sualından başlamaq istəyirəm. "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu var. ANAMA da icraçı orqan kimi bu qanuna tabe olmalıdır, bu onun borcudur. Onlar özləri bu məsələni həll edir. Ancaq minatəmizləmədə ANAMA-nın köməkçisi, ya ANAMA-nın könüllüsü məsələləri – bu, məqsədəmüvafiq deyil. Bir daha deyirəm, bu, "Könüllü fəaliyyət haqqında" Qanunla təsbit olunursa, onlara uyğundursa, özləri bu məsələni həll edə bilər.

**Sədrlik edən.** Sağ olun. Mən düşünürəm ki, Məlahət xanımın sözündə ayrı bir məntiq və ayrı bir həqiqət var idi. Məlahət xanım maarifləndirmə sözünü işlətdi. Mən düşünürəm ki, bu maarifləndirmə məsələsi ilə bağlı daha geniş auditoriya, cavanlar və sair nəzərdə tutulur. Mən elə başa düşürəm. Təbii ki, verilən bütün təkliflər qeyd olundu. Pərvanə xanımın qeydləri var idi. Siyavuş müəllimin, bütün çıxış edənlərin sualları ilə çox ciddi məşğul olmaq lazımdır.

İndi isə, hörmətli həmkarlar, biz ikinci oxunuşa uyğun olaraq, qanun layihəsinin prosedurlarına keçirik. Qanun layihələrini əvvəlcə maddələr üzrə, sonra isə bütövlükdə səsə qoyacağam. 9-cu məsələdəki qanun layihəsi 14 maddədən və 3 fəsildən ibarətdir. Mən onları fəsil-fəsil səsə qoyacağam. Xahiş edirəm I fəsilə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil qəbul olundu.

Elə fəsil demişkən, Nizami müəllimin bir təklifi var idi ki, yeni bir fəsil əlavə olunsun. Mən düşünürəm, ona da baxacaqsınız.

İndi isə xahiş edirəm, II fəsilə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qəbul olundu.

III fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Bu fəsil də qəbul edildi.

Mən qanun layihəsini ikinci oxunuşda səsə qoyuram. Bu, 9-cu məsələdə olan qanun layihəsidir. Hörmətli həmkarlar, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verMədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə 10-cu məsələnin səsverməsinə keçirik. Bu qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi, çox sağ olun.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, qonaqlarımız müraciət etmədilər deyə, mən onlara söz vermədim. Bəlkə sözləri var idi. Fərid müəllim, üçüncü oxunuşa dəvət edərsiniz. İndi isə sizi hörmətlə yola salırıq. Sağ olun.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi də möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bunlar da mahiyyətcə bir-birinə yaxındırlar. 11-ci məsələ Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında, 12-ci məsələ isə "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələridir. Mən yenə də təklif edirəm, qanun layihələrinin təqdimatlarını dinləyək, birlikdə müzakirə aparaq, həmişə olduğu kimi, ayrılıqda səsverməni keçirək.

11-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Layihəyə dair məlumat vermək üçün Kamal müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Kamal Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Ötən müzakirələr zamanı hər iki qanun layihəsi ilə bağlı

geniş təqdimat etdim, müzakirə apardıq və həmkarlarımızın bir sıra təklifləri oldu. Biz bu təklifləri qanunvericilik təşəbbüsü subyektinin nümayəndəsi ilə müzakirə etdik və hazırkı mərhələdə həmin təkliflərin layihədə əks olunması məqsədəmüvafiq hesab edilmədi. Ancaq konseptual olaraq nəzərə alındı, növbəti mərhələdə bu məsələlərə yenidən baxılacaq. Layihədə hər hansı bir dəyişiklik olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. 12-ci məsələyə Aqrar siyasət komitəsində baxılıb. Mən indi komitənin sədri hörmətli Tahir müəllimə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev.** Hörmətli sədr, hörmətli deputat həmkarlar, təqdim olunan qanunlarda edilmiş dəyişikliklərin mahiyyəti haqqında birinci oxunuşda ətraflı məlumat verildi. Dəyişikliklərdə məqsəd heyvanlar aləminin, ətraf mühitin və yaşıllıqların qorunması, mühafizə edilməsi, mənfi halların aradan qaldırılması üçün məsuliyyətin artırılması, cərimələrin tətbiq edilməsidir. Oxunuş zamanı deputat həmkarlarımın müəyyən fikirləri fərdi qaydada müzakirə olundu və dəyişikliklərə etiraz edilmədi. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, hər iki qanun layihəsinə də Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Mən indi komitənin sədri hörmətli Sadiq müəllimə söz vermək istəyirəm. Sadiq müəllim, hər iki qanun layihəsi haqqında, xahiş edirəm, rəy bildirin.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Hörmətli həmkarlar, birinci məsələ ilə bağlı komitəmizin bütün üzvlərinin rəyi qiymətlidir, müsbətdir, olduğu kimi səsə qoyulmasını təklif edirik. İkinci məsələ ilə də bağlı rəy müsbətdir. Sadəcə olaraq, müzakirələr zamanı bu qanun layihəsinin başqa maddələri ilə bağlı təkliflər səsləndirildi və biz də aidiyyəti şöbə ilə məsləhətləşdik. Aidiyyəti qurumlara müraciət etmişik, cavab müsbət olduqdan sonra həmkarlarımızı məlumatlandıracağıq. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Hörmətli həmkarlar, qanun layihələrini əsas kimi qəbul etməliyik. İndi 11-ci məsələdəki qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---:|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi əsas kimi qəbul edildi, çox sağ olun.

Növbəti məsələyə, yəni 12-ci məsələdəki qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---:|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. 1 nəfər yazılıb. Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Yaşıllıqların mühafizəsi haqqında” qanunlara edilən dəyişikliklərdən irəli gələrək Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə edilən düzəlişlərin COP29 öncəsi baş verməsi xüsusi anlam daşıyır. Azərbaycanın flora və faunasının qorunmasında həssas zamanın olduğunu nəzərə alaraq mən bunu yüksək qiymətləndirirəm.

İkinci oxunuşun tələblərinə uyğun olaraq, bəzi fikirlərimi səsləndirəcəyəm. “Heyvanlar aləmi haqqında” Azərbaycan Respublikası Qanununun 53-cü maddəsinə dəyişiklik edilib. Orada əlavə var. Mən istərdim ki, bu əlavə ilə yanaşı, daha bir əlavə də öz əksini tapsın. Bura “Heyvanlarla mərhəmətli rəftar təsiri bağışlayan, ancaq həm onların özləri, həm ətraf mühit, həm də insanlar üçün təhlükəli olan hərəkətlərə yol verdikdə...” – bu cümlənin əlavə edilməsini təklif edirəm. Nəyə görə? Məsələ burasındadır ki, Qərbin əksər ölkələrində küçə və meydanlarda göyərçinlərin yemlənməsinə görə cərimələr tətbiq olunur və bu cərimələrin miqdarı heç də az deyil. Məsələn, Almaniyada 500 avro məbləğindədir. Honkonqda isə küçə və meydanlarda göyərçinləri yemləyənlərə bu ilin sentyabrından 12,8 min ABŞ dolları məbləğində cərimə tətbiq

olunur və hətta 1 ilədək həbs cəzası var. Ornitoloqlar, terapevtlər və infeksionistlər bildirirlər ki, göyərçinlər 9-dan artıq virusun daşıyıcılarıdır, hətta onları bəzən uçan siçovullar da adlandırırlar. İnsanlar bu yemlənmələrdən yoluxa bilər. Bu, ümumiyyətlə, ətraf mühit üçün təhlükəlidir. Bəzi hallarda göyərçinlərin özü üçün də təhlükəlidir. Yəni bu mərhəmətli, rəhimdil davranışın arxasında, əslində, belə bir reallıq var. Mən bununla bağlı İnzibati Xətalar Məcəlləsinə də düzəliş edilməsini təklif edirəm.

Eyni zamanda, flora və faunanın qorunması ilə bağlı 253.3.1-ci və 253.3.3-cü maddələrdə cəzaların artırılmasını alqışlayıram. Bu məsələ ilə bağlı Ulu Öndərin necə həssaslıq göstərdiyini xatırladıram. Eyni zamanda, bu fikirdəyəm ki, hüquqi şəxslər, vəzifəli şəxslər daha artıq cəza ilə üzləşməlidirlər. Çünki biz bilirik ki, məhv edilən yaşıllıqların yerində ucaldılan evlərin kvadrametrinə görə neçə min manat gəlir əldə olunur. Yəni bu, nəzərə alınmalıdır.

Həmçinin 253.3.3-cü maddədə fiziki şəxslərin cərimələnməsi məsələsi var: 3 min manat. Mən Ağdaş rayonunu təmsil edirəm. Ağdaşın Kürqırağı kəndləri var. Ümumiyyətlə, deputat seçildiyim dairədə 8 kənd qazsızdır, onun 7-si Kürqırağı, meşəətrafı kəndlərdir. O kəndlərə indi odun belə ayrılmayıb. Yəni bu insan öz ehtiyacını ödəmək üçün, – bu ili nəzərdə tuturam, – əlacsızlıqdan o ağacı kəsməlidir. Belə olan halda onun bu hərəkətinə görə ya göz yumulmalıdır, ya da o, 3 min manat cərimə ödəməlidir. Əlacsızlıqdan atılan addımla qəsdən, gəlir məqsədi ilə atılan addımlar fərqli nüanslardır. Mənə elə gəlir ki, bu reallıq nəzərə alınmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim. Dedikləriniz hamısı qeydə alınır.

Qüdrət müəllim çıxış etmək istəyir. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Sahibə xanım, çox sağ olun. Mənim çıxış etmək fikrim yox idi. Amma Sahib müəllimin göyərçinlərin yemlənməsi ilə bağlı inzibati hüquqpozmalar haqqında İnzibati Xətalar Məcəlləsinə dəyişiklik təklifi bir növ məni məcbur etdi. Mən və ailə üzvlərim, demək olar ki, hər gün həyətdə 15-ə qədər pişiyə yem veririk. Hətta onların bir çoxunu peyvənd etdirmişik, bəzilərini əməliyyat etdirmişik və sair. Onda o heyvanlar küçədə acından ölsünlər? O heyvanların, o quşların oradan yığışdırılması üçün gərək müvafiq icra hakimiyyəti orqanları tədbir görsünlər. Quşlar üçün dənlər satılır. Onların populyasiyasının, yəni çoxalmasının qarşısını almaq üçün müvafiq dövlət hakimiyyəti orqanları tədbirlər görməlidir. Hörmətli Sahib müəllim beynəlxalq təcrübədən sitat gətirdi. Amma küçədəki heyvanlara yem verilməsində, onlara qayğı göstərilməsində pis heç nə görmürəm. Biz bununla cəmiyyətdə mərhəmət hissini aradan qaldırmış olarıq.

Müəyyən zooparklar var. Deyirlər, orada ancaq satılan yemləri alıb vermək olar. Hesab edirəm, bu məsələ bir az ciddi şəkildə müzakirə olunmalıdır. Ona görə fərqli bir fikir kimi öz sözlərimi deməyi zəruri hesab etdim. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Qüdrət müəllim. Sizin dediyinizdə həqiqət var. Ancaq infeksiya daşıyıcısı məsələsi ilə bağlı Sahib müəllimin də dediyində həqiqət var. Təbii ki, müxtəlif yanaşmalar var. Gərək qanunla hər şey

tənzimlənsin. Siz də tamamilə düz deyirsiniz. Yiyəsi olan pişiyə, bəli, iynələr vurulur və sair. Heç kim demir ki, onları ac saxlamaq lazımdır. Ancaq onları infeksiya daşıyıcısı kimi görmək lazımdır.

Hörmətli həmkarlar, mən düşünürəm ki, jurnalistlər bizim bu danışıqlarımızı çox geniş, ətraflı yazmayacaqlar. Bu bizim fikirlərimizdir.

Hörmətli həmkarlar, biz indi qanun layihələrinin maddələr üzrə səsvermə proseduruna keçirik. Sonra mən qanunları bütövlükdə səsə qoyacağam.

11-ci məsələdəki qanun layihəsində 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, 12-ci məsələdəki qanun layihəsini maddələr üzrə səsə qoyacağam. 3 maddədən ibarətdir. 1-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu məsələ də "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında",

“Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Regional məsələlər komitəsində baxılmışdır. Mən indi sözü komitənin sədri hörmətli Siyavuş Novruzova verirəm. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Birinci oxunuşdan sonra komitəyə heç bir təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Siyavuş müəllim, çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən komitənin sədr müavini hörmətli Azər müəllim Badamova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Komitəmizin rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılanlar yoxdur. Ona görə də səsverməyə

keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 3 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəyə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verməydi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti 14-cü məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Arzu müəllim, komitənizin məsələsidir. Yenə də Siz məlumat verin. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi hərbi xidmətin keyfiyyətini artırmaq və hərbi qulluqçuların hüquqlarını daha səmərəli qorumaq üçün hazırlanmışdır. Qanun layihəsi hərbi qulluqçuların ehtiyata və istefaya buraxılma prosedurlarını daha da şəffaf edir. Burada əsasnamənin iki maddəsində – 156-cı və 158-ci maddələrdə 2 bənddə dəyişiklik edilir.

Birinci oxunuşda geniş müzakirə olunmuşdur. Rəy və təklif olmamışdır. Komitədə baxılaraq ikinci oxunuşa – plenar iclasa tövsiyə edilir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Arzu müəllim, sağ olun. Ancaq xatırla-

yıram ki, suallar da var idi. Siz sualları sonra işçi qaydada müzakirə etdiniz?

**Arzu Nağıyev.** Qanunla bağlı danışıldı. Siyavuş müəllim və digər həmkarlar bir neçə sual qaldırdılar. Bəli, biz işçi qaydada müzakirə aparmışıq.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsinə maddələr üzrə səs verməliyik. 1 maddədən ibarətdir. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyu-

ram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 2 məsələ qalır. Hər iki məsələ də birinci oxunuşda olan qanun layihələridir. Xahiş edirəm, çıxışlar birinci oxunuşun qaydalarına uyğun olsun.

15-ci məsələ Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair yenə də Kamal Cəfərov məlumat verəcək. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanma Mərkəzində yerləşdirilmiş miqrantların hüquqları və burada rejimin təmin olunması ilə bağlıdır. Ancaq qeyd edim ki, hazırda bu məsələlər Nazirlər Kabinetinin müvafiq qərarları ilə tənzimlənir. Müəyyən təkmilləşdirmələrlə birgə, əsasən, olduğu kimi Miqrasiya Məcəlləsinə daxil edilməsi təklif edilir. Bunun da əsas məqsədi həmin qanunsuz miqrantların hüquqlarının daha yüksək səviyyədə qorunmasını təmin etmək, bu məsələləri

daha yüksək hüquqi qüvvəyə malik aktla tənzimləməkdir.

Layihə saxlanılma mərkəzlərində yerləşdirilən şəxslərin təhlükəsizlik hüququnun təmini, sözügedən şəxslərə münasibətdə işgəncənin və qeyri-insani və ləyaqəti alçaldan rəftarın və ya cəzanın tətbiq edilməməsi, yeməkdən imtina etdikdə görülən tədbirlər, həmçinin həmin şəxslərin mülki, hüquq və ailə münasibətlərində iştirakı ilə bağlı münasibətlərinin tənzimlənməsinə dair müddəaları özündə ehtiva edir.

Bununla yanaşı, layihədə adıçəkilən mərkəzlərdə yerləşdirilən şəxslərin şəxsi yazışmalarına, müraciətlərin göndərilməsinə və digər şəxslərlə əlaqələrinə, onların nümunəvi davranışlarına görə həvəsləndirmə tədbirlərinin tətbiqinə və sair məsələlərə dair tələblər nəzərdə tutulur.

Qeyd edilənləri nəzərə alaraq həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Ətraflı və çox aydın şəkildə məlumat verdiniz. Zahid müəllim, sualınız, təklifiniz var? Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dünən Sizin rəhbərlik etdiyiniz planlaşma iclasında komitə üzvləri ilə bu məsələyə toxunulmuşdu. Hörmətli Kamal müəllim də qeyd etdi. Nazirlər Kabinetinin müəyyənləşdirdiyi qaydalar da indiyə qədərki dövrdə, onsuz da, praktikada tətbiq olunur. Yəni qaydalar kimi deyil, artıq qanun kimi qüvvədə olsun deyə, bir yanaşmadır. Ona görə də bəlkə bu, həmkarlarımızın mövqeyinə təsir edəcək. Mən, sadəcə, bu məqamı qeyd etmək istərdim. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə keçirik. Yazılanlar var. Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Təbii ki, bu qaydaların artıq

qanun müddəalarına çevrilməsi çox önəmlidir. Çünki biz bir fakta diqqət etməliyik. Əcnəbi, yaxud da vətəndaşlığı olmayan şəxs həm də potensial turistdir, yaxud da ölkənin potensial təbliğatçısıdır. Çünki o, cinayətkar kateqoriyasında deyil, miqrasiya qaydalarına uyğun olaraq, hansısa bir pozuntuya görə burada saxlanılırsa, sabah bu şəxsdə ölkə haqqında burada saxlanma prosesi ilə bağlı hansı isə rəy formalaşacaq, bu da bizim üçün çox önəmlidir. Ona görə də mən bunun qanunvericilik səviyyəsində təsbit olunmasını müsbət qarşılayıram.

Qeyd edim ki, ümumiyyətlə, Azərbaycanda öz işini düzgün qurmuş, bəlkə də birinci, yaxud da ikinci qurum varsa, bu, Miqrasiya Xidmətidir. Yəni ora ilə bağlı hər hansı bir məlumatın alınmasında çətinlik çəkilmir. Hətta bu qurumun rəhbəri “Facebook”da cəmiyyətlə birbaşa əlaqə saxlayır, özü sualları cavablandırır. Elə bir mexanizm qurulub ki, heç bir sual cavabsız qalmır. Millət vəkillərinin bütün məsələlərlə bağlı müraciətlərinə də operativ bilgi almaq imkanı rahatdır. Ona görə də vurğulamaq vacibdir ki, konkret olaraq iş prosesi ən çətin olan qurumlardan biridir. Çünki təmas subyektlərinin bir qismi ölkə vətəndaşları deyil. Müəyyən sıxıntılar da var ki, onların operativ həllində bürokratik maneələr olur. Bu, qurumla bağlı deyil, bəzi insanlar pasport, gecikmə və başqa məsələlərlə üzləşirlər. O zaman daha çox çətinlik yaranır. Məncə, quruma bu istiqamətdə də müəyyən səlahiyyətlərin verilməsi faydalı olardı.

Konkret bu qanunla bağlı nəyi çatdırmaq istəyirəm? Burada daha çox məktub və teleqram mexanizmindən istifadədən söhbət gedir. Yəni imkan yaradılır ki, saxlanılan şəxs məktub yaza bilsin. Məktub da, misal üçün, bir gün

ərzində çatdırılır və sair. Biz artıq elektron sistem üzərindən işləyən bir mexanizm qurmuşuq. Mən bu qanunda elektron mexanizmin işləməsi prinsiplərini müşahidə etmirəm. Elə məktub, teleqram göndərməkdənsə, qurumun öz nəzarəti altında olan internet resursları var və burada saxlanılan şəxs operativ olaraq o resurslar vasitəsi ilə müraciət etsin. Məktubun çatdırılması məsuliyyətindən başqa məsul qurumlar artıq azad olunarlar. Ona görə də mən Kamal müəllimdən xahiş edərdim, bu məsələni müzakirə etsin. Yəni kim könüllü məktub yazmaq, teleqram vurmaq istəyərsə, bunu edə bilər. Burada, onsuz da, senzura məsələsi var. Hansı isə cinayət işinə görə çağırışla bağlı və ya cinayət əməlinin hansısa təsiredici amilləri də ola bilər. Ona görə senzuranın olması vacibdir. Amma biz bunu kompüter, internet resursları üzərindən etsək, işin səmərəliliyi baxımından daha faydalı olar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim. Bəlkə də istifadə edirlər. Kamal müəllim, sonra baxarsınız.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, hörmətli xanım sədr. İlk növbədə mən də hər kəsi sabahkı Zəfər bayramı münasibəti ilə ürəkdən təbrik edirəm. Bu bizim qələbə bayramımızdır, qürur bayramımızdır, dövlətimizin güc bayramıdır, əsgərimizin rəşadəti bayramıdır. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Bu gün vətənimizin keşiyində duran əsgərlərimizə can sağlığı arzulayıram və onlarla qürur duyduğumuzu bildirirəm.

Bu dəyişikliklərlə bağlı, əlbəttə ki, hüquqi, demokratik dövlət quruculuğu daim təkmilləşdirilən Azərbaycanda bu gün miqrasiya subyekti olan insanların yerləşdirilməsi

mərkəzi ilə bağlı qanuna dəyişiklikləri müsbət qiymətləndirirəm. Bu qanun layihəsi həmin insanların hüquqlarının, onların təhlükəsizliyinin qorunmasını, dini, yaxud da milli xüsusiyyətlərinin nəzərə alınmasını tamamilə özündə ehtiva edir.

Bununla belə bir neçə məsələyə öz münasibətimi bildirmək istəyirəm. 88-1.1-ci maddədə bildirilir ki, mərkəzdə saxlanılan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin həyatına təhlükə yaranarsa, mərkəz rəisinə müraciət etmək hüququ vardır. Bəlkə onun şikayəti elə mərkəz rəhbərinin özü ilə bağlıdır. Onda necə? Mən hesab edirəm ki, onun təkcə mərkəz rəhbərinə deyil, eyni zamanda, insan hüquqları üzrə müvəkkilin ünvanına da müraciət etmək üçün çıxışı olmalıdır. Bunun nəzərə alınmasını xahiş edirəm.

İkincisi. 88-1.2-ci maddədə qeyd edilir ki, həmin şəxslərin həyatına mərkəzin işçiləri tərəfindən təhlükə yaranarsa... Açığı, məsələnin belə qoyuluşunu başa düşə bilmirəm. İlk dəfədir ki, qanunumuzda hansısa dövlət orqanı işçilərinin orada yerləşdirilənlərin həyatına təhlükə yarada biləcək ehtimalı əks olunur. Bu harada görülüb? Biz birbaşa bildiririk ki, mərkəz işçiləri təhlükə yarada bilərlər. Axı, onlar dövlətin nümayəndələridir. Mən hesab edirəm ki, bu bəndə xüsusi baxılmalıdır. Bu, birbaşa dövlətin adına kölgə salan bir məsələdir. Ona görə də mən vəziyyətdən çıxış yolu kimi 88-1.1-ci maddə ilə 88-1.2-ci maddəni birləşdirməyi təklif edirəm. Burada, sadəcə olaraq, “həyatına ola biləcək təhlükə” sözləri qeyd olunsun. Mərkəz işçiləri, yaxud digər saxlanılanlarla bağlı mövzular artıq daxili tədqiqatda həll oluna bilən məsələlərdir.

Digər təklifim ondan ibarətdir ki, mərkəzdə saxlanma şəraitinin vaxtaşırı yoxlanması üçün İnsan Hüquqları üzrə

Müvəkkili Aparatı işçilərinin bu hüquqa malik olması bəndini burada xüsusi qeyd etməliyik.

88-2-ci maddədə bildirilir ki, əcnəbilərin məhdudiyyətsiz sayda öz ölkələrinə məktub göndərmək, teleqram vurmaq və yaxud da zəng etmək hüquqları vardır. Bəs mərkəzdə saxlanan vətəndaşın ölkəsi ilə Azərbaycanın diplomatik əlaqələri yoxdursa, onda hansı halda onun məktubu, teleqramı göndərilir? Bu suala cavab mənim üçün olduqca maraqlıdır. Dəyişikliklərə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. 3 deyil, 4 dənə təklif verdiniz. Sayırdıq. Aydın müəllim, dediklərinizin hamısı ikinci oxunuşun qaydalarına uyğundur. Kamal müəllim, bunu indidən qeyd edin. Bu məsələlərlə bağlı təkliflərinizi indi də verə bilərsiniz.

Aydın müəllim, sualınız var, təklifiniz var? Buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, müraciətim Dövlət Miqrasiya Xidmətinin rəhbərliyinədir. Qanun layihəsinə səs verəcəyəm. Dövlət Miqrasiya Xidmətinin rəhbəri də bizim həmkarımız olub. O xidmət, sözün əsl mənasında, yüksək dərəcədə fəaliyyət göstərir. Müraciət nədən ibarətdir? Qaradağ rayonunun Şıxlar qəsəbəsində yaşayan bir sakin müraciət edib. Rusiya vətəndaşıdır. 10 ildir ki, köçüb, Azərbaycanda yaşayır. Burada doğulub. Bu müddət ərzində vətəndaşlıq ala bilmədiyinə görə o, məcburdur ki, hər 3 aydan bir sərhədi keçib qayıtsın. O, müraciətini hörmətli Vüsal müəllimə ünvanlayıb. Mən hesab edirəm ki, hər hansı bir ciddi nöqsan yoxdursa, bu kimi kateqoriyadan olan vətəndaşların müraciətlərini tezləşdirmək daha yaxşı olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın müəllim, indi Vüsal müəllim burada yoxdur. Ancaq Siz deputat kimi məsələ

ilə bağlı məktub da yaza bilərsiniz, deputat sorğusu da edə bilərsiniz.

Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, mən hesab edirəm ki, miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi, xüsusilə Miqrasiya Məcəlləsinin mövcud digər normativ sənədlərə uyğunlaşdırılması baxımından bu, çox vacib qanun layihəsidir. Mən bu qanun layihəsinə səs verəcəyəm. Amma konseptual olaraq, birinci oxunuşun tələblərindən irəli gələrək bir neçə məsələyə xüsusilə münasibət bildirmək istəyirəm.

Əvvəlcə onu deyim ki, mən uzun müddət Dövlət Miqrasiya Xidmətində İctimai Şuranın sədri olmuşam. Bu müddət ərzində biz dəfələrcə qanunsuz miqrantların saxlanma mərkəzlərinə səfər etmişik, monitorinqlər keçirmişik. Monitorinqlərdə bizimlə yanaşı, Ombudsman institutunun, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq qurumların nümayəndələri iştirak ediblər. Zahid müəllimin qeyd etdiyi kimi, həqiqətən də, Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar çərçivəsində 2016-cı ildən, demək olar ki, bütün bu müddəalar qanunsuz miqrantların saxlanma mərkəzində təmin olunmaqdadır.

Bununla yanaşı, təbii ki, təkmilləşdirməyə də çox böyük ehtiyac var. Çünki bu, sırf hüquqi nöqteyi-nəzərdən tamamilə başqa bir statusdur. Eyni zamanda, miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı bir neçə məsələni çox lakonik olaraq dilə gətirmək istəyirəm. Bizə daxil olan müraciətlər zamanı da bu məsələlər qabardılırdı. Düşünürəm ki, gələcəkdə miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi zamanı bu məsələlərə xüsusi diqqət

yetirmək lazımdır.

Ölkə ərazisində daimi yaşamaq icazəsi olan şəxslər var ki, onlar hər 5 ildən bir sənədlərini müvafiq qaydada hazırlayırlar, təqdim edirlər, müsahibədən keçirlər, dil bilgisi haqqında sənəd təqdim edirlər. Amma onların arasında üç, dörd, hətta beş dəfə belə daimi icazə üçün müraciət edən şəxslər var. Bu baxımdan düşünürəm ki, burada hansısa mexanizm qurulmalıdır. Artıq təkrar müraciət edən şəxslər həmin proseduru bir qədər yüngülləşdirilmiş şəkildə keçsinlər. Çünki 20-25 il yaşayan şəxs daimi yaşamaq icazəsi üçün yenə 5 ildən sonra müraciət etməlidir.

Digər bir vacib məsələ pul köçürmələri ilə bağlıdır. Bizə müraciətlər daxil olub ki, bəzi əcnəbilər ölkə ərazisində olarkən turist qismində pul köçürmə zamanı müəyyən çətinliklərlə üzləşirlər. Çünki bəzi banklar köçürməni qəbul edir, bəziləri isə etmir. Biz bir qədər əvvəl Mərkəzi Bankın İdarə Heyətinin üzvlərini seçdik. Düşünürəm ki, gələcəkdə bu məsələyə də aidiyyəti üzrə baxılmalıdır, hansı isə ümumiləşdirilmiş, unifikasiya olunmuş bir yanaşma olmalıdır.

Digər məsələ bilavasitə təhsil alan əcnəbilərlə bağlıdır. Bildiyiniz kimi, ildən-ilə Azərbaycanda təhsil almaq istəyən əcnəbilərin sayı kifayət qədər artır. Amma onların arasında hətta bizim qanunvericiliyin verdiyi məsələlərdən belə müəyyən mənada sui-istifadə edən şəxslər də var ki, təhsil almaq məqsədi ilə ölkə ərazisinə daxil olurlar, sonra sənədlərini qeydiyyata aldırırlar və beləcə, müvəqqəti yaşamaq icazəsi aldıqdan sonra tamamilə başqa bir fəaliyyətlə, misal üçün, qanunsuz əmək fəaliyyəti ilə və digər fəaliyyətlərlə məşğul olurlar. Düşünürəm, burada da

elə bir ciddi mexanizm qurulmalıdır ki, bu kimi sui-istifadə hallarının qarşısı alınsın.

Sonuncu iki məsələ. Bildiyimiz kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah fəaliyyət göstərir. Operativ Qərargah, eyni zamanda, ölkə ərazisində olan əcnəbilərə ölkəyə giriş-çıxışa görə icazənin verilməsi ilə bağlı qərarlar qəbul edir. Burada bəzi həssas məsələlər var, hörmətli həmkarlar. Bəzi əcnəbilər var ki, onlar səhhəti ilə əlaqədar olaraq təyyarədən istifadə edə bilmirlər. Düşünürəm ki, bu baxımdan ölkəyə giriş-çıxışda bu kimi həssas məsələlər xüsusi nəzarətdə saxlanılmalıdır. Çünki bununla da bağlı bizdə bəzi keyslər, müraciətlər var. Düşünürəm ki, səhhəti ilə bağlı problemi olan şəxslərə müəyyən mənada şərait yaradılmalıdır.

Sonuncu məsələ. 2021-ci il aprelin 1-dən etibarən Azərbaycanla Türkiyə arasında biometrik şəxsiyyət vəsiqələrindən giriş-çıxış üçün istifadə etməyə icazə verilir. Yəni artıq ümumvətəndaş pasportuna ehtiyac yoxdur. Bir qədər əvvəl də hörmətli Türk Dövlətləri Təşkilatı və türk dünyasının inteqrasiya layihələri barədə danışıldı. Düşünürəm, gələcəkdə biz bunu də nəzərdən keçirə bilərik ki, türk dünyasının, daha çox Türk Dövlətləri Təşkilatına daxil olan dövlətlərin vətəndaşları, Azərbaycan və digər ölkələrlə münasibətdə miqrasiya mübadiləsində biometrik şəxsiyyət vəsiqələrindən istifadə etməklə bu imkandan yararlana bilsinlər. Yəni bunu da bir təklif olaraq dəyərləndirməyinizi xahiş edirəm.

Qanun layihəsinə səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəliyin sonuncu məsələsinə keçirik. "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm, Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Bildiyiniz kimi, məişət zorakılığı ictimai təhlükəlilik dərəcəsinə görə özlüyündə ya cinayət tərkibini, ya da inzibati xətanın əlamətlərini ehtiva edir. Adekvat tədbirlər də məhz bu xüsusda müəyyən olunur.

Hazırkı qanunvericiliyə əsasən məişət zorakılığı barədə şikayətdə cinayət tərkibi əlamətləri olmadıqda şikayətlərə baxılmaq Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı ilə tənzimlənir. Bu gün təklif edilən dəyişiklikdə nəzərdə tutulur ki, məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərə baxılma proseduru həm də "Məişət

zorakılığının qarşısının alınması haqqında” Qanunda daha geniş və daha ətraflı təsbit olunsun. Çünki biz hüquq və azadlıqlardan istifadənin qanunvericilikdə tənzimlənməsinə ilk növbədə Konstitusiyanın 94-cü maddəsinə müvafiq olaraq, konstitusion tələb kimi nail oluruq.

Məhz bu məqsədlə “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 9-cu maddəsi tam yeni redaksiyada verilmişdir. Təklif edilən dəyişikliyin əsas məğzi də ondan ibarətdir ki, məişət zorakılığı barədə cinayət tərkibi olmayan şikayətlərə baxılma qaydası, daha konkret desək, şikayətə baxılma müddəti, şikayətə baxmalı olan orqan, baxılan zaman dəvət olunmalı şəxslərin əhatə dairəsi, o cümlədən vəkil, psixoloq, tərcüməçi və xüsusi hallarda pedaqoqların prosesdə iştirakının təmin olunması prosedurları daha da təkmilləşdirilərək birbaşa aidiyyəti qanunda əksini tapsın.

Hörmətli həmkarlar, göründüyü kimi, bu layihənin əsas məqsədi insan və vətəndaş hüquqlarının azadlıqlarının daha səmərəli təminatına yönəlib. Hər birinizdən layihəyə dəstək verməyinizi xahiş edirik. Öncədən təşəkkürümüzü bildiririk.

Sonda bu əlamətdar gündə hər kəsin bayramını tərik edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə baxılıb. Birinci komitə İnsan hüquqları komitəsidir. Zahid müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, fərqindəyəm, bir neçə həmkarımız çıxışa yazılıb.

Hörmətli Bəhruz müəllim layihənin hüquqi mahiyyəti haqqında ətraflı məlumat verdi. Ona görə də o bəndlər üzərində dayanmaq istəmirəm. Amma zəruri olan bir neçə məqamı çox qısa şəkildə çatdırmaq istəyirəm.

Ümumiyyətlə, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun 2010-cu ildə qəbul olunub. Ardınca "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı" qəbul edilib və artıq uğurla həyata keçirilib. Artıq ikinci fəaliyyət planı hazırlanıb və yəqin ki, yaxın zamanda qəbul olunacaq. Bu sferadakı problemlər yalnız sözügedən qanunla deyil, eyni zamanda, Mülki Prosessual, Cinayət Prosessual, İnzibati Xətalar Məcəlləsi, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir. Ümumən, 7 istiqamətdə təkmilləşdirmələr görülüb. İndi atılan addımlar da bunun tərkib hissəsidir.

Birinci, qanunun əhatə etdiyi subyektlərin dairəsi genişləndirilir. İkinci, qısamüddətli orderlərin verilməsi ilə bağlı qaydalar dəyişdirilib. Yəni qısamüddətli mühafizə orderinin verilməməsinə görə vəzifəli şəxslərin 300 manatdan 500 manatadək məbləğdə cərimə edilməsini nəzərdə tutan 158.4-cü maddə əlavə olunub. O cümlədən order 30 gün deyil, 60 gün üçün müəyyənləşdirilib. Üstəlik, zərərçəkən şəxsə dövlət vəsaiti hesabına pulsuz hüquqi yardım həyata keçirilir. Daha sonra yeni qurumlararası əlaqələndirmə mexanizmi yaradılıb, monitorinqlər icra hakimiyyəti və müvafiq dövlət qurumları arasında əlaqələndirilib.

Daxili İşlər Nazirliyinin "102" xidməti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bilavasitə dəstəklədiyi 860, 116-111 və sair kimi qaynar xətlər bu

proses üçün ayrılıb.

Statistikalar. Bəlkə də başqa müzakirə vaxtı mən buna bir az toxunacağam. Mən, ümumiyyətlə, Azərbaycanı qadın zorakılıqlı, məişət zorakılıqlı bir cəmiyyət kimi qələmə verməyə çalışan dairələrlə qəti şəkildə razı deyiləm. Mən o statistikaları özümlə götürmüşəm. Amma indi verilən vaxt çərçivəsində onu demək istəmirəm.

Yalnız bircə fakt: 2023-cü ildə edilən 560 müraciət olub. 2024-cü ildə onların sayı 9 ay ərzində 431 olub və bunun 34-ü kişilərə qarşı, 388-i qadınlara qarşı, ümumiyyətlə, yəni onların içərisində 312-si isə uşaqlara qarşı olub. Görülən tədbirlər, mühafizə orderlərinin verilməsi ilə bağlı statistikalar məndə var, onları təqdim edə bilərəm.

Bir daha təşəkkür edirəm. Bunları vacib saydım. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. İkinci komitə Ailə, qadın və uşaq məsələləri komitəsidir. Hicran xanım, buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli həmkarlarım Bəhruz müəllim, Zahid müəllim qanun layihəsini ətraflı təqdim etdilər. Mən də onların fikirlərini təsdiqləyərək qeyd etmək istərdim ki, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətlərə baxılmasında bir çox çətinliklər yaranır. Ancaq təklif olunan qanun layihəsində bu məsələ daha da detallı şəkildə təsbit olunur. Bu bizə nə verəcək? İlk növbədə qanun daha əhatəli və təkmil olacaq. Bu dəyişiklik vətəndaş üçün, hüquqşünas, xüsusilə də vəkillər üçün çox

önəmlidir ki, qanunda açıq-aydın şəkildə vahid formada prosedur göstərilsin. Buna görə də belə bir dəyişikliyin edilməsinə ehtiyac yaranır. 5-ci maddədə əlavə və dəyişiklik nəzərdə tutulur. Xüsusilə qanunun 9-cu maddəsində, yəni məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılma qaydası genişləndirilib.

Qanun layihəsində məişət zorakılığı ilə bağlı şikayətə baxılma müddəti, şikayətə baxmalı olan orqan, şikayətə baxılan zaman dəvət olunmalı şəxslərin əhatə dairəsi, o cümlədən də vəkil, psixoloq və tərcüməçilərin xidmətindən istifadə, həmçinin yetkinlik yaşına çatmayan və ya əlilliyi olan şəxslərin dindirilməsi zamanı psixoloq və pedaqoqların iştirakının təmin olunması, eyni zamanda, məişət zorakılığı barədə şikayətlərə baxılmanın nəticələrinə dair yekunda qəbul olunan qərarlar öz əksini tapmışdır.

Beləliklə, təklif olunan qanun layihəsinin əsas mahiyyəti nədir? Birincisi. Qanun var, şikayətə baxılma haqqında qayda var, lakin cinayət tərkibi olmayan, məişət zorakılığı halları baş verdikdə onun baxılmasında və zorakılığa məruz qalan şəxsin hüquqlarının müdafiə edilməsində problem yaranır. Çünki prosedur işlək deyildir. Hüquqi baza yetərli deyildir. Təklif olunan layihə bu boşluğu aradan qaldıracaq. İkincisi. Əfsuslar olsun ki, məişət zorakılığı ilə bağlı hadisələr bir çox hallarda gizlədilir və bağlı qapılar arxasında qalır. Zorakılığın bu və ya digər formasına məruz qalan şəxslərin bir çoxu bunu heç kimə demir. Əgər hər hansı bir şəxs zorakı davranışa məruz qalırsa, təhqir edilirsə, mənəvi, psixoloji təzyiqə, iqtisadi cəhətdən məhrumiyyətə məruz qalırsa və onun hüquqları qorunmursa, bu, daha ağır nəticələrə səbəb olan

hadisələrə gətirib çıxarır. İlk baxışda heç bir cinayət tərkibi əlaməti olmasa da, məsələ vaxtında öz həllini tapmayanda belə zorakılıq hallarının neqativ fəsadları olur. Bununla bağlı çoxlu hadisələri, keysləri misal çəkmək olar. Mediada da biz belə məlumatlara rast gəlirik. Bu dəyişiklik həm də onu göstərir ki, dövlət hər zaman vətəndaşın yanındadır. Bütün hallarda onun hüquq və azadlıqlarını qoruyur.

Üçüncüsü. Məişət zorakılığına daha çox qadınlar məruz qalır. Ancaq bu, həm də ailəsində məişət zorakılığının şahidi olan və çox vaxt özləri də zorakılığın qurbanı olan bir çox uşaqları əhatə edir. Bu onların uzunmüddətli fiziki və psixi sağlamlığı üçün ciddi risklərə səbəb ola bilər. Ailələrdə həssas qrupun nümayəndələri, əlilliyi olan şəxslər də zorakılığın qurbanı olurlar. Təklif olunan qanun layihəsində bütün bu məsələlər nəzərə alınır. Qeyd edim ki, qanun layihəsi komitə iclasında da müzakirə olunmuşdur. Layihə birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Hicran xanım. Hörmətli həmkarlar, biz qanun layihəsinin müzakirəsinə keçirik. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, müzakirəyə çıxarılan məsələ çox vacib qanun layihəsidir. Cinayət motivi olub-olmamasından asılı olmayaraq, bu gün, doğrudan da, ölkəmizdə məişət zəminində olan zorakılıq aktual məsələlərdən biridir. Hörmətli Zahid müəllim statistikaya toxundu. Lakin statistikaya düşməyən hallar da var. Amma ümumilikdə, bu gün Azərbaycanda məişət zorakılığı zəminində törədi-

lən cinayətlər 4-5-ci yerlərdə sıralanır. Narkotik dövriyyəsi, dələduzluq, avtomobil qəzaları ilə əlaqədar olan cinayətlər, oğurluq və sair. Bunlardan sonra məişət zorakılığı cinayəti, demək olar ki, digər qatı cinayətləri də ötüb. Biz artıq bu səpkidə olan cinayətlərin şahidiyik, bu barədə gündəlik mətbuatdan, ictimai televiziyalardan, digər qaynaqlarından məlumatlar alırıq. Cinsindən, yaşından, mövqeyindən asılı olmayaraq, insanlara qarşı törədilən bu cinayətin qarşısı alınmalıdır. Biz əsas qanunumuzun gücünü bunu yaradan səbəblərinin aradan qaldırılmasına yönəltməliyik.

Hörmətli Hicran xanım burada qeyd etdi ki, bir çox hallar heç statistikaya düşmür. Misal üçün, mətbəxdə mübahisə düşür, baltanı götürüb vururlar. Sonra qaynar xəttə zəng edirlər. Cinayətkarı axtarıb tapdılar və bitdi. Bu hansı statistikaya düşəcək? Ani olan cinayətlərlə yanaşı, uzunmüddətli psixoloji travmalar var ki, bunlar da tamamilə başqa şeydir. O baxımdan bu gün məişət zorakılığından ən çox əziyyət çəkən qadınlar, qocalar və uşaqlardır. Biz bu hadisələrlə hər gün rastlaşırıq. Oğul atasını, ər arvadını öldürdü, qardaş bacını bıçaqladı və sair. Bunların qarşısı alınmalıdır, hörmətli millət vəkilləri. Biz bunun qarşısını almaqdan ötrü lazımi addımları atmalıyıq.

Birinci növbədə maarifləndirmə işi aparılmalıdır. Bu gün bu sahə ilə əlaqədar maarifləndirmə işini apara biləcək informasiya kanalları, əksinə, bu hadisələrin qızışdırılmasına səbəb olan verilişlər ayırırlar. Hamımız da bunu müşayiət edirik və susuruq. Bir nəfər orada oturub. Həm prokurordur, həm məhkəmədir, həm vəkildir, həm də cinayət axtarışı şöbəsidir. Polisə, prokurora göstərişlər verir. Bu vəzifəyə səni kim təyin edib? Sən bu ölkədə

hansı vəzifəni daşıyırsan? Veriliş aparıcısısan. Sənin nə hüququn var? Hüquqi təhsilin yoxdur, məsələnin mahiyyətindən xəbərin yoxdur. Üç qonşunun sözləri əsasında elə bir şərait yaradır ki, növbəti cinayətin törənməsinə qapı açır. Mən hesab edirəm, bunun qarşısı ciddi şəkildə alınmalıdır. Bu cür verilişlərə dəvət olunan ekspertlər harada formalaşıblar? Əgər o, incəsənət xadimidirsə, demək, ekspert də ola bilər? Gəlib, orada camaata ağıl öyrədir ki, həyatını elə yaşama, belə yaşa. Bu da nəticə etibarı ilə cinayətlərə gətirib çıxarır.

İkinci səbəb seriallardır. Hörmətli Sahibə xanım, dövlət vəsait ayırır ki, bu seriallar çəkilsin, insanın mənəvi tərbiyəsini formalaşdırsın, daha mənəvi tərbiyəsini pozmasın. Keçmişdə gənclər Koroğluya, Babəkə oxşamağa çalışırdısa, indi oradakı obrazlara, kriminal obrazlara oxşamağa çalışırlar. Yaxud da qızlar, gəlinlər Həcərə, Nigara oxşamaq istəyirdisə, indi oradakı obrazlara oxşamağa çalışırlar. Yəni bu seriallar cəmiyyətə daxil olur və insanların əxlaqını, mənəviyyatını pozurlar. Bunun da qarşısı alınmalıdır. Biz qanunlarımızda qəti şəkildə bunun əleyhinə getməliyik. Çox kəskin qanunlar qəbul olunmalıdır ki, bu məsələlər öz həllini tapsın. Bu televiziya özəldir, başa düşürəm. Amma o özəl televiziyaya heç kim ixtiyar verməyib ki, millətin mənəviyyatını pozsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Siyavuş müəllim, əslində, haqlı olaraq bir çox məsələlərə toxundu. İndi bizim müzakirə etdiyimiz əsas mövzu – məişət zorakılığı insanın mədəniyyəti ilə bağlıdır. Amma mədəniyyət də tərbiyə ilə bağlıdır. Siz tamamilə düz deyirsiniz. Təbii ki, biz bəzi məsələləri qaldırıb insanları ma-

arifləndirilmə işi ilə məşğul etməyə cəlb etməliyik. Bütün cəmiyyəti... İndi Polad müəllim burada yoxdur. Sizin dediyiniz məsələlər Mədəniyyət komitəsinə də aiddir. Mən düşünürəm ki, bununla da məşğul olacağıq.

Siz Hicran xanımın dediyi bəzi məsələlərin qapı arxasında qaldığını vurğuladınız. Mən düşünürəm ki, Hicran xanım o məsələni deyil, ayrı şeyi nəzərdə tuturdu. Əgər xanımlardan söhbət gedirsə, mentalitet elədir ki, çox adam öz evində olan problemi qapı arxasına çıxartmaq istəmir. Mən düşünürəm, Hicran xanım o məsələni deyirdi.

Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, müzakirə olunan məsələ ilə bağlı bəzi məqamlara toxunmaq istəyirəm. Həqiqətən də, ölkəmizdə məişət zorakılığına qarşı ciddi mübarizə aparılır. Müvafiq dövlət orqanları bu kimi neqativ halların qarşısını almaq üçün mümkün olan hər şeyi edirlər. Burada hörmətli Hicran xanım daha çox statistik məlumatlara istinad edərək vurğuladı ki, məişət zorakılığına daha çox qadınlar məruz qalır. Düşünürəm, daha doğrusu odur ki, qadınlar daha çox fiziki zorakılığa məruz qalırlar. Mən deməzdim ki, qadınlar daha çox məişət zorakılığına məruz qalırlar. Çünki özüm qısa müddət müstəntiq işləmişəm. Bizim cinayət prosessual qanunvericilik də müstəntiqlərdən tələb edirdi ki, cinayəti doğuran səbəb və şərait mütləq öyrənilməlidir və onun profilaktikası istiqamətində gələcəkdə bu kimi cinayətlərin baş verməməsi üçün müvafiq tədbirlər görülməlidir.

Bir çox hallarda bizim qadınlarımız öz həyat yoldaşlarına, uşaqlarına münasibətdə, ailədə dözülməz vəziyyət yaradırlar. Çox vaxt gənclər bir-birini yaxşı tanımadan ailə

qururlar və ailənin büdcə planlaşdırılması düzgün həyata keçirilmir. Ailə qurandan sonra uşaqlar da dünyaya gəlirsə, onlar aldıqları maaşla həmin uşaqların problemlərini necə həll edəcəklərini nəzərə almırlar. Sonradan müəyyən maliyyə problemləri yaranır. Uşaqların tələbatlarını ödəyə bilmirlər. Bu da ailədə əlavə gərginliyə, psixoloji problemlərə yol açır və insanlar daha qıcıqlı, emosional, əsəbi olurlar. Yəni sosial vəziyyət də məişət zorakılığını doğuran hallardan biridir. Ona görə də ölkəmizdə həm bizim elm adamları, həm də müvafiq qurumlar bu istiqamətdə ciddi araşdırmalar aparmalıdırlar. Məsələn, indi psixoloqların iştirakı ilə bağlı mövzu müzakirə edirik. Hesab edirəm, bir çox ölkələrdə bəzən cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma zamanı məsələ qoyulur ki, ya sən, məsələn, 10-15 seans mütləq psixoloqun yanında olmalısan, ya da sənin haqqında müvafiq tədbirlər görüləcək. Məcburi qaydada psixoloqun iştirakı təmin olunur. Yaxud biz indi burada qeyd edirik ki, psixoloq zərər çəkmiş şəxsin razılığı ilə prosesə cəlb oluna bilər. Hesab edirəm ki, araşdırmanı aparan müvafiq vəzifəli şəxsin qərarı ilə də psixoloqun iştirakı təmin olunmalıdır.

Hörmətli sədr, Sizin o fikrinizlə tam razıyam ki, bu kimi məişət zorakılığının baş verməsində əsas faktor mədəni səviyyə məsələsidir. Amma dediyim kimi, sosial məsələlər də az rol oynamır. Bu, ümumiyyətlə, hər bir xalqın sosial inkişaf indeksinə bağlıdır. Qadınlarla bağlı vəziyyət belədir ki, bizim qadınlar bu cür zorakılıqla üzləşdikdə bir çox hallarda hüquq mühafizə orqanlarına müraciət etməsələr də, öz valideynlərinə, yaxınlarına bu barədə bildirirlər və bu tipli hadisələr haqqında onlar

tərəfindən müvafiq dövlət orqanlarına məlumat verilir. Amma mentalitetimiz belədir ki, kişilər, ümumiyyətlə, bu barədə danışmağı özlərinə sığışdırmırlar. Bəlkə də elə kişilərin az yaşamasının səbəblərindən biri də budur. Onlar daha çox, belə deyək, əziyyət çəkirlər.

Burada əyləşən hörmətli xanımlarımızın hamısından üz istəyirəm. Belə bir lətifə var. Görünür, elə belə yaranmayıb. Qadınlar öləndə söyləyirlər ki, bu, Allahın işidir, kişilər öləndə deyirlər, bu, qadınların işidir. Bu, zarafatla deyilmiş bir sözdür. Amma bəzən, həqiqətən də, qadınlarımız ailədə dözülməz vəziyyət yaradır. Qadınlarımız bizim anamızdır, bacımızdır, həyat yoldaşımızdır, qızlarımızdır. Amma o fikrin tərəfdarıyam ki, bu tipli məsələlərdə psixoloqların bir çox hallarda məcburi qaydada iştirakından geniş istifadə qanunvericilikdə nəzərdə tutulsun. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Qüdrət müəllim. Azay Quliyev. Buyurun.

**Azay Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən müzakirəmizə təqdim olunan qanun layihəsinin bəzi məqamlarına diqqəti cəlb etmək və konkret olaraq mahiyyəti üzrə təkliflərimi səsləndirmək istərdim. Bu gün biz şikayətlərə baxılma prosedurunun əhatə dairəsinin genişləndirilməsini müzakirə edirik. Eyni zamanda, şikayətlərə baxılma zamanı yol verilən gecikmə hallarına görə cərimə sanksiyalarını artırırıq. Əlbəttə, bütövlükdə, mən həmkarlarımın dedikləri ilə razıyam. Bu gün məişət zorakılığı ilə bağlı Azərbaycanda görülən işlər kifayət qədər diqqəti cəlb edir. Amma etiraf olunmalıdır ki, hələ də problemlər çoxdur. Biz bu istiqamətdə müəyyən institusional addımlar da atmalıyıq. Ümumiyyətlə,

ərizələrə, şikayətlərə baxılma prosedurları ilə bağlı mexanizm yenidən işlənməlidir.

Bilirsiniz ki, qanunvericiliyə əsasən əgər məişət zorakılığı barədə şikayətdə cinayət tərkibi yoxdursa, bu məsələlərə müvafiq icra hakimiyyəti orqanlarında baxılır. Bunun üçün də qısamüddətli mühafizə orderləri verilə bilər. Bu orderlər 60 gün müddətində verilir. Bu orderlərin verilməsinə nəzarət mexanizmi dediyim qurumlar tərəfindən həyata keçirilməlidir. Amma təcrübə göstərir ki, burada müəyyən problemlər var. Obyektiv və subyektiv səbəblərdən qaynaqlanan problemlər var. Problem nədən ibarətdir? Bilirsiniz ki, bu səlahiyyət icra hakimiyyətlərində var. İcra hakimiyyətlərinin nəzdində fəaliyyət göstərən yetkinlik yaşına çatmayan uşaqların hüquqlarının müdafiəsi ilə bağlı qəyyumluq orqanları, tibbi, səhiyyə müəssisələri və sair birgə yığışaraq daxil olan şikayətləri araşdırır və müvafiq qərarlar qəbul edirlər. Təcrübə göstərir ki, bu qərarları verən zaman, yəni qısamüddətli mühafizə orderlərinin verilməsi çox ciddi şəkildə gecikdirilir. Qanunda 24 saat nəzərdə tutulur. Lakin bəzən bu, bir gün, bir həftə, bir ay uzadılır. Ona görə mən düşünürəm ki, biz bu məsələyə baxmalıyıq. Ümumiyyətlə, bu səlahiyyətin digər quruma, konkret olaraq polis orqanlarına verilməsi məsələsini nəzərdən keçirib həll etməliyik. Niyə polis orqanlarına? Çünki qeyd etdiyim kimi, müraciətlərdə qeyd olunan orqanların üzərinə səlahiyyət, bir vəzifə qoyulur ki, məsələnin cinayət tərkibinin olub-olmamasını aydınlaşdırsın. Sonra verilmiş müvəqqəti, daha doğrusu, qısamüddətli mühafizə orderlərinin həyata keçirilməsinə nəzarəti təmin etsin. Etiraf edək ki, bu orqanlar ixtisaslaşmış deyillər. Onsuz

da, onlar fəaliyyətlərini polis vasitəsi ilə həyata keçirirlər. Ona görə də yaxşı olardı, bu səlahiyyətlər, ümumiyyətlə, polis orqanlarına verilsin.

Yeri gəlmişkən, bu məsələ həm Ailə və Qadın Məsələləri Üzrə Dövlət Komitəsinin, həm də ayrı-ayrı ekspertlərin fikridir ki, bu mexanizm beynəlxalq standartlara uyğun şəkildə yenidən tənzimlənsin. Bu niyə vacibdir? Bayaq hörmətli həmkarlarımız statistikadan bəhs etdilər. Mənə belə gəlir, statistika da çox önəmlidir. Burada hörmətli Zahid müəllim qeyd etdi ki, 521 nəfərdən məişət zorakılığı ilə bağlı müraciət daxil olub. Bu, məhz dövlət komitəsinə daxil olan müraciətdir. Amma Daxili İşlər Nazirliyinə daxil olan müraciətlərin sayı qat-qat çoxdur. Məsələn, 9389, yaxud da qeyri-dövlət qurumlarına daxil olan müraciətlərin sayı 12 mindir. Beləliklə, bizdə olan məlumata görə, 2023-cü ildə ən az 22 min nəfərlə bağlı məişət zorakılığı faktı meydana çıxıbdır. Mən hələ digər prokurorluq orqanlarına və sairə müraciətləri demirəm. Yeri gəlmişkən, bu məlumatların da mərkəzləşdirilməsinə ehtiyac var. Biz bilək ki, məişət zorakılığı ilə bağlı ildə nə qədər faktlar var. Amma hörmətli həmkarlar, cəmi 180 qısamüddətli mühafizə orderi verilibdir. Görün, nə qədər böyük bir natarazlıq var. Ona görə də bu məsələlərdə bu təklif, həqiqətən də, ciddiyə alınmalıdır.

Daxili İşlər Nazirliyinin digər bir statistikasını diqqətə çatdırıram. Həmin 9389 müraciət nəticəsində 1236 nəfər qəsdən sağlamlığa yüngül, 88 nəfər nisbətən ağır, 149 nəfər ağır, nəhayət, 92 nəfərin qəsdən öldürülməsi halları baş veribdir. Əgər bu orderlər vaxtında verilsə idi, həmin şəxsin müraciəti ciddiyə alınıb vaxtında müvafiq tədbirlər görülsə idi, bəlkə bu qədər insanın həyatı təhlükədə

olmazdı. Ona görə bu məsələyə baxmaq lazımdır.

Hörmətli həmkarlar, bilirsiniz ki, məişət zorakılığında zərər çəkmiş şəxslər uzunmüddətli müalicə orderini almaq üçün məhkəməyə müraciət etməlidirlər və bu zaman məhkəmədə rüsum ödəməlidirlər. Mənə belə gəlir ki, məsələnin vacibliyini nəzərə alaraq məhz məhkəməyə ödənilən rüsum həmin şəxslərin üzərindən götürülməlidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azay müəllim. Səbinə Salmanova. Buyurun.

**Səbinə Salmanova**. Hörmətli xanım sədr, hörmətli həmkarlarım, əvvəlcə, hər birinizi qarşıdan gələn Zəfər Günü və Dövlət Bayrağı Günü münasibəti ilə təbik edirəm. Bu Zəfəri bizə yaşadan müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli ordumuza, şəhid və qazilərimizə hər birimiz minnətdarıq.

Hörmətli xanım sədr və dəyərli həmkarlarım, mən bu gün birinci oxunuşda müzakirə etdiyimiz "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna təklif edilən dəyişiklikləri müsbət qiymətləndirirəm və vacib hesab edirəm. Azərbaycanda məişət zorakılığı ilə mübarizə sahəsində beynəlxalq standartlara cavab verən qanunvericilik bazası yaradılmışdır. Ancaq təəssüflər olsun ki, bu da məişət zorakılığının qarşısının alınmasına kifayət etmir. Demək olar ki, hər gün sosial şəbəkələrdə və mediada məişət zorakılığı ilə bağlı həyəcan doğuran məlumatlar yayılır. Əlbəttə ki, bu, cəmiyyətimizdə haqlı narahatlıq yaradır.

Bildiyiniz kimi, ailələrlə sosial iş aparılması məqsədi ilə icra hakimiyyətlərində müvafiq komissiyalar yaradılıb. Hesab edirəm ki, problemli ailələrlə davamlı olaraq monitorinqlər aparılmalı, qabaqlayıcı tədbirlər görülməlidir.

Məişət zorakılığının qarşısının alınması üçün sosial iş institutu daha da genişləndirilməlidir.

Burada həmkarlarımdan biri psixoloqlarla bağlı təkliflər verdi. Mən diqqətinizi bir məsələyə də yönəltmək istəyirəm. Bizim rayon, xüsusən də kəndlərimizdə psixoloq sayı azdır. Təklif edirəm ki, məktəblərdə çalışmaq istəyən psixoloqların sayının artırılması üçün müəyyən stimullaşdırıcı tədbirlər görülsün. Fikrimcə, bu da sahəyə olan marağı artıraraq problemin həllinə müəyyən dərəcədə öz müsbət təsirini göstərəcək. Sənədin lehinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Səbinə xanım. Psixoloqlar, bəli, azdır, ancaq bu da onunla izah olunur ki, bu, yeni bir ixtisasdır və ali təhsil sistemində, mənə elə gəlir, bir, ya iki universitetdə bu ixtisas var. Mən düşünürəm ki, bir neçə ildən sonra bunların sayı daha da çox olacaq. Siz tamamilə düz deyirsiniz, onların daha çox olması mütləqdir.

Gülşən Paşayeva. Buyurun. Səbinə xanım da, Gülşən xanım da, deyəsən, bu gün birinci dəfə danışırlar.

**Gülşən Paşayeva**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, əlbəttə, hamımız çox yorulmuşuq, artıq 4 saata yaxındır ki, müzakirələr gedir. Ancaq bu mövzu olduqca vacibdir. Mən təşəkkür edirəm ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər eşidirik. Biz, ümumiyyətlə, bu mövzuya, yəni məişət zəminindəki zorakılıq məsələsinə daha geniş kontekstdə baxmalıyıq. Söhbət zorakılıqdan gedirsə, zorakılıq bütün istiqamətlərdə həyata keçirilə bilər. Fərdlər arasında istənilən məsələni danışıqlar yolu ilə və ya zor işlətməklə həyata keçirmək olar. Əgər insanlar bir-birilərini eşidə bilmirsə, başa düşə bilmirsə, onlar zor işlətməklə məsələni həll etməyə çalışırlar.

Sahibə xanım, qeyd etdiyiniz kimi, bu, birinci növbədə insanların ailədəki tərbiyəsindən asılıdır. Çünki əgər valideynlər öz uşaqlarına tərbiyə verərkən zor işlətmirlərsə, onların dünyaya gətirdikləri övladları da gələcəkdə öz uşaqlarına və ya öz həyat yoldaşlarına qarşı bunu etməyənlər. Bu, mədəniyyətin əsasıdır və bu mədəniyyəti formalaşdıran da bizik. Burada söhbət ancaq Azərbaycandan deyil, dünyadakı bütün insanlardan gedir. Bu, çox vacib və ağrılı bir mövzudur.

Bir neçə deputat həmkarım da bu haqda danışdı. Əgər biz zor işlətmək istiqamətində fəaliyyətin necə dayandırılması barədə danışırıqsa... Fərdlərin bir-biri ilə münasibətlərini məhz danışıqlar yolu ilə başa düşməsi, zorakılıq hallarından istifadə olunmaması, məişət zorakılığında həm kişi, həm qadın, həm də uşağa qarşı zorakılığın tətbiq edilməməsi – bütün bunların qarşısını almaq olduqca böyük və vacib bir mövzudur. Mənə elə gəlir ki, bu mövzu ilə bağlı cəmiyyətin, hətta bəlkə bizim özümüzün də davamlı şəkildə maarifləndirilməsi üçün müəyyən mənada əsas var. Ona görə də mən bu qanundakı dəyişikliyi müsbət qiymətləndirirəm və ona səs verəcəyəm.

Biz indi qanunun mahiyyəti haqqında danışırıq. Lakin mən oraya vacib bir qeyd, yaxud da bir maddə əlavə edərdim. Ölkəmizdə bu institut, məncə, hələ tam şəkildə formalaşmayıb və istifadə olunmur. Ancaq dünyada, Qərbdə çox geniş istifadə olunur. Söhbət mediasiya institutundan gedir. Əgər fərdlər arasında münaqişəli vəziyyət baş verirsə, mediatorlar yaxından iştirak edirlər və həmin situasiyalarda kömək edirlər ki, insanlar bir-birini başa düşsünlər və sonda zorakılıq halları yaşanmasın. Ona görə əgər biz burada cinayət tərkibi olmayan

halları qeyd ediriksə, mediator institutundan da istifadə olunması pis olmazdı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İki nəfər yazılıb. Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı.** Hörmətli Sahibə xanım, söz verdiyinizə görə çox sağ olun. Əslində, mən öncədən yazılmamışdım. Həmkarlarım yorulubsa da, onlardan üzr istəyirəm. Mən nəyə görə çıxış etmək istədim? Azay müəllim də səsləndirdi. Həqiqətən də, reallıq belədir ki, Azərbaycanda evlənənlərin 40 faizi boşanır. Burada hörmətli həmkarım Gülşən xanım mediasiya institutunu qeyd etdi. Bu gün bütün dünya ölkələrində boşanma çox sürətlə artır. Təbii ki, Avropa ölkələri ilə Azərbaycanı müqayisə etmək olmaz. Ona görə ki, orada qanuni nikahdan daha çox vətəndaş nikahlarıdır. Amma rəsmi nikaha gedilən ölkələrdə də boşanma artırıbdır.

Burada məsələ odur ki, bir sıra ölkələr bunun qarşısını qismən ala biliblər. Bu da həmin ölkələrdə fəaliyyət göstərən ailə məktəbləridir. Hörmətli həmkarlarım, müvafiq Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri, peşəkar hüquqşünaslarımız çox gözəl bilirlər, onsuz da, Azərbaycanda hakimlərin sayı tələbata görə uyğun gəlmir. Ona görə də məhkəmələrdə boşanmalarla bağlı məsələyə bir az tələsik baxırlar. Mən başqa ölkələrin – Yeni Zelandiyanın, Finlandiyanın, Skandinaviya ölkələrinin və Avstraliyanın təcrübəsini səsləndirmək istəməzdim. Lakin qardaş Türkiyədə 2013-cü ildən ailə məhkəmələri fəaliyyət göstərir. Orada da mediasiya institutu var, onlar buna "arabuluculuq" deyirlər. Ailə məhkəməsi fəaliyyət göstərən ölkələrdə həm məişət zorakılığının, həm də boşanmaların qarşısını qismən ala biliblər. Çünki

statistik təhlil göstərir ki, boşanmaların mütləq əksəriyyətinin səbəbi ailədə baş verən davamlı məişət zorakılığıdır. Sahibə xanım, Siz bu məsələlərə çox praktik yanaşırsınız, hər zaman da dəstəkləyirsiniz. Hörmətli Hicran xanımdan da xahiş edərdik, bəlkə gələcəkdə boşanmalarla bağlı hansı isə formada dinləmələr keçirilsə idi, daha yaxşı olardı. Təbii ki, indi iclaslar, müzakirə olunmalı vacib məsələlər çoxdur. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Məlahət xanım. Mən düşünürəm, vacib məsələdir. Ümumiyyətlə, məişət zorakılığı ilə bağlı Siyavuş müəllimin dediyi məsələlərə xüsusi diqqət çəkmək istəyirəm. Bəli, dinləmələr lazımdır. Eyni zamanda, etiraf edək ki, hər birimiz seçicilərlə görüşəndə maarifləndirmə işini, heç olmasa, özümüz da hansı isə çərçivədə apara bilərik.

Hörmətli həmkarlar, biz qanun layihəsinə qayıdaq. Daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.28 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İclasımız başa çatdı. Mən hamıya minnətdarlıq bildirirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***7 noyabr 2024-cü il***

**Afət Həsənova.** Sabah biz sonsuz qürur və iftixar hissi ilə Azərbaycan xalqının tarixində və taleyində müstəsna yeri olan böyük bir günü – 8 noyabr şanlı Zəfər Gününü qeyd edəcəyik. Dörd il əvvəl məhz bu gündə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik bacarığı, siyasi-diplomatik məharəti, Silahlı Qüvvələrimizin yenilməzliyi, əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqımızın birliyi nəticəsində Ermənistan tam məğlubiyyətə uğradılaraq 30 ilə yaxın müddətdə işğal altında olan tarixi torpaqlarımız düşmən tapdağından azad edildi. Vətən müharibəsində qazanılan qələbə və bir günlük uğurlu lokal antiterror əməliyyatı dövlətimizin qüdrətinin nümayişi olmaqla xalqımızın inamını özünə qaytardı, Azərbaycanın dirçəlişinə, tərəqqi zirvələrinə gedən yolunu daha da genişləndirdi. İnamla deyə bilərik ki, 8 noyabr günü ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycanın tarixi inkişafında tamamilə yeni tarixi dövrün başlanğıcıdır.

Vətən müharibəsindən ötən hər il biz düşmən üzərində qazanılan qələbənin miqyasını və əhəmiyyətini daha dərindən hiss edir, cənab Prezidentin dediyi kimi, tərpənməz hesab edilən hansı daşları tərpətdiyimizin daha aydın fərqində oluruq. 200 ilə yaxın müddətdə ermənilərin öz havadarlarının köməyi ilə xalqımıza qarşı Azərbaycan torpaqlarında həyata keçirdikləri insanlıq əleyhinə cina-

yətlər, kütləvi qətllər, soyqırımları, deportasiyalar, etnik təmizləmələr silsiləsinə son qoyulması Azərbaycan üçün, həqiqətən də, böyük tarixi əhəmiyyətə malik, taleyüklü bir hadisə olmuşdur. Əslində, Vətən müharibəsində və ondan sonra baş verənlər Azərbaycanın nəyə qadir olduğunu göstərməklə, nəinki regionda, bütün dünyada onun nüfuzunu artırmışdır. Baş verənlər qətiyyətli mövqeyi ilə və etibarlı tərəfdaş kimi tanınan Azərbaycana dünyanın müxtəlif dövlətlərinin münasibətinə də ciddi təsir etmişdir.

Ötən dövrdə biz haqqımız olan Zəfərimizə ürəkdən sevinən dostlarımızı da, Azərbaycanın qələbəsini qəbul etməyərək, ona qısqanclıq, hətta qərəzlə yanaşanları da gördük. Məlumdur ki, belə qərəzli münasibətin başlıca səbəbi möhtərəm dövlət başçısının yalnız Azərbaycanın gücünə arxalanaraq yeritdiyi qətiyyətli, uzaqgörən və müstəqil siyasət nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasının kimlərinsə Cənubi Qafqaza yönəlik planlarını pozması ilə bağlıdır.

İşğal zamanı erməni vandallarının viran qoyduqları Qarabağda və Şərqi Zəngəzurda bu gün geniş tikinti-quruculuq, bərpa işləri həyata keçirilir, xalqımızın illərdən bəri həsrətlə gözlədiyi Böyük Qayıdış gerçəkləşdirilir. Öz doğma yurdlarından ölüm qorxusu altında qovularaq 30 il ağır köçkünlük həyatına məhkum edilmiş insanlar doğma Qarabağa, Şərqi Zəngəzura qayıdır və o ərazilər yenidən firavan, xoşbəxt həyatına qovuşur. Bütöv Azərbaycan, onun dövləti, xalqı üçün bundan böyük səadət, qalib dövlət, qalib xalq adından uca, şərəfli, qürurlu ad ola bilməz. Biz bu ucalığa, qürura görə alınmaz hesab olunan düşmən səngərlərini cəmi 44 günə yerlə yeksan edən qəhrəman şəhidlərimizə, qazilərimizə və Azərbaycan əsgəri-

nin dünyanı heyrətə salan Zəfər yürüşünü tarixi qələbəyə çatdıran yenilməz sərkərdə müzəffər Ali Baş Komandana daim borcluyuq.

Şanlı Zəfərimiz Cənubi Qafqazda mövcud reallıqları da kökündən dəyişdirmiş, dayanıqlı sülhə və əməkdaşlığa yeni imkanlar yaratmışdır. Bu gün məhz Azərbaycanın irəli sürdüyü prinsiplər əsasında Ermənistanla aparılan sülh danışıqları bölgə xalqlarının inkişaf və tərəqqi yolunun açılmasına zəmin yarada bilər. Azərbaycanın və onun liderinin səyləri ilə mümkün olan bu reallıqların həyata keçməsi Ermənistanın onu revanşizmə yönəldən dövlət və qüvvələrin təsirindən kənar olması, bölgənin daimi rifahına və əməkdaşlığa yönələn siyasəti qəbul etməsidir.

Azərbaycan dövlətinin və xalqının həyatında həlledici tarixi gün kimi əbədi qalacaq Zəfər Günü münasibəti ilə Azərbaycan Silahlı Qüvvələrini, onun müzəffər Ali Baş Komandanını, deputat həmkarlarımı və bütün xalqımızı ürəkdən təbrik edirəm.

**Anar Məmmədov.** Bu gün Azərbaycan xalqı Vətən müharibəsində qazanılmış şanlı qələbəmizin dördüncü ildönümünü – Zəfər Gününü böyük coşqu, sevinc və qürur hissləri ilə qeyd edir. Azərbaycanın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan Qarabağ Zəfəri müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qazanılıb. 8 noyabr –Zəfər Günü ədalətin və bütövlüyümüzün qələbəsidir.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandan, Prezident İlham Əliyevin "dəmir yumruq" adlandırdığı əks-hü-

cum əməliyyatına başladı. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi. Ermənistanın hərbi kapitulyasiyasına nail olduq. Bəşəriyyətə haqqı, ədaləti böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin – Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın deyil, bütövlükdə, haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğrunda vuruşuruq.

Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarca vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu.

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımlar zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, Zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimizdir.

Budur Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur xalqının Prezidenti olmaq! Budur liderlik missiyası! Bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni

bir daha əbədiləşdirdi. Bu Zəfərin formulu isə müzəffər Ali Baş Komandan–xalq birliyi və Azərbaycan əsgəridir. 8 noyabr – Zəfər Günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır! Zəfərin mübarək, Azərbaycan!

**Asif Əsgərov.** Artıq dördüncü ildir ki, xalqımız Azərbaycanın müasir tarixində son dərəcə önəmli olan bir bayramın qürurunu yaşayır. 8 noyabr tarixi düşməni məğlub edib doğma yurdlarına, əzəli torpaqlarına qovuşan xalqımızın Zəfərinin bayramı, milli qürurun, şərəfin qələbəsi, ləyaqətin təntənəsidir. 2020-ci ilin 27 sentyabrı ilə 8 noyabrı arasındakı zaman kəsiyində bizim üçün hər şey adilikdən çıxdı, müqəddəsləşdi. Vətən savaşında Azərbaycan işğal faktı ilə barışmayacağını bütün dünyaya göstərdi və sübut etdi ki, istər döyüş meydanında, istərsə də diplomatik müstəvidə Azərbaycan dövlətinin və xalqının qətiyyətinin, birliyinin qarşısında heç bir qüvvə dayana bilməz.

Zəfər Günü bizim Qarabağımıza qovuşduğumuz tarixi bir gündür. Həmin gün Qarabağ münaqişəsinə ölkəmizin möhtəşəm qələbəsi ilə nida qoyulduğu gündür. Qarabağın azad edilməsi təkcə Azərbaycanın nailiyyəti deyil, türk dünyasının bütün xalqları üçün qürur mənbəyidir.

Noyabrın 8-də Azərbaycan xalqı, dövləti və ordusu elə bir tarix yazdı ki, bu, bütöv bir millətin ləyaqət rəmzinə, milli qeyrət nümunəsinə çevrildi. Biz 30 ildir, itirdiyimiz dəyərləri özümüzə qaytardıq, illərcə həsrətində olduğumuz torpaqlarımıza qovuşduq. Biz heç nəyi unutmadıq, unutmadıqca da möhkəmləndik, gücləndik və nəhayət, dünyanın illərdir, göz yumduğu ədalətsizliyi özümüz təkbaşına aradan qaldırdıq.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin

ətrafında sıx birləşən Azərbaycan xalqı 30 illik məhrumiyyətə cəmi 44 günə son qoydu. Tariximizə yeni səhifə yazıldı. Vətən müharibəsi Azərbaycan xalqının Zəfər məramına, milli kimlik mücadiləsinə, torpaq və vətən sevgisinə şahidlik etdi.

Çağdaş tariximizə müstəqil Azərbaycanın Vətən müharibəsi adı ilə yazılan Qarabağ savaşının xalqımızın möhtəşəm qələbəsi ilə başa çatmasından keçən həftələr, aylar bu Zəfərin misilsiz bir qəhrəmanlıqla qazanıldığını hər birimizə getdikcə daha dərindən anladır. Bu qələbə, həqiqətən, son 30 ildə başqa heç bir yolla mümkün olmayan, illər keçdikcə bir az da mürəkkəbləşib dolaşığa salınan Qarabağ münaqişəsinə yalnız xalqımızın öz iradəsi, gücü və qeyrəti ilə son qoyulmasının təntəntəsidir.

Ölkə prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş strategiyası, siyasi iradəsi və qətiyyəti sayəsində ordu ilə xalqın sarsılmaz birliyi təmin olunaraq qazanılan tarixi Zəfərdən sonra qərinələr keçəcək, illər ötəcək, tarix isə bu şanlı qələbəni xalqımızın taleyinin ən parlaq səhifəsi kimi heç vaxt unutmayacaq.

Cənab Ali Baş Komandan bizləri milli ruhumuza qovuşdurdu, milli qürurumuzu qorumağa qadir olduğumuzu bütün dünyaya sübut etdi, həm də dünya xalqlarına tarixi bir örnək verdi. Göstərdi ki, onilliklər ərzində ən nüfuzlu beynəlxalq təşkilatlar öz qətnamələrinin icrasını təmin edə bilmədikdə və dünya gücləri öhdəliklərini yerinə yetirmədikdə belə, Azərbaycan xalqının haqq savaşına çıxmaq hüququnu və hərbi yolla işğalçını cəzalandırmaq haqqını onun əlindən heç kim ala bilməz. Müstəqil Azərbaycan dövləti və Azərbaycan xalqı məhz bu tarixi örnəyi dünya birliyinin yaddaşına həkk etdirdi. 44 günlük

Vətən müharibəsi 30 illik torpaq həsrətimizə son qoydu, millət və xalq olaraq başımızı dik tuta bilmək haqqımızı bizlərə qaytardı. Uğrunda döyüşdüyümüz torpaqlar Vətən övladlarının qanı, canı bahasına azad edildi. Bu gün bütün dünyada öz peşəkarlığı və rəşadəti ilə tanınan Azərbaycan Ordusu sayəsində çox qısa müddətdə qazanılan bu tarixi hərbi nailiyyətə şahidlik etmək möhtəşəmdir.

Ölkə rəhbəri böyük qətiyyətlə yalnız müqəddəs torpaqları düşmən tapdağından qurtarmadı, haqsızlıqların, ikili standartların hökm sürdüyü dünyada həqiqəti, ədaləti bərpa etdi. Görkəmli dövlət xadimi kimi müdrik siyasəti nəticəsində uzun sürən savaşa son qoyaraq sülhü bərqərar etməklə, bəşəriyyətə sülh naminə mühüm xidmətlər göstərdi.

Ali Baş Komandanın ən sadiq silahdaşı kimi ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkəmizin ədalətli mübarizəsi barədə həqiqətləri beynəlxalq birliyə çatdırmaqla, vətənpərvər çağırışları ilə hər bir azərbaycanlını informasiya platformalarında mübarizəyə səfərbər etdi. Cəbhədə döyüşən igid əsgərlərimizə duaları ilə, yaralılarımıza, həlak olan günahsız dinc insanlarımızın ağrı-acısına şərik olaraq bir ana, bacı kimi doğma və qayğılı münasibəti ilə xalqımıza təsəlli oldu.

Azərbaycanın müasir tarixi iki qüdrətli liderin – müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsinin qalibi, Qarabağın xilaskarı Prezident, Ali Baş Komandan İlham Əliyevin müdriklik, qətiyyət və qəhrəmanlıq salnaməsidir. Bu, qurtuluş tarixidir, yüksəliş tarixidir, Zəfər tarixidir.

Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş Ağdamdan xalqa müraciətində “Mən bu gün burada, Ağdamda dayanmışam. Öz ordumla, qalib kimi”

sözləri müzəffər sərkərdənin öz qələbəsini bəyan etməsinin parlaq nümunəsi idi.

Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi, tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaqdır. Çünki bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır.

Azərbaycan Ordusunun Vətən müharibəsindəki Zəfəri gənclərimiz üçün yeni məzmun gətirdi. Gənc nəslin Zəfər tariximizdən sonrakı mərhələdə vətənpərvərlik, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi bu gün qarşımızdakı ən önəmli hədəflərdən biridir. Bu gün hər bir gənc Qarabağ savaşında vətəni üçün canından keçən şəhidlərimizin qəhrəmanlıq məktəbindən bəhrələnməli, onların həyat yolunu dərindən öyrənməli, Zəfərimizin qəhrəmanlarının keçdikləri hünər yolunun növbəti nəsillərə çatdırılmasına öz töhfəsini verməlidir.

Artıq həyatımızda yeni dövr başlayıb. Bu dövrün özünəməxsus özəllikləri var. Biz Azərbaycanın beynəlxalq münasibətlərdə yürütdüyü siyasətin yeni konturlarını görürük. İkitərəfli və çoxtərəfli əlaqələrdə yeni əməkdaşlıq parametrləri müşahidə olunur. Ən önəmli məqam isə ondan ibarətdir ki, dünya bu müharibənin gedişində Azərbaycanı yenidən kəşf edib, ölkəmiz haqqında, onun malik olduğu güc barədə beynəlxalq birlikdə dəqiq təsəvvür formalaşıb. Onlar görürlər ki, müstəqillik tarixi dövründə inanılmaz dərəcədə güclənən Azərbaycanla heç bir halda təhdid dilində danışmaq olmaz. Çünki onun xalqın maraqlarını bütün dəyərlərdən üstün tutan, ölkənin

bütün potensialını vətən naminə səfərbər edən, “Qarabağ Azərbaycandır!” kəlməsini Azərbaycan tarixinə əbədi həkk edən lideri var.

44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq. Qoy, vətənimizdə daim sülh, firavanlıq və təhlükəsizlik hökm sürsün. Qarabağ Azərbaycandır!

**Azay Quliyev.** Noyabrın 8-də xalqımız böyük qürurla tarixi Zəfər bayramını və Şuşa Şəhəri Gününü qeyd edəcək. Hər iki tarixi gün münasibəti ilə xalqımızı, müzəffər Ali Baş Komandanı, silahlı qüvvələrimizin bütün mənsublarını, şəhid ailələrini, qaziləri və bütün müharibə iştirakçılarını ürəkdən təbrik edirəm. Bu Zəfər, bu dövlət və bu vətən üçün canlarını fəda edən qəhrəman şəhidlərimizin əziz xatirəsini sonsuz minnətdarlıq hissi ilə anır və onlara Allahdan rəhmət diləyirəm.

Dünya hərb tarixinə qəhrəmanlıq və peşəkarlıq nümunəsi kimi qızıl hərflərlə yazılan, yeni milli kimliyimizi bəlirləyən, 200 illik milli faciələr silsiləsinə son qoyan və milli ləyaqət tariximizə çevrilən 8 noyabr – Zəfər Günü haqqında saatlarla danışmaq olar. İllər keçsə də, 44 günlük Vətən müharibəsində misilsiz igidlik və şücəat nümunələri yaratmış əsgər və zabitlərimizin qəhrəmanlığı və vətənpərvərlik ruhu, Ali Baş Komandan, Prezident İlham Əliyevin sərkərdərlik bacarığı, qətiyyəti, siyasi dühası və diplomatik məharəti, qələbəmizi təmin edən milli birlik və siyasi həmrəylik haqqında hər zaman danışılacaq.

Bu qələbəni Azərbaycan və onun lideri təkcə döyüş meydanında vuruşaraq qazanmadı. Dünya erməniliyinin yüzillik maddi və siyasi resurslarını özündə cəmləyən

Ermənistan və onu açıq müdafiə edən qlobal güclərin ölkəmizə qarşı açdığı digər cəbhələrdə, informasiya və diplomatiya cəbhəsində də mücadilə edərək, haqqımızı qoruyaraq və bütün iftiralara və təzyiqlərə tab gətirərək bu Zəfəri qazandıq. Lakin uğradıqları acı məğlubiyyəti heç cür həzm edə bilməyənlər, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə razılaşmayanlar ölkəmizə qarşı apardıqları savaşı dayandırmaq fikrində deyillər. Bu dairələrin hədəfi dəyişməz olaraq qalır: ölkəmizin beynəlxalq nüfuzuna və əlaqələrinə ola biləcək qədər zərbə vurmaq, iftira və yalan kampaniyasını genişləndirmək, sementləşən milli birliyimizi və siyasi həmrəyliyimizi zədələmək, qələbəmizi unutdurmaq və ya adiləşdirmək, ictimai mühiti zəhərləmək və ideoloji təhlükəsizliyimizi daim təhdid altında saxlamaq.

Bu qüvvələr yaxşı bilirlər ki, Azərbaycanda nə qədər güclü lider, milli birliyik və həmrəylik var, nə qədər milli birliyimizin və gücümüzün rəmzi olan “dəmir yumruq” yerindədir, onların məkrli planlarının həyata keçməsi mümkün olmayacaq.

**Azər Badamov.** 8 noyabr – Zəfər Günüdür. Zəfərimizin müəllifi Ali Baş Komandan, Prezident İlham Əliyevdir. Zəfəri bizə qazandıran isə Ali Baş Komandanın müzəffər ordusu və xalqımızdır. Allah şəhidlərimizə rəhmət eləsin!

Zəfər Günü xalqımızın nəinki 30 illik, hətta yüz illərin arzusunun reallaşdığı gündür. Çünki biz tarixən torpaqları itirə-itirə gəlmişik. Azərbaycan xalqı yüz illər ərzində zaman-zaman öz doğma yurdlarından sıxışdırılıb, deportasiya olunub və nəhayət, 1990-cı illərin əvvəlində müstəqilliyə yenidən qovuşmuş dövlətimizin ərazilərinin 20

faizi işğal olundu. Bütün bu bəlalar xalqımızın başına gəldi. Amma Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı bir dövlət olaraq yenidən dünyaya qaytardı. Prezident İlham Əliyevin rəhbərliyi altında qısa zaman kəsiyində ölkədə "dəmir yumruq" formalaşdı və tarixi misiyamız yerinə yetirildi.

Bu gün Azərbaycan qalibdir. Şuşa gününü qeyd edirik. Şuşa həm də milli birlik və həmrəyliyin simvoludur. Çünki Vətən müharibəsində dinindən, etnik mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq hər bir vətəndaşımız Şuşanın azadlığını istəyirdi. Azad Şuşada keçirilən ilk Xarıbülbül Festivalı döyüş meydanında özünü təsdiq etmiş, sarsılmaz milli birliyimizin və həmrəyliyimizin musiqi meydanında təntənəsi idi. Şuşada səslənən bayram sədaları bayrağımızı Xankəndidə dalğalandırdı. Bu gün bütün ərazilərimizdə suverenlik bərpa olunmuşdur. Bayrağımız bütün ərazilərimizdə məğrurcasına dalğalanır.

Allah da xalqımızı çox istəyir. Çünki 9 noyabr – Bayraq Günü ərəfəsində Zəfərə imza atdıq. Bayrağımız döyüş meydanında Zəfər çalmış qalib ölkənin bayrağıdır. Bayrağımız vətən uğrunda öz canından keçmiş şəhid övladlarımızın bürünərək ailələrə qayıtdığı və şəhid analarımızın öpüb sinəsinə basdığı müəqddəs bayraqdır. Bayrağımız milli kimliyimizdir. Bir neçə gündən sonra COP29 beynəlxalq tədbirə ev sahibliyi edəcəyik. Biz ölkəmizə gələcək dövlət başçılarını və yüksək qonaqlarımızı Zəfər çalmış bayrağımızla qarşılayacağıq. Bu, dövlətimizin, bayrağımızın qüdrətinin göstəricisidir.

**Azər Kərimli.** Vətən müharibəsinin və lokal antiterror tədbirlərinin nəticələrini simvolizə edən Zəfər bayramı

Azərbaycan dövlətçiliyinin və xalqının tarixinin ən şərəfli salnaməsidir. İllər, yüz illər keçəcək, Azərbaycan xalqının, dövlətinin və onun müzəffər ordusunun Prezident, Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə əldə etdiyi ədalətli və ləyaqətli Zəfərə aparan yolun hər qarışı daha dərindən nəzərdən keçiriləcək, torpaqlarımızın işğaldan azad edilməsinin, suverenliyimizin bərpasının alt qatlarında nə qədər böyük bir zəhmətin, strateji zəkanın, vətən sevgisinin dayandığı daha aydın, daha qabarıq görünəcəkdir.

Şübhəsiz ki, bizi Zəfərə aparan yol 44 gündən ibarət deyil. 44 gün bu prosesin döyüş meydanında cərəyan edən hissəsidir. Uzun bir vaxt ərzində Azərbaycan Prezidenti ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin güclənməsi və müttəfiqlərinin artması, ölkəmizin mövqelərini müdafiə edən dövlətlərin çoxalması, milli maraqlarımızın müdafiəsi istiqamətində ciddi addımlar atıb.

Müttəfiqlərimizdən danışarkən, təbii ki, ilk növbədə Türk dövlətlərini qeyd etmək lazımdır. Bu il Türk Dövlətləri Təşkilatının (TDT) nüfuzlu beynəlxalq təsisat kimi formalaşmasında müstəsna əhəmiyyət kəsb edən Naxçıvan sazişinin 15-ci ildönümüdür və bu baxımdan Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü geridə qalan zaman kəsiyinin, həmçinin Azərbaycanın bu prosesdə oynadığı birləşdirici missiyanın qiymətləndirilməsi baxımından da çöx önəmlidir. Prezident İlham Əliyevin Zirvə görüşündə qeyd etdiyi kimi, TDT bu dövr ərzində uğurlu inkişaf yolu keçib. Bunu Naxçıvan sazişindən Qarabağ Bəyannaməsinin imzalanmasına qədər keçən zaman kəsiyində cərəyan edən proseslər, Türk Dövlətləri Təşkilatının institusional

təsisatlarının yaradılması istiqamətində atılan əməli addımlar da sübuta yetirir.

TDT ölkələri arasında əməkdaşlıq artıq bütün istiqamətlərdə sürətlənməkdədir. Müasir dövrdə hər bir dövlət üçün həyati əhəmiyyət daşıyan müdafiə və təhlükəsizlik sahəsindəki əməkdaşlıq da Türk Dövlətləri Təşkilatı üçün prioritetə çevrilmişdir. Türk dövlətlərinin silahlı qüvvələri birgə hərbi təlimlər keçir, müdafiə, müdafiə sənayesi və təhlükəsizlik sahəsində əməkdaşlığı gündən-günə genişləndirirlər. Bütün bunlar isə, şübhəsiz ki, qarşılıqlı etimadın, dostluğun, qardaşlığın bariz nümunəsidir.

Azərbaycan hazırda təkcə ölkə və region üçün deyil, bütün türk dünyası üçün tarixi əhəmiyyət kəsb edən COP29 konfransına ev sahibliyi etməyə hazırlaşır. Ötən ilin dekabrında 200-ə yaxın ölkə Azərbaycanın namizədliyini dəstəkləyib. Təbii ki, bu ölkələrin arasında qardaş türk dövlətlərinin ölkəmizə verdiyi səmimi dəstək, həm də qarşılıqlı münasibətlərin göstəricisi kimi dəyərləndirilə bilər. Cənab Prezidentin vurğuladığı kimi, Türk Dövlətləri Təşkilatına üzv ölkələr COP29 konfransının işində fəal iştirak edəcək, həm TDT-yə üzv ölkələr arasında qarşılıqlı münasibətlərin yüksək səviyyədə olduğunu, həm də türk dünyası bəşəriyyəti ciddi çağrışlar qarşısında qoyan bəşəri problemlərə münasibətdə həssaslıqlarını nümayiş etdirəcək, iqlim dəyişiklikləri ilə mübarizədə öz töhfələrini verəcəklər.

**Ceyhun Məmmədov.** 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində işğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəh-

bərliyi ilə Azərbaycan Ordusu 44 günlük döyüşlərdə düşmənə diz çökdürərək, torpaqlarımızı işğalçılardan təmizləyərək, ərazi bütövlüyümüzü və tarixi ədaləti bərpa etdi.

8 noyabr tarixinin ölkəmizdə hər il Zəfər Günü kimi qeyd olunması, həm də Azərbaycan xalqının əzm və iradəsinin, iqtisadi gücünün, müasir ordu quruculuğunun və xalq–iqtidar birliyinin göstəricisidir.

Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin çirkin kampaniyalarına qarşı fədakarlıqla mübarizə apardılar. Ermənistanın bütün təxribat və cəhdlərinə baxmayaraq, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşları görünməmiş həmrəylik nümayiş etdirdi, ön və arxa cəbhədə sarsılmaz birlik yarandı.

Hazırda ölkəmiz yeni mərhələyə daxil olub. Qarşıda bizi hələ çox mühüm vəzifələr gözləyir: ölkəmizə qarşı həyata keçirilən məkrli planlara son qoymaq, çirkin hücumları dəf etmək və əldə etdiyimiz qələbəni daha da möhkəmləndirmək. Heç şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bütün taleyüklü məsələlərin öhdəsindən uğurla və ləyaqətlə gəlməyi bacaracaq.

Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət, hədsiz fərəh, qürur hissləri yaşayır. Bu Zəfərlə biz Ermənistanın 30 illik işğalına son qoyduq. Torpaqlarımızı azad etməklə

qalib dövlət və xalq kimi tarixə düşdük.

**Elnarə Akimova.** Noyabrın 8-i və 9-u Azərbaycanın tarixi taleyində xüsusi əhəmiyyət kəsb edən bir gündür. 8 noyabr bizim Zəfər hekayəmizdir. Ölkəmiz üçün qalibiyyət müjdəsinin, bütövlük möcüzəsinin başlanğıcıdır. Ardınca 2023-cü il 23 sentyabrının özü ilə gətirdiyi suverenlik faktı, daha sonra həmin ilin 15 oktyabrında Xankəndidə bayrağımızın ucalma təntənəsi, siyasi arenada güclənən nüfuz, diplomatik səriştə və əzmin yetirdiyi yeni bir Azərbaycan. Bütün bunların nəticəsidir ki, Zəfər Gününü – bu taleyüklü hadisəni bütün mənalarda istiqlalını qazanmış, sərhədlərini bərpa etmiş, böyümüş, güclənmiş, nüfuzunu və səriştəsini artırmış bir ölkənin vətəndaşları kimi qarşılayırıq.

Artıq zaman deyil, proseslər, situasiyalar fərqli şəkil alıb. Zəfər tariximizin müstəsna tarixi fenomen olduğunu günbəgün daha dərinliyi ilə hiss etməkdəyik. Bu mənada, nəzər nöqtələri, diskurslar, yanaşmalar dəyişib və dəyişməkdədir. Yəqin ki, tədricən şüuraltı axın daha dərinlərə işlədikcə çağın obrazını daha əhatəli, epik panoram genişliyi ilə idrak edəcəyik. Amma bu günün içindən belə aydın görünən, getdikcə bütün yönləri ilə sərgilənən həqiqətlər var ki, onlarla bağlı qənaət birmənalı olaraq sabitdir. Məsələn, böyük qələbəmizi bizə qazandıran dəyərlər, təməllər, siyasi sistemin möhkəm sütun üzərində pərvəriş tapması və sair bunlar Ümummilli Lider Heydər Əliyevin dühasında qurulan, dövlət müstəqilliyinin möhkəm təməllərini yaradan əməllər sırasında ehtiva olunmuşdur. Bu əməllər sonradan dövlət başçısı İlham Əliyevin siyasətində sabahlı bir gələcək kontekstindən mündəricə qazandı. Əlbəttə ki, Qarabağda qazanılan Zəfər, Şuşanın

işğaldan azad olunması bütün bunların zirvə məqamı oldu. Amma bura qədər də İlham Əliyev Azərbaycan dövlətinin dayaqlarını əsaslı şəkildə inkişaf etdirərək möhkəmləndirən və yeni üfüqlər açan qüvvətli lider kimi özünü çoxdan təsdiq etmişdir.

İlham Əliyev 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirdi, Azərbaycanda türk qanlı, islam imanlı, Avropa fikirli gənclərimiz üçün bayraq meydanlarını qurdu, eləcə də türk ruhunu ehtiva edən, bayraq ideologiyamızın formalaşmasında rolu olan aydınlarımızın irsinə həssaslıqla yanaşdı, Əlimərdan bəy Topçubaşovun Parisdəki məzarını ziyarətgah halına gətirdi, ruhunda daim məfkurə havası gəzdirən insanların – Əli bəy Hüseynzadənin, Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli Xan Xoyskinin, Əhməd bəy Ağaoğlunun yubileylərinin ölkə miqyasında və dövlət səviyyəsində keçirilməsi ilə bağlı sərəncamlar imzaladı. Qələbəmizin genetik kodlarını daşıyan bu sıranı istənilən qədər artırmaq olar. Bütün bunlar məhz bu günün Zəfər təntənəsinə hesablanmış strateji gücün təzahürləri idi ki, xalqın, dövlət şüurunun güclənməsində, vahid bir ideya ətrafında köklənməsində, insanların milli və tarixi dəyərlər üzərində səfərbər edilməsində, öz tarixi kimliyindən uzaq düşməməsində böyük rol oynadı. Bu mənada, 2020-ci il noyabrın 8-də Zəfərimizi həm xislətimizdəki məğrur ruhun gücü ilə, həm də daim diri tutulan azərbaycançılıq idealımız, məfkurəçi düşüncəmiz sayəsində qazandıq.

**Əminə Ağazadə.** Bu il tarixi Zəfərimizin dörd ili tamam olur. Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə

alması nəticəsində Azərbaycan Ordusu vətən uğrunda ölüm-dirim savaşına qalxdı. Ordumuz bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Dağlıq Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün Vətən müharibəsinə başladı.

"Dəmir yumruq" əməliyyatının ilk saatlarında artıq cəbhə xəttindən sevindirici xəbərlər alırdıq. 44 gün ərzində hər gün Azərbaycan Ordusu irəli getdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edildi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müharibənin gedişi dövründə xalqa müraciətlərinin hər biri zəfər ruhunda oldu. Hər bir müraciətində xalqa müjdələr çatdıran dövlətimizin başçısı İlham Əliyev müharibənin qələbə ilə başa çatacağına əminliyini ifadə edirdi.

Vətən müharibəsi, sadəcə, Azərbaycan Ordusunun arsenalında olan çoxsaylı müasir hərbi texnikanın və avadanlığın real döyüş şəraitində uğurlu nümayişi ilə yadda qalmadı. Bu müharibə, həm də Azərbaycan əsgərinin, Azərbaycan xalqının vətən, bayraq, torpaq sevgisi ilə düşüncələrdə iz saldı. Dövlət–xalq–ordu birliyi ordunun güc mənbəyinə çevrildi. Məhz bu vətən sevgisi, həmrəylik nəticəsində düşmən döyüş meydanından silah-sursatını ataraq qaçmağa, təslim olmağa, aman diləməyə məcbur oldu. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı

qüvvələrini deyil, o, erməni mifini də məhv etdi. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.

Zəfər Azərbaycanı beynəlxalq ictimaiyyətə bir daha tanıtdırdı. Azərbaycan beynəlxalq arenada torpaqları, ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizə aparan bir dövlət olaraq hörmətə layiqli yer tutdu. Zəfər onun beynəlxalq nüfuzunu və hörmətini artırdı.

Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yaxşı bilirik. Bu şanlı Zəfər Günündə biz, eyni zamanda, şəhidlərimizin ailələri ilə birlikdə kədərlənirik. 30 ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad edilib. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi. Biz tarixi ədaləti bərpa etdik, müqəddəs qələbə qazandıq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq. Allah şəhidlərimizə rəhmət eləsin!

44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın Zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər ordumuzun şücaəti, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq. Azərbaycan xalqı, onun mərd övladları bir daha bütün dünyaya sübut etdilər ki, Qarabağ Azərbaycandır!

**Fatma Yıldırım.** Azərbaycan xalqı olaraq 8 Noyabr – Zəfər Gününü böyük coşğu və təntənə ilə qeyd edirik. 4 il öncə sentyabrın 27-də başlanan Vətən müharibəsi ilə dövlətimizin qətiyyəti, ordumuzun gücü, Ali Baş Koman-

danımızın əzəmətli sərkərdəliyi, xalqımızın birliyi ilə erməni işğalına son qoyuldu. Azərbaycan dövləti qalib dövlət, xalqımız isə qalib xalq kimi dünya tarixinə öz möhürünü vurdu.

Noyabrın 8-də müqəddəs üçrəngli bayrağımızın Qarabağın döyünən ürəyində, mədəniyyətimizin beşiyi olan Şuşada dalğalanması hər birimizi qürurlandırdı. Şuşanın işğaldan azad olunması Ermənistanı diz çökdürdü, növbəti qələbələrimizin əsasını qoydu. Biz torpaqlarımızın erməni işğalından azad olunması sevincini məhz müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman əsgərlərimizin, döyüşçülərimizin sayəsində yaşayırıq. Məhz onların qanı, canı bahasına, misilsiz vətənpərvərlik və döyüş ruhu sayəsində bu qələbələri qeyd edirik. Bu yolda 3 minə qədər şəhid verdik, minlərcə qazimiz oldu. Biz şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərə Allahdan şəfa diləyirik, qəhrəman əsgər və zabitlərimizlə, döyüşlərdə iştirak edən hər bir həmvətənimizlə qürur duyuruq. Bu oğulları böyüdüb boya-başa çatdıran ana-atalarımıza minnətdarıq.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olunmasının ən başlıca səbəbidir. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmaq niyyətində deyil və barışmadı da. Prezident İlham Əliyevin müzəffər Ali Baş Komandan kimi gərgin əməyinin nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən xalq kimi tanındı.

Müxtəlif beynəlxalq dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə rəğmən, Azərbaycan öz haqq savaşında zəfər

çaldı. Əlbəttə ki, tarixi Zəfərimizin qazanılmasında dövlət siyasəti, güclü ordu amili ilə yanaşı, milli birliyimizin və həmrəyliyimizin sarsılmazlığı müstəsna əhəmiyyət kəsb edir. Bütün xalqımız cənab Prezidentin və ordumuzun ətrafında sıx birləşmişdi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdikdən sonra qarşımızda böyük çağırışlar dayanır. Bu çağırışların əsaslarından biri 30 il erməni işğalında olmuş və bu illər ərzində vəhşicəsinə dağıdılmış, talan edilmiş yurdlarımızı bərpa etmək, həmin torpaqlara yenidən həyatı qaytarmaqdır.

Artıq o torpaqlara həyat qayıdır. Son 4 ildə reallaşdırılan layihələr deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək.

Mən Zəfər Günümüzdə torpaqlarımızın azadlığı uğrunda döyüşən hər bir qəhrəmanımıza dərin minnətdarlığımı bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!

**Kamran Bayramov.** Mən də hər birinizi qarşıdan gələn tarixi bayramımız – Zəfər Günü münasibəti ilə təbrik edirəm. Tarixi Zəfərimiz Azərbaycan tarixinin ən şanlı səhifəsidir.

Azərbaycan torpaqlarının işğalçı Ermənistan tərəfindən 30 il ərzində əsarətdə saxlanılması ərazi bütövlüyümüzün təmin edilməsi və tarixi ədalətin bərpa olunması üçün hərbi gücdən istifadəni zəruri etdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan ordusunun

məğlubedilməzliyi barədə illərcə formalaşdırılmış mifi cəmi 44 günə dağıda bildi.

Tarixi qələbəmiz Azərbaycan xalqının milli dəyərlərə söykənən böyük potensialını üzə çıxardı. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizlə bağlı tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil iki əsrdə yoluna qoyulması mümkün olmayan münaqişəni "dəmir yumruğ"un zərbəsi ilə cəmi 44 günün içində həll etdi. Xüsusi vurğulamaq lazımdır ki, BMT tarixində ilk dəfə belə bir mötəbər beynəlxalq qurumun qətnamələrini işğala məruz qalan tərəf öz gücünə icra etdi.

Vətən müharibəsindən ötən dövrdə Zəfər yürüşünün gözlənilən davamı gəldi, Azərbaycanın dövlət suverenliyi tam bərpa olundu. Bu baxımdan son dörd il bir çox tarixi hadisələrlə zəngin dövrdür. Silahlı Qüvvələrimiz tərəfindən antiterror tədbirlərinə başlanıldı, Azərbaycan ərazisindəki qanunsuz silahlı birləşmələrin ön xətdə və dərinlikdə olan mövqeləri, atəş nöqtələri, döyüş vasitələri və bazaları yüksək dəqiqlikli silahlarla vurularaq sıradan çıxarıldı. Cəmi bir sutka davam edən antiterror əməliyyatı Ali Baş Komandanın qətiyyətini, ordumuzun gücünü bir daha nümayiş etdirdi. Düşmən üç il əvvəl olduğu kimi, yenə ağ bayraq qaldıraraq təslim olmağa məcbur edildi. Bununla da Qarabağda terrorçuların və separatçı rejimin mövcudluğuna son qoyuldu, Qarabağ mövzusu birdəfəlik qapandı.

Ötən il oktyabrın 15-də növbəti tarixi hadisənin şahidi olduq. İlham Əliyev Prezident seçilməsinin iyirminci ildönümü günündə Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda Dövlət bayrağımızı ucaldaraq daha

bir şanlı tarix yazdı, xalqımıza böyük sevinc və qürur yaşatdı.

Xalqımız dörd ildir ki, Azərbaycan Prezidentinin qurub yaratmaq əzminin, müharibədə olduğu kimi, quruculuq işlərində də sonsuz qətiyyət və əzmkarlığının şahididir. Şanlı Zəfərdən Böyük Qayıdışa doğru inamlı addımlar atılır, doğma Qarabağımıza yenidən həyat qayıdır.

Bu gün Azərbaycan dövləti işğalçı Ermənistana sülh razılaşmasını imzalamağı təklif etməklə humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirir. Ancaq Ermənistan yenə də xislətinə uyğun olaraq, müxtəlif bəhanələrlə sülh razılaşmasını imzalamaqdan yayınır. Amma Ali Baş Komandanımızın da dediyi kimi, Azərbaycanın tələbi də ortadadır: sülh təklifi masa üzərində daimi saxlanıla bilməz.

Bu gün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Çünki onun illər öncə arzuladığı azad Qarabağ məntiqi sonluğuna çatıb, müharibə şanlı Zəfərlə yekunlaşıb. Biz isə əminik ki, bu zəfərlərin davamı gələcək, Prezident İlham Əliyevin liderliyi ilə bundan sonra da yeni-yeni qələbələrə imza atılacaq.

**Kamaləddin Qafarov.** Noyabrın 8-i Azərbaycan xalqının şərəf və istiqlal salnaməsinə qızıl hərflərlə həkk olunmuş şanlı Zəfər Günüdür. Bu möhtəşəm qələbəyə aparan 30 ilə yaxın bir müddət xalqımızın dönməz mübarizə və əzmkarlıq səyləri ilə zəngindir. İşğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması ölkə Prezidenti cənab İlham Əliyevin bu illər ərzində həyata keçirdiyi dövlət siyasətinin mütləq prioriteti və strateji hədəfi olub. 4 il bundan öncə Azərbaycan öz

məqsədinə çatdı. Guya vasitəçi missiyası daşıyan müxtəlif beynəlxalq təşkilatların apardıqları nəticəsiz danışıqlar səbəbilə 30 il ərzində həllini tapa bilməyən münaqişə cəmi 44 gün davam edən Vətən müharibəsində əldə olunmuş tarixi qələbə nəticəsində sona çatdı.

2020-ci il noyabrın 8-də Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Şuşanı azad etməklə bütün Qarabağın və ətraf rayonların işğalına, bütövlükdə, qondarma "Dağlıq Qarabağ" münaqişəsinə birdəfəlik son qoydu. Şuşanın azad olunmasından 2 gün sonra – noyabrın 10-da imzalanmış məlum Bəyannamə təkcə Qarabağ münaqişəsinə deyil, həm də Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılması ilə bağlı bütün xain planlara birdəfəlik son qoydu. 2003-cü ildən həmin tarixi günə qədər ötən bütün dövr ərzində dövlətimizin başçısı tərəfindən atılmış hər bir addım və qəbul olunmuş hər bir qərar doğma Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət edib. Nəhayət, 4 il bundan öncə bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin nəticəsi olaraq işğal altında olan torpaqlarımız düşməndən azad edildi və Azərbaycanın bütün sərhədləri boyunca müqəddəs üçrəngli bayrağımız dalğalandı.

Vətən müharibəsində əldə olunmuş qələbə, ilk növbədə, səmərəli ordu quruculuğu işinin və iqtisadi inkişafın nəticəsidir. İşğalın davam etdiyi bütün dövr ərzində Azərbaycan danışıqlar masasında prinsipiallıq göstərərək münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün əlindən gələni edir, eyni zamanda, güclü ordu yaradırdı. Ordu quruculuğu hər zaman Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqaməti olub. Vətən müharibəsində

tarixi qələbəni əldə etmək üçün həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə böyük hazırlıq işləri həyata keçirilib. Bu gün artıq hər kəs bilir ki, 2003-cü ildən Vətən müharibəsinin başlandığı günə qədər keçən dövr ölkəmiz üçün öz ərazi bütövlüyünü bərpa etməyə bir hazırlıq dövrü olub. Həmin illər ərzində dövlətimizin başçısı qələbəmizi təmin edəcək şəraiti yaratmaq məqsədi ilə düşünülmüş siyasət yürüdüb, zəruri addımlar atıb. Ölkə Prezidenti İlham Əliyevin son illər yürütdüyü uğurlu daxili və xarici siyasət və bu zəmində Azərbaycanın əldə etdiyi böyük iqtisadi uğurlar beynəlxalq dairələrin də diqqətini cəlb etdi. İlk növbədə, məhz iqtisadi amil ölkənin qüdrətini artırdı və qələbəni reallığa çevirdi. Bütün regional layihələrdən təcrid olunmuş Ermənistandan fərqli olaraq Azərbaycan transmilli layihələr ilə regionda tamamilə yeni mənzərə sərgilədi. Beynəlxalq təşkilatlarla əməkdaşlıq münaqişənin həlli üçün əlverişli zəmin yaratdı. BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar müvafiq qətnamələr qəbul edib. Avropa İttifaqı ilə paraflanmış sənəddə sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Bütün bunlar və əlbəttə ki, Azərbaycanın Vətən müharibəsində qələbəsini təmin edən ən vacib amillərdən biri – ölkəmizdə xalqın öz Prezidentinə olan sonsuz inamı əsasında formalaşmış xalq–iqtidar birliyi, milli həmrəyliyimiz bizi bu Zəfər gününə gətirib çıxardı. Azərbaycan Prezidentinin polad iradəsi, Azərbaycan Ordusunun yenilməz gücü və Azərbaycan xalqının sarsılmaz birliyi tarixi qələbəni təmin etdi. Keçən ilin sentyabr ayında isə cəmi 23 saat davam edən antiterror əməliyyatı Azərbaycanın

gücünü bir daha göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da Azərbaycan bütün ölkə ərazisində tam suverenliyini bərpa etdi.

Azərbaycan heç zaman müharibəyə başlamaq niyyətində olmayıb və yalnız münaqişənin sülh yolu ilə həlli imkanları tam tükəndikdən sonra bu addımı atmaq məcburiyyətində qalıb. Azərbaycan özünün işğal edilmiş ərazilərinin siyasi-diplomatik yollarla geri qaytarılması üçün 30 il ərzində səbr və təmkin nümayiş etdirdi, müharibənin başlanmaması üçün bütün vasitələrdən istifadə etdi. Lakin dünya birliyi, beynəlxalq təşkilatlar münaqişənin sülh yolu ilə həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində bircə real addım belə atmadılar. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənildi və beynəlxalq qətnamələr kağız üzərində qaldı. Hətta dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı sayılan BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirdi və tərəfləri sülhə çağıran bəyanatlarla kifayətləndi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi isə 27 il icra olunmadı. Ermənistanın aramsız davam edən təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etdi və İkinci Qarabağ savaşının başlanması tarixi zərurətə çevrildi. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirə bildi. On minlərcə insanın orduya könüllü kimi yazılması, eləcə də təxribatlar zamanı öz evlərini tərk etməməsi faktı Azərbaycanda sarsılmaz xalq–ordu–iqtidar birliyindən xəbər verdi. Məhz bu birlik bizim böyük qələbəmizə gətirib çıxardı.

**Könül Nurullayeva.** Bildiyiniz kimi, Azərbaycan xalqı dörd ildir, milli Zəfər Gününü qeyd edir. Vətən müharibəsinin 43-cü günü müzəffər Azərbaycan Ordusu alınmaz qala olan Şuşanı işğaldan azad etdi. 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva bu münasibətlə Fəxri xiyabanı və Şəhidlər Xiyabanını ziyarət etdilər. Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edərək 30 il müddətində gözlədiyimiz müjdəni çatdırdı. Beləliklə, 8 noyabr Şuşanın azad olunması, Zəfər Günü kimi tarixə düşdü. Azərbaycan xalqı 30 il ərzində bu tarixi anı gözləyirdi. Ermənistan və onun havadarları yaxşı anlayırdı ki, strateji əhəmiyyətə malik olan Şuşaya sahib olmaq, bütövlükdə, Qarabağa sahib olmaq deməkdir. Ona görə də məhz Şuşanın azad olunması Vətən müharibəsinin taleyində həlledici rol oynadı. 44 gün ərzində Azərbaycan Ordusu yalnız irəli getdi. Şuşa döyüşləri isə unikallığı ilə hərb tarixinə düşdü.

Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə nümunə sərgilədi. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi. Təsadüfi deyil ki, XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərb məktəblərində öyrənilir.

Şuşa 30 ildən sonra öz sahiblərini qarşıladı. Müharibədən cəmi 4 il ötməsinə baxmayaraq, Şuşa tam müasir və abad görkəm alıb. Burada milli ənənələrimiz də artıq bərpa olunub. “Xarıbülbül” festivalı, “Vaqif” poeziya gün-

ləri, ziyalılarımızın ev muzeylərinin, dini-mədəni abidələrin bərpası Şuşanın tarixi və milli simasını özünə qaytarıb. Şuşa mədəniyyət paytaxtı olmaqla yanaşı, həm də beyin mərkəzinə çevrilməkdədir. Beyin mərkəzlərinin nümayəndələrinin toplaşdığı məkan kimi qlobal məsələlərin müzakirə olunduğu beynəlxalq platformalara ev sahibliyi edir. Şuşanın azad olunması hərbi-strateji uğur olmaqla yanaşı, həm də xalqımızın, dövlətimizin mənəvi qələbəsidir. Təsadüfi deyil ki, Şuşa türk dünyasının da mədəniyyət paytaxtı elan edildi. Cari ilin iyulunda Şuşada Türk Dövlətləri Təşkilatı dövlət başçılarının qeyri-rəsmi toplantısı keçirildi və təşkilatın tarixində ən vacib sənəd – "Qarabağ bəyannaməsi" də bu tarixi məkanda imzalandı.

Böyük Qayıdış strategiyası yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin, ümumən, regionun yeni inkişaf modelinə çevrilib. Böyük Qayıdış proqramı çərçivəsində Şuşa şəhərində 204 ailənin, yəni 763 nəfərin daimi məskunlaşması təmin edilib. Ümumilikdə isə, işğaldan azad olunmuş ərazilərimizdə təqribən 30 minə yaxın insan yaşayır. Bu gün, həm də Şuşa şəhəri günüdür. Azərbaycan bayrağı bu gün Şuşa ilə yanaşı, Xankəndidə, Xocavənddə, Xocalıda, Ağdərədə, Əsgəranda, bir sözlə, ölkəmizin dörd bir yerində dalğalanır. Azərbaycan xalqı Şuşa başda olmaqla bütün tarixi torpaqlarımızda əbədi yaşayacaq.

**Mahir Süleymanov.** Bu gün hər bir azərbaycanlı üçün xüsusi və əlamətdar bir gündür. Bu gün Azərbaycan xalqının milli birliyinin və həmrəyliyinin təntənəsi olan 8 Noyabr – Zəfər Gününü və Qarabağımızın tacı olan Şuşa şəhəri gününü qeyd edirik. Məhz Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin vaxtında

qəbul etdiyi qətiyyətli qərarlar, müdrik və düzgün siyasəti nəticəsində rəşadətli Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsini qələbə ilə başa vuraraq dünya tarixində öz qalibiyyət salnaməsini yazdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bizə Zəfər qazandıran qəhrəman əsgər və zabitlərimiz vətənə sonsuz sevgi hissi ilə torpaqlarımızı 30 illik əsarətdən azad etdilər. Öz canı və qanı bahasına düşmən üzərində tarixi Zəfər çalan qəhrəmanlarımızın müqəddəs Azərbaycan bayrağını Şuşaya sancdığı 8 noyabr tariximizə əbədi olaraq Zəfər Günü kimi həkk olundu.

Vətən müharibəsində Qarabağın döyünən ürəyi və əlçatmaz qala hesab edilən Şuşa şəhərinin işğaldan azad edilməsi hər bir azərbaycanlı üçün vacib əhəmiyyət daşıyırdı. Xüsusi Təyinatlı Qüvvələrin igidlərinin əlçatmaz və alınmaz qalanın sıldırım qayalıqlarına dırmaşaraq yüngül silah-sursatla Şuşanı işğaldan azad etməsi bir daha göstərdi ki, Azərbaycanın qüdrətli, güclü və yüksək peşəkarlığa sahib ordusu var. Şuşa şəhərinin məhz 8 noyabr tarixində işğaldan azad edilməsinin isə bir başqa tarixçəsi var. 1992-ci il mayın 8-də erməni silahlı birləşmələri tərəfindən işğal edilmiş Şuşa şəhəri Azərbaycan Ordusunun igidləri tərəfindən məhz noyabrın 8-də azad edildi ki, bu da düşmənə tərs sillə kimi dəydi. Ermənilər bu sillənin səsini və ağrısını illər keçsə də, unuda bilməyəcəklər. Xüsusi Təyinatlı Qüvvələrin əsgər və zabitlərinin Şuşa şəhərini azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədi ilə tikilən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun cənab Prezident tərəfindən Zəfər yolu adlandırılması xüsusi qürurvericidir.

Burada xüsusi olaraq qeyd edilməlidir ki, 30 il müd-

dətində aparılan danışıqlar və sülh yolu ilə həll edilməyən münaqişənin müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 gün ərzində həll edilməsi Azərbaycan Ordusunun yüksək peşəkarlığının, gücünün və qüdrətinin göstəricisi idi.

"Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır", – deyən dövlətimizin başçısı cəmi 44 gün davam etmiş və Azərbaycanın qələbəsi ilə başa çatmış İkinci Qarabağ müharibəsini "tarixi zəfərimiz" adlandırmışdır.

Azərbaycan xalqının qüdrətinin və milli qürurunun təntənəsinə çevrilən, bütün dünya azərbaycanlılarının böyük iftixar hissi ilə qeyd etdiyi şanlı qələbəmiz, Zəfər bayramımız mübarək olsun! Doğma vətənimizə sülh, əmin-amanlıq, xalqımıza firavanlıq arzu edir, hər kəsi Zəfər Günü və Şuşa şəhəri günü münasibəti ilə təbrik edirəm.

**Mehriban Vəliyeva.** "Heyvanlar aləmi haqqında" Qanunun 53-cü maddəsinə edilən əlavə üslubi cəhətdən bu cür redaktə edilərsə, dilinin ağırlığı aradan qalxar: "...heyvanlarla rəhmsiz rəftar etdikdə, yəni onlara əzab və işgəncə verildikdə, döyülmə və döyüşdürülmə nəticəsində şikəstlik və ya tələf edilmə halı baş verdikdə, rəhmsiz rəftar sosial şəbəkələrdə, mediada və digər sosial mühitdə nümayişkaranə şəkildə törədildikdə, bu tərzdə hallara çağırış, bununla bağlı təbliğat xarakterli tədbirlər görüldükdə, belə rəftarı əks etdirən materialları kommersiya məqsədləri üçün istifadə etdikdə..."

"Ətraf mühitin mühafizəsi haqqında" Qanunun 3-cü maddəsinə edilən əlavə üslubi cəhətdən bu cür redaktə edilərsə, dilinin ağırlığı aradan qalxar: "Bu qanun meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərindəki yaşıllıqlar, kənd təsərrüfatı

məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətə aid həyət-yanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə ərazisindəki yaşıllıqlara şamil edilir".

**Nigar Məmmədova.** Gender əsaslı zorakılığın bütün formalarının aradan qaldırılması üçün zəruri və təsirli tədbirlərin görülməsi vacibdir. Azərbaycan 1995-ci ildə BMT-nin Baş Assambleyasının Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Konvensiyaya qoşulub. 2010-cu ildə isə ölkəmizdə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilib. Bu qanuna təklif olunan dəyişikliklər səmərəliliyi artıracaq və müraciətə baxan dövlət orqanlarının vəzifəli şəxslərinin məsuliyyətinin artırılmasına gətirib çıxaracaq. Belə ki, məişət zorakılığı ilə bağlı şikayətə baxılma müddəti, şikayətə baxmalı olan orqan, şikayətə baxılan zaman dəvət olunmalı şəxslərin əhatə dairəsi, o cümlədən vəkil, psixoloq və tərcüməçilərin xidmətindən istifadə sənəddə əksini tapıb. Həmçinin məişət zorakılığından zərər çəkmiş şəxslərdən biri 16 yaşınadək və ya əlilliyi olan şəxs olduqda aparılan araşdırma və dinləmələrdə pedaqoqun və ya psixoloqun iştirakı təmin olunacaq.

Qanunvericiliyin mütəmadi olaraq təkmilləşdirilməsi Azərbaycanda məişət zorakılığından zərər çəkənlərin hüquqlarının qorunmasını təmin edir. Qanun məişət zorakılığına qarşı mübarizəni rəhbər tutan əsas prinsipləri müəyyən edir. Onların arasında fərdi yanaşma, məxfilik və ailənin qorunması var.

Hesab edirəm ki, ölkədə gender zorakılığının qarşısının alınması üçün intensiv maarifləndirmə işləri davam etdirilməlidir. Gender stereotiplərinin aradan qaldırılması

üçün media və özəl sektorun prosesə aktiv cəlb edilməsi səmərəli nəticələr verir.

Ölkənin bütün regionlarında əlçatan mərkəzlərin fəaliyyəti də zəruridir. Bununla yanaşı, səmərəli polis araşdırmaları qurmaq, kömək çağırışlarına dərhal reaksiya vermək, qadınlara qarşı zorakılıqla bağlı bütün iddiaların araşdırılmasını təmin etmək, idarələrarası qarşılıqlı əlaqə yaratmaq – hüquq pozuntuları haqqında məlumatların operativ şəkildə ötürülməsi vacibdir. Qeyri-hökumət təşkilatları, yerli hakimiyyət orqanları, polis və tibb müəssisələrinin birgə işinin təşkili də səmərəli nəticələr verir.

Məlumdur ki, məişət zorakılığı yalnız fiziki zorakılıq aktları ilə məhdudlaşmır, cinsi xarakterli, psixoloji və iqtisadi zorakılığı da əhatə edir. Bu problemləri aradan qaldırmaq üçün dövlət və mütləq şəkildə ixtisaslaşmış qeyri-dövlət təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi vacibdir.

Yeri gəlmişkən, 2019-cu ildə qəbul olunan "Mediasiya haqqında" Qanun da ölkəmizdə ailədaxili münaqişələrin həlli istiqamətində atılan vacib addımlardan biridir. Zorakılıq halları ilə bağlı işlərə baxan məhkəmə və hüquq mühafizə orqanlarının işinin təkmilləşdirilməsi üçün müvafiq proqramların icrası da prosesə töhfə verir.

**Sadiq Qurbanov.** Biz sabah tarixi bir günü – Zəfər Gününü bayram kimi qeyd edəcəyik. Zəfər günü hər bir xalqın milli qürur günüdür. Zəfər günü olan xalqlar dünyada öz sözünü demiş böyük xalqlardır. Biz xoşbəxt nəsilik ki, Zəfəri yaşamaq, onu bayram kimi qeyd etmək qismətimizə düşüb. Azərbaycan xalqının bu qələbəsi, şübhəsiz ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin adı və ordumuzla bağlıdır. Ordu qurucu-

luğunun təməli hələ Sovet dönəmində Ümummilli Lider Heydər Əliyevin hərbi kadrların yetişdirilməsinə yönəlik əməli fəaliyyəti ilə qoyulmuşdur. Eyni zamanda, Heydər Əliyev tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti ordusunun öyrənilməsinə, təbliğ edilməsinə ciddi önəm verilmişdir.

Prezident İlham Əliyevin Ulu Öndərdən qalmış mirası uğurla qəbul edərək ən yüksək səviyyəyə çatdırması bu qələbənin siyasi baxımdan təmin olunmasını şərtləndirdi. Prezident İlham Əliyev: "Mən işğal dövründə deyirdim, bir neçə dəfə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq".

Bəli, cənab Prezident hər bir vətəndaşı məsuliyyətli olmağa, öz üzərinə düşən milli öhdəlikləri dərk etməyə və əməli işi ilə vətənin işğaldan azad olunmasına çalışmağa sövq edirdi. Yuxarıda göstərilən bu fikirlər hər bir vətəndaşı vətəni sevməyə və qorumağa sövq edirdi. İlham Əliyevin gənclərə yönəlik doğru siyasəti nəticəsində gənclərin vətənpərvər ruhda yetişməsinə nail olundu. Prezident böyük qürur hissi ilə "Məhz mənim dövrümdə yetişən gənclik Qarabağı azad etdi" söylədi.

Ermənistanın işğalçı siyasətinin dünyada tanıdılması istiqamətində uğurlu diplomatik iş aparan müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Azərbaycan Prezidenti Qarabağ kimi çox çətin problemi həll edərək Ermənistanı, dünyadakı erməni diasporunu və onların havadarlarını diz üstə çökdürərək reallığı qəbul etməyə məcbur etdi, işğala son qoyuldu. Onun diplomatik

bacarığı beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edən tərəfdaş ölkələrin sayının artmasına səbəb oldu. Azərbaycan münaqişə boyunca bütün aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq edib və münaqişənin həlli üçün hüquqi bazanı hazırladı. BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamələr qəbul edib. Avropa İttifaqı ilə imzalanmış sənəddə sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilirdi. Müzəffər Ali Baş Komandan bununla da tarixi ədaləti bərpa etdi. Ermənistan üzərində parlaq qələbə əldə edilməsi həm də İlham Əliyevin apardığı praqmatik, sistemli siyasi kursun və uzaqgörən xarici diplomatiyanın bəhrəsi idi.

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Azərbaycan xalqı ordusunun qələbəsini Zəfər paradı ilə qeyd etdi. Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitləri iştirak

etmişdir. Paradı Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan izləmişdir. Paradda yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də iştirak etmişdilər.

Qələbəmizin simvollarından biri də Hərbi Qənimətlər Parkıdır. Buraya gələn hər bir insan Silahlı Qüvvələrimizin gücünü və iradəsini görür. 5 hektar ərazini əhatə edən parkda eksponatlar arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox hərbi avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları var. Burada Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə, 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

İşğaldan azad olunan ərazilərimizin, toponimlərimizin geri qaytarılması ilə bağlı Prezident İlham Əliyevin əməli addımları Azərbaycana qarşı 200 ildən çox davam edən

düşmənçilik siyasətinə qarşı ən kəskin addım idi. Çar Rusiyası zamanı əzəli Azərbaycan torpağı olan Qarabağa köçürüldükləri vaxtdan başlayaraq bu günə qədər erməni təxribatları davam edir. Məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişməyə başlamış, münbit əraziləri ələ keçirməyə çalışmış, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmışlar.

Qısa müddətdə başlayan quruculuq və məskunlaşma sayəsində azad olunmuş ərazilərdə keçmiş məcburi köçkünlərin, eyni zamanda, orada tikintidə işləyənlərin, dövlət qurumlarında çalışanların, Qarabağ Universitetinin tələbə və müəllimlərinin də sayını nəzərə alsaq, təqribən 20 min nəfərdən çox insan yaşayır.

Qarabağ Zəfəri bizim Qərbi Azərbaycana qayıdışımızın gerçəkləşməsi yolunda atılan ən böyük addımdır. Möhtəşəm Qarabağ Zəfərini bizlərə yaşadan müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi uzaqgörənliyi və Azərbaycan xalqının arzusu ilə öz doğma yurdumuz olan Qərbi Azərbaycana qayıdacağıq.

**Sevil Mikayılova.** 2020-ci il noyabrın 8-də Azərbaycan Ordusunun tarixi qələbəsi ilə işğaldan azad edilən Şuşa Azərbaycan xalqının milli iradəsinin və qəhrəmanlığının simvoluna çevrildi. Qarabağın döyünən qəlbi olan bu qədim şəhərin azadlığı yalnız strateji əhəmiyyət daşımır, eyni zamanda, Azərbaycan xalqı üçün mənəvi bir qələbə, milli qürurun təntənəsi kimi yaddaşlara həkk olundu.

44 gün davam edən Vətən müharibəsi boyunca Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu böyük iradə və peşəkarlıqla irəliləyərək, nəhayət, Şuşaya çatdı. Çətin relyef, düşmənin əlverişli mövqedə yerləşməsi və tanklarla silahlanması Azərbaycan

Ordusunun üzərinə xüsusi peşəkarlıq və cəsarət tələbləri qoydu. Azərbaycan əsgərlərinin bu çətin şəraitdə göstərdiyi qəhrəmanlıq Şuşanın azad edilməsi əməliyyatını Qarabağ Zəfərinin zirvəsinə çevirdi. Şuşa döyüşü, həm də göstərdi ki, güclü əzm və birliklə mümkünsüz görünən hədəflərə çatmaq olar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 8 noyabr – Zəfər Günü elan edilərək tarixin yaddaşında əbədi iz buraxdı. Şuşa şəhərində Ali Baş Komandan tərəfindən Azərbaycanın üçrəngli bayrağının ucaldılması yalnız hərbi qələbə deyil, eyni zamanda, milli birlik və milli qürur günü kimi qeyd olundu. Prezident İlham Əliyev bu günü "Azərbaycanın şanlı tarixi" kimi xarakterizə edərək Şuşanın azadlığını xalqın qürur mənbəyi kimi təqdim etdi. Zəfər Günü artıq hər il Azərbaycanın ən vacib dövlət bayramlarından biri olaraq qeyd edilir.

Şuşa döyüşünün qələbəsi Ulu Öndər Heydər Əliyevin qoyduğu təməl üzərində qurulmuş güclü və müstəqil Azərbaycan dövlətinin göstəricisi oldu. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi və hərbi sahələrdə gücünü artırdı və ölkəmiz BMT Təhlükəsizlik Şurasının 27 il boyunca yerinə yetirilməmiş qətnamələrini öz gücü ilə icra etdi. Ulu Öndərin müəyyən etdiyi müstəqillik və suverenlik yolunu davam etdirən Azərbaycan regionda və beynəlxalq səviyyədə gücünü göstərdi.

Qələbədən sonra Şuşa yalnız Azərbaycanın deyil, həm də türk dünyasının mədəniyyət paytaxtı elan edildi. Şəhərdə Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli və Bülbül kimi şəxsiyyətlərin büstləri bərpa edilərək əvvəlki yerlərinə qoyuldu. Şuşa Azərbaycan mədəniyyətinin simvolu olmaqla yanaşı, dünya miqyasında da böyük əhəmiyyət

kəsb edir. Şuşada turizm və infrastruktur layihələri həyata keçirilir, yeni otellər və konqres mərkəzləri fəaliyyətə başlayır ki, bu da şəhərin beynəlxalq mədəniyyət paytaxtı statusunu möhkəmləndirir.

İkinci Qarabağ müharibəsi yalnız hərbi qələbə deyil, həm də milli birliyin, xalqın öz lideri ətrafında möhkəm dayanmasının parlaq nümunəsi oldu. 44 gün ərzində Azərbaycan xalqı və Ordusu düşmən qarşısında bir addım belə geri çəkilmədən mübarizəyə davam etdi. Şuşanın azad edilməsi ilə 30 illik işğala son qoyularaq Azərbaycanın torpaqları öz əzəli sahiblərinə qaytarıldı.

2023-cü ilin sentyabr ayında aparılan antiterror tədbirləri nəticəsində Qarabağda separatçı rejim tamamilə aradan qaldırıldı və Azərbaycan öz suverenliyini tam bərpa etdi. Bu addım, Ali Baş Komandanın "dəmir yumruq" ifadəsinin real həyatda təzahürü olaraq, dövlətin qətiyyətini və gücünü bir daha nümayiş etdirdi. Həmçinin bu addım Azərbaycanın sərhədlərinin tam olaraq bərpasını təmin etdi və regionda sabitliyin bərpasına töhfə verdi.

Bu qələbə gələcək nəsillər üçün də əbədi qürur mənbəyi olacaqdır. Şuşanın bərpası Azərbaycanın mədəniyyət paytaxtı olaraq dünya miqyasında əhəmiyyətini artırır və gələcək illərdə inkişafını davam etdirərək dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün addımlar atılır. Azərbaycan xalqı üçün Şuşa şəhəri günü və Zəfər Günü həm keçmişin qürurunu yaşadan, həm də gələcəyin parlaq hədəflərinə gedən yolda ruh yüksəkliyi verən mühüm bir tarix olaraq əbədi qalacaqdır.

# MÜNDƏRİCAT


7 noyabr 2024-cü il ............................................................ 3

Edilməmiş çıxışların mətnləri............................................ 132

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Birinci sessiya
Payız

8-ci cild

7 noyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  10,5. Sifariş 2. Tiraj 150.